**Allahverdi Eminov**

# Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr

**“Elm və təhsil” nəşriyyatı**
**Bakı- 2015**

**Elmi redaktor:** **Şahin Fazil**
Tarix üzrə elmlər doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair

**Rəyçilər:** **Hüseyn Həşimli**
Filologiya üzrə elmlər doktoru, professor,
əməkdar elm xadimi

**Əmirxan Xəlilov**
Filologiya üzrə elmlər doktoru, professor

**Eminov A.**
**Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr.**
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2015, 214 səh.

*Kitab XX əsrin 80-ci illər ədəbi nəslinin istedadlı nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış şair və nəzəriyyəçi ədəbiyyatşünas alim Elşad Səfərlinin poeziyasına həsr edilmişdir. Özünəməxsus mövzu dairəsinə, obrazlı deyim, fəlsəfi düşüncə və yazı tərzinə malik şairin yaradıcılığına kitabın ilk hissəsində qısa nəzər yetirilir, ayrı-ayrı məqalələrdə isə şeir və poemalarının sənətkarlıq xüsusiyyətləri araşdırılır, mövzu və forma məziyyətləri konkret nümunələrlə təhlilə cəlb edilir. Şairin poeziyası haqqında digər ədəbiyyatşünas alimlərin və ədəbi prosesin bir sıra nümayəndələrinin fikirlərinə də müəyyən qədər əsaslandırıcı faktlar kimi istinad olunur. Kitabda müəllifin E.Səfərli poetikasının mühüm cəhətləri ilə bağlı mülahizə və düşüncələrinə ətraflı yer verilmişdir. Həmçinin elmi yaradıcılığına qısa ekskurslar edilir.*

$S\frac{4702000000-12}{N098-2015}qrifli\ nəşr$

İSBN 978-9952-8176-9-1

"Elm və təhsil" nəşriyyatı, 2015

# ÖN SÖZ ƏVƏZİ

## *Elşad Səfərli və onun poeziyasına qısa bir baxış*

Bədii ədəbiyyatda qəribəliklər, gözlənilməzliklər və möcüzələrin mümkünlüyü adi qarşılana da bilər. Çünki ədəbiyyat yeganə mənəvi-maddi nəsnədir ki, azad düşüncənin, sərbəst fikrin və sağlam təxəyyülün məhsuludur. Ədəbiyyatşünaslıq isə elmdir, bədii əsərlər onun predmetidir, analitik təfəkkürlə əriş-arğacdır. Üst və alt "üçlük"lər (yaradıcılığın yuxarıda qeyd edilən mühüm "üçlük" komponentləri nəzərdə tutulur – A.E.) nəticə etibarilə bir-birini tamamlayanda bitkin əsərə (kitaba) dönür, oxunur və gələcək nəslə ötürülür.

Əlbəttə, müəyyən zaman kəsiklərində şairlər (eləcə də nasirlər) və ədəbiyyatçılar ötən illərə qayıdır, tam bir dövrün xatirələrini yaşayırlar. Maraqlıdır ki, "ikincilər" dəyərli, ötüb keçəcək, itiriləcək yaradıcı insanlara etinasız olur, bəlkə də bir gün həmin adamların yoxluğunun fərqinə varmırlar. Sonra. Sonra isə... gecdir, ağrılıdır, əlçatmazdır. Sokrat nə deyirdi: "Məni tutun və saxlayın; sizə lazım olaram". Antik müdrik haqlı idi, üzünü gələcək minilliklərə tutaraq pıçıldamışdı...

Mən bir gün və indi arabir ötən xatirələrimə qayıdıram, yaşamaq istəyirəm, amma bu yaşamaq maddi-fiziki deyil, odu söndürüb, közüylə oynamaqdır-əylənməkdir. Sən demə, xoşbəxt yaşamaq istəyirsənmiş – lazım olandan çox fikirləşməliymişsən!

Biz bunu az-çox anladıq öz yozumumuzda – qələmini korşalmağa qoyma, səadətin ondadır və mən bu tezisi hə-

yatıma gətirdim. Bir müddət yanılımadığımı mən də, cəmiyyət də təsdiq etdi. Qələmimizlə yaxşı yaşadıq, yaxşı münasibətlərə çıxdıq, yaxşı oxucular qazandıq. Nəsil təzələndi, kitabların müəllifləri də həmçinin. Əsərlər yarandı və avtoqrafların "güdazına" getdi. Müəlliflərə rəsmi təyinatlı dairələr tərəfindən nə qonorar verildi, nə də satılmağa kitab mağazaları tapıldı. Oxucular yoxsullaşanda kitablar ucuzlaşır... Amma belə sayğısızlıq yazıçıları, şairləri, ədəbiyyatçıları ruhdan salmadı, buna hacət yoxdur. Həyatda bir səs qalır, bir söz qalır, bir də xatirələr.

Və bu sonuncu kövrək səslənən "xatirələr" məni ötən əsrin 80-ci illərinə apardı. Qəzet, mətbuat, naşir müstəvisinə qalxdım yenidən və yaxşı insanlarla tanış oldum, hətta bir yerdə işlədik. Xüsusən, yaradıcı mühit yarananda özün də müdrikləşirsən, sağlamlaşırsan, yeniləşirsən. Hər gün bir kəlmə yeni söz eşidirsən və o sözün fəlsəfəsinin izinə düşürsən, düşünürsən. Rene Dekart demişdir: "Mən düşünürəm, demək, mən mövcudam".

"Azərbaycan müəllimi" qəzeti və "Maarif" dövlət nəşriyyatı – bunlar mənim həyatıma daxil oldu, nə az nə çox - on altı ilimi zənginləşdirdi. Bu söz səltənətində kimlər vardı: Əbülfəz Naxçıvanlı, Ağamalı Sadiq, Hafiz Rüstəm, Elşad Səfərli, Rüzgar Əfəndiyeva, Qiyas Əcaib (bu istedadlı şair həm də folklorşünas alim idi — A.E.), Əlislam Bilal, Ədalət Əsgəroğlu, Kamal Alışoğlu, Əhməd Rəhimov, Bahadır Eyvazov, Fətullah Abdullayev, Bəxtiyar Qaraca və s. Sonralar bəziləri – Ağamalı Sadiq Əfəndi, Bəxtiyar Qaraca, Ədalət Əsgəroğlu iş yerlərini dəyişdilər və bunlardan sonuncusu uzun müddət Azərbaycan Yazıçılar Birliyində Mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışdı.

Bu istedadlar o illərdə çox gənc idilər, amma həyatı idrak qabiliyyətinə malikdilər, yüksək davranış mədəniyyə-

tini mənimsəmişdilər, daima axtarış hissilə yaşayırdılar. Bu keyfiyyətlərdən savayı onlar dəyərli işə qiymət verməyi bacaran, böyüyün yerini bilən, ata-analarını sevənlərdi.

Çox təəssüflər olsun ki, sonralar həmin istedadlılar sırasında itkilər böyük oldu. Nəğməkar şairə Rüzgar Əfəndiyeva, Qiyas Əcaib, Ağamalı Sadiq, Əlislam Bilal, Ədalət Əsgəroğlu artıq aramızda yoxdurlar. Hansı ki, onlardan biri – bir neçə kitab müəllifi, orijinal təcnis, qoşma, gəraylılar yazan istedadlı şair Qiyas Əcaib haqqında bəhs edəcəyimiz Elşad Səfərlinin poeziyaya uğurlu gəlişinə Ş.Aslandan sonra "Azərbaycan müəllimi" qəzetində elə "Uğurlu yol" diləmişdi. Bir neçə şeirinə çox gözəl nəğmələr bəstələnən tanınmış şairə **Rüzgar Əfəndiyeva** isə Elşadın ilk "Dünya ömür yoludur" kitabına "Pöhrə bir gün çinarlaşar" adlı dolğun, tutarlı bir resenziya yazmış və "Yeni fikir" qəzetində çap etdirmişdi. O yazır: "Çinar yarpağı boyda bir kitab! Gənc şair Elşad Səfərlinin "Dünya ömür yoludur" kitabı! Bu kitabın sehrinə düşdüm (mübaliğəsiz!). Oxudum, düşündüm... "Dünyanın ömür yolu"nun nələrilə qarşılaşdım. Şair Elşadın ürəyi, bir də qələmi idi bu yolun səyyahı – kəşf edəni. Kəşf sözünü təsadüfi demədim. Şeirində yalnız və yalnız özü olan, poetik "Mən"ini təsdiqləyən şair üçün bundan böyük xoşbəxtlik varmı? Bu elə şairin istedadıdır ki, o, özü-özünü bir şair kimi kəşf edə bilmişdir. Şair hələlik cavan pöhrədir. Bu pöhrə ana torpağa kök atır, günəşə boylanır. Pöhrənin yaşıllığında bahar yaşayır. Təmənnasız günəş olduğu kimi, qəfil sarsıdıcı küləklər də varmış!

***Mənim ki könlümdən padşahlıq keçmir,***
***Bir cavan pöhrəyəm, əzirsiz niyə?!***
***Üstümdə yarpaqtək əsənim yoxdur,***
***Üstümə xəzritək əsirsiz niyə?!***

“Əsmək” sözü nə qədər maraqlı mənalandırılmışdır. Üstündə yarpaqtək əsmək pöhrələri qorumaq, üstünə xəzritək əsmək isə bu cavan pöhrənin əl-qolunu sındırmaq, onun boy atmasına sədd yaratmaqdır. Görünür, Elşadın “üstündə yarpaqtək əsənləri olmasa da, üstünə xəzritək əsənləri çoxdur”. Bunun nəticəsidir ki, o, ardınca yazır:

***Mənim də çap edin yazılarımı,***
***Sözlər ürəyimi yeyirlər, axı.***
***Qırxında kitabı çıxan şairə,***
***Gorunda  çalacaq deyirlər, axı.***

***Nə olsun uşağam, üzüyolayam,***
***Nə olsun taledən gələn baxtım az.***
***Vallah sinəmdəki söz gülləsini,***
***Hədəfə vurmasam könlüm toxtamaz...***

Oxuduqca şairin səsinə səs verirsən. Etiraz səsini ucaldan şairi kimsə qorumur! Küləklərə o özü sinə gərir.

Şeir dünyasına açılan təzə bir cığırdan keçdim. Burada solğun payız yarpağına bənzər qürub günəşi, dan yerinin bəyazlığı, torpağın təzə nəfəsi... nələr, nələr vardı. Bu cığıra “Arzu zirvəsindən işıq düşmüşdür.” Bu işıqda bir şair-pöhrə boy atır. O işıq mənim də qəlbimə izlər saldı. Düşündüm, bu pöhrə bir gün çinarlaşacaq. Qəfil, qara küləklər əssə də, əsməsə də.

Mən Elşad adlı şairin şairliyinə inandım. İndi isə söz oxucunundur”... ***(Bax: R.Əfəndiyeva. Pöhrə bir gün çinarlaşar. “Yeni fikir” qəz., Bakı, 1991, 28 noyabr, № 48 (78), s.7).***

80-90-cı illər nəsrimizin tanınmış bir xanım nümayəndəsi, istedadlı yazıçı **Zöhrə Əsgərova** isə Elşadın ikinci “Sözü ürəyində qalan adam” kitabına redaktor rəyində mü-

əllifin şeirlərinə yüksək dəyər verir: "Elşad Səfərlinin uğurlu, müdrikcəsinə keçmişimizi, bugünümüzü müqayisədə zərgər dəqiqliyi ilə yazılan mükəmməl şeirləri çoxdur, müəllifin zəhməti hədər deyil... İstedadlı şairi tərifləməyə bir uğurlu şeiri belə bəs edir – çünki hər bir şeiri onun mənəvi dünyasının poetik açarıdır... Buna görə də Elşad Səfərli kimi şairlərin kitabı oxucularımıza vaxtında çatdırılsa yaxşı olardı. Ona bu hüququ şeirləri qazandırmışdır" (28.07.1992).

Və bunu da unutmaq lazım deyil ki, bu yazılanlar Sovet ideoloji qılıncının nəşriyyat sistemimizdə "hər iki tərəfinin kəsdiyi vaxtlar" qələmə alınmış resenziya və rəylər idi. Belə yasaqlar dövründə hansısa istedadlı, lakin arxasız, köməksiz yaradıcı adamlar haqqında böyük ürəklə nəsə yazmaq heç də asan deyildi.

Bu faktlar onu göstərir ki, həmin istedadlıların bir-birilərinin poetik yaradıcılıqlarına sadiqliyi, diqqəti də böyük idi. Söylənilən mülahizələrdən bir də bəlli olur ki, Elşad Səfərli ədəbi-ictimai rəydə qəbul edilən istedadlı şairdir və buna görə də onun yaradıcılığını araşdırma predmetinə çevirib, haqqında kitab yazmağımız heç də səbəbsiz deyil, kifayət qədər əsaslara söykənir.

Yuxarıda adlarıçəkilən söz sahibləri Sözə, poeziyaya qiymət verməyi bacarırdılar, qeybətdən uzaqda dayanırdılar, pis mənada həsəd hissi keçirmirdilər. Elşad Səfərli on il əvvəl yazmışdı:

Yaralı yerimdi şerim,
Ölümdən
Aralı yerimdi şerim.
Hörgüsün şerlə hördüyüm
Qalalı yerimdi şerim.
O qalada həmişəlik

Qalalı yerimdi şerim.
Başımı uca tutmağa
Tam haqlı yerimdi şerim.
Zəmanə ilə keşməkeşli
Qovğalı yerimdi şerim.
Allaha xitab etdiyim
Dualı yerimdi şerim.
Ölüm kəsməz haqq sözümü,
Ölümdən
Aralı yerimdi şerim.

Şeirdə şairin poetik dəyanəti, özünə inamı və oxucu qarşısında vədi dayanır. Bu məqamda şairin özünə inamı və məhəbbət meyarı üzərində müəyyən qədər ətraflı dayanmağı məqsədəmüvafiq hesab edirik. Çünki məhəbbət və inam E.Səfərli şeirinin qoşa qanadlarıdır.Yaradıcılığının ilk axtarışlar dövrü şeirləri respublika mətbuatında elə ***Ümid*** təxəllüsü ilə çap edilmişdir. Elşadın ilk mətbu şeiri doğulduğu rayonda nəşr olunan "Leninçi" qəzetində 11 may 1978-ci ildə "Qoşma" adı ilə dərc edilmişdir. Respublika mətbuatında isə ilk dəfə "Fələstin qaçqınlarına" adlı şeiri ilə "Azərbaycan müəllimi" qəzetinin 15 yanvar 1982-ci il tarixli sayında çap olunmuşdur. Yaradıcılığının ilk axtarışlar dövrü şeirlərində təbiətlə bağlı motivlər, peyzaj lirikası daha çox dominantlıq təşkil edir. 1991-ci ildə şairin çap olunan "Dünya ömür yoludur" ilk kitabı haqqında "Azərbaycan gəncləri" qəzetinin 18 mart 1992-ci il tarixli sayında dərc etdirdiyi "Uzaq yolun başlanğıcı" adlı resenziyasında istedadlı şair **Əbülfəz Naxçıvanlı** bu cəhəti xüsusi vurğulamışdır. O yazır: "Elşad yurdumuzun dilbər guşələrindən olan Lənkəranda dünyaya göz açıb. Elə buna görədir ki, onun əksər şeirlərində təbiətin əsrarəngiz gözəllikləri

odlu bir ilhamla tərənnüm olunur. Kitabdakı təbiət şeirlərini oxuduqca yurdumuzun başı ağ çalmalı qəlbi dağları, laləli, yaşıl düzləri, atlas meşələri, durnagözlü bulaqları göz önündə canlanır. Özünü bircə anda təbiətin ecazkar qoynunda hiss edirsən.

Şair doğma yerləri tərənnüm etdikcə belə bir diyarda doğulduğu üçün fəxr edib öyünür, iftixar hissi keçirir:

*Günəşsiz də burda soyumaz canım,*
*Torpağın həniri bəsdi isinəm.*
*"Geydiyim köynək də mənə dar gəldi,"*
*Demə, iftixardan qalxıbmış sinəm.*

***"Yurd yeri".***

"Qoşma" adlı dördbəndlik ilk mətbu şeirində də doğma yurda məhəbbət təbii boyalarla verilib. Şeirdən axırıncı bəndə diqqət yetirək:

*Bulud qayaların qonub qaşına,*
*Nur damır torpağın hər qarışına.*
*Bahar naz-nemətin tökür başına,*
*Gül açır yurdumun qucağı yerdə"...*

Sonradan gənc şairin **Səfərli** təxəllüsü ilə tanınması böyük istiqlal şairimiz **X.R.Ulutürkün** adı ilə bağlılığı haqqında məlumatlıyıq. Və Elşadın "Yalnız sevgi" kitabında gedən "Soyad" şeiri də böyük ustada bu münasibətlə ehtiram və iftixarla ünvanlanmışdır.

Elşad şeirinin inam, ümid və məhəbbət fəlsəfəsindən bəhs etmək üçün onun yaradıcılığının başlanğıc, ilk mərhələsinə qayıtmağa məcburuq. Bu mərhələdə onun haqqında

ilk söz deyənlər istedadlı şairlər **Şəkər Aslan** və **Qiyas Əcaib (Vəkilov)** olmuşlar. Və onların hər ikisi Elşadın ilk şeirlərinə o vaxtlar istedadlı yazarların ilk yazılarına görə mətbuat vasitəsilə geniş oxucu kütləsinə təqdim olunması üçün dəbdə olan "Uğurlu yol" arzulamışlar. Sözümüzün məğzi ondan ibarətdir ki, hər iki şair təqdimatlarına məhəbbət və inam məfhumları ilə bağlı başlıq seçmişlər, istedadlı şairin şeirlərinin mövzularında inam, ümid və məhəbbət çalarlarının kifayət qədər dominantlıq təşkil etməsini vurğulamış və bu amili onun yaradıcılığının ən üstün cəhəti kimi dəyərləndirmişlər. Buna görə də hər iki şairin E.Səfərli haqqında "Uğurlu yol" qeydlərini gənc şair haqqında söylənilən ustad sözü, ustad xeyir-duası kimi də xarakterizə etmək olar. İlk öncə Ş.Aslanın "Məhəbbət və inam" adlı qeydlərinə müraciət edək:

"Elşad Səfərov (onun ilk soyadı belə olub –A.E) Gərmətük orta məktəbini bitirmişdir. ADU-nun (indiki BDU-nun) filologiya fakültəsinin üçüncü kurs tələbəsidir. İlk şeirlərini redaksiyaya gətirmişdir. Bunları diqqətlə oxuyanda onun əsl poeziya yoluna gəlib çıxdığına inanırsan.

Bütün başqa yollarda olduğu kimi burada da inamla, cəsarət və qətiyyətlə addımlamaq yolçudan böyük ürək tələb edir. Şair ürəyinin böyüklüyünü müəyyən edən meyar onun məhəbbətidir. Elşadın məndəki şeirlərində onun qəlbinin saf bir məhəbbətlə döyündüyü hiss olunur. Bu, doğma kəndə, təbiətə, ana torpağa, xeyirxah, saf, sadə və mərd adamlara məhəbbətdir. İndi bir qədər bəsit deyilsə də şübhə yoxdur ki, gələcəkdə bu məhəbbət yüksək poetik şəkildə ifadə olunacaqdır. Məndə bu inamı Elşadın indiki şeirlərində rast gəldiyim ayrı-ayrı obrazlı, sərrast deyilmiş fikirlər, səlis, axıcı misralar oyadır!"[1]

[1] Ş.Aslan. "Məhəbbət və inam", "Leninçi" qəz., Bakı, 1981. 21 noyabr. № 138 (5692). S.4

Bu qeydlərdən sonra Ş.Aslan şairin üç şeirini təqdim edir. Aşağıda "Torpağın alqışı" və "Bir parça günəş" adlı həmin şeirlərin ikisindən nümunə kimi verdiyimiz ayrı-ayrı bəndlərin müəllifin qənaəti ilə eyniyyət, ekvivalentlik təşkil etdiyi fərqindəyik

I

Günəş oxşayırdı yaşıllıqları,
Quzeylər ovcunda sıxırdı qarı.
Qartal da uçurdu zirvəyə sarı –
Şəlalə taxtında yəqin tək idi.

Duman seyrəlirdi – ötüb keçəcək ,
Şəfəqlər gün boyu yeri öpəcək.
Sanki görüşünə kimsə gələcək –
Lalə al donunda nə göyçək idi.

Tutulub günəşin "nur yağışına",
Bulaq oxşayırdı üzük qaşına.
Bulud zirvələrdən çöküb başına –
Meşə anam kimi "ağbirçək" idi.

Burda yaz şehinə batıb yoxuşlar,
Mamır köynəyini geyinib daşlar
Dünyanı nəğməyə tutmuşdu quşlar,
Torpağın alqışı gül-çiçək idi.

II

...Odu, hərarəti–soyumaz atəş
Mehrini duydumu, daş da bar edər.
Necə inamlısa gecələr günəş
Dünyanı əllərə etibar edər.

Əllərim dağ çapıb, qayalar yarıb,
Deməyin kobuddur sərt olduğuyçün.
Bəzən çox gözəllər fürsət axtarıb
Mənim əllərimin sığalı üçün.

Folklorşünas-alim, xalq yaradıcılığı üslubunda yazdığı nümunələr, xüsusən mükəmməl təcnislər müəllifi Qiyas Əcaibin "Azərbaycan müəllimi" qəzetində dərc etdiyi "İnam" adlı "Uğurlu yol" təqdimatında vurğulanan mülahizələr də Ş.Aslanın fikirləri ilə, demək olar ki, üst-üstə düşür:" İnam həyatdakı bütün gözəlliklərin açarıdır. İnsanı hər hansı işə, sənətə, əqidəyə bağlayan, yaşadan da inamdır. Məhz buna görə də İslamın əsasını təşkil edən beş şərtin əvvəlincisi də inamdır(Tovhiddir).

Gənc şair Elşad Səfərlini şeirə, sənətə bağlayan da bu inam hissidir. Gənc müəllifin fikrincə, inam sənət yolunda onun qolundan tutan işıqdır. Şair heç kəsdən heç zaman bir qayğı görməsə də inamını itirmir. Çünki o nəyə qadir olduğunu yaxşı bilir.

Elşad Səfərlinin şeirlərində poetik məna tutumu, deyim tərzi təbii təsir bağışlayır. Burada xoşa gələn cəhətlərdən ən başlıcası haqqa, ədalətə inamın, insanlığın, doğma torpağın, anaya məhəbbətin tərənnümüdür, orijinallıqdır, fikirlərin, bədii detalların təzəliyidir, məcazların, rənglərin yerli-yerində işlədilməsidir.

Ümid-inam işığıyla sənət yoluna çıxan bu gənc istedada uğurlar diləyir və onun iki şeirini oxuculara təqdim edirik."[1]

Və həmin nümunələrdən "İşıq ucu" adlı birini bütövlükdə oxucu diqqətinə çatdırmaqla kifayətlənirik. Düşünürük

[1] Q.Əcaib. İnam. "Azərbaycan müəllimi" qəz., Bakı, 30 yanvar, 1991, №8 (7047), s.4

ki, elə həmin bir nümunə müəllif fikrini kifayət qədər təsdiqləmiş olur:

İnam ürəyimdə işıq ucudu,
Ürək özü bilir nəyə qadirəm; –
Mən hansı işığın ucundan tutub,
Mən hansı məqsədə doğru gedirəm.

Tarixin yolları işıqsız deyil,
İşıqsız tarix də yarana bilmir.
...Otuzuncu illər işığı sönən
Evlərin hələ də işığı gəlmir.

Arzu yollarında sinəm boş deyil,
Arzu yolarında sinəm dopdolu.
Dünyanın xoşbəxtlik yolu ikidi,
Biri işıq yolu, biri haqq yolu.

Hələ yol gedirəm üzü işığa,
Hələ qollarımda işıq gücü var.
Mən elə işlərdən yapışıram ki,
Müvəffəq olmağa işıq ucu var.

Və Elşad Səfərlinin ilk şeirlərinin mövzu-tematika rəngarəngliyi haqqında söylənilən fikirlər, mülahizələr sırasında keçən yüzilliyin 70-80-ci illər nəsrinin qüdrətli simalarından biri, görkəmli yazıçı **Cəmil Əlibəyovun** əvvəlcə “Yeni era” qəzetində məqalə şəklində, sonra isə şairin “Səhərə tələsən qatar” kitabında “Ön söz” kimi verilən “Şeirin dərd-qəm qatarı” adlı yazısında irəli sürülən müddəaların işığında isə bu yaradıcılığın ilk dövrünə aid şeirlərin ideya-mövzu istiqamətlərini müəyyənləşdirməklə yanaşı, digər

fərqli, fərdi cəhətləri ilə bağlı düşüncələrimizdə daha dolğun təsəvvür genişliyinə də nail olmuş oluruq. **Cəmil Əlibəyov** yazır: "İstedadlı Azərbaycan şairi Elşad Səfərlinin... şeirlərini siyasi lirika, məhəbbət lirikası boyları ilə cərgələsək Elşadın siyasi lirikası zabitlik zəhmində-zabitəsində, məhəbbət lirikası sıravi əsgər tabeliyində örnəklər yaradır: təbiətə həsr etdiyi misralar, ilk məhəbbət duyğuları, ana-ata məftunluğu–bunlar şair həyatının gülşən bucaqlarıdır, doğrudur, öz poetik vüsəti ilə heç də axırıncı sırada dayanmır. Elşad bunların hamısını adi insanın gördüyündən, duyduğundan, həzz aldığından artıq isti rənglərlə, dadlı kəlmələrlə, ətirli çalarlarla təqdim edir. Həm də bunlar elə deyilir ki, sənə keçən günləri elə xatırladır ki, onların nisgilini çəkib qəmlənirsən, qürurlanırsan ki, sən belə gözəl, xürrəmşad, qayğısız... günlər yaşamısan: bulaqların çaldığı saza qulaq asmısan; qarı ovcunda sıxıb, qaynaqlara həyat verən bənövşəli quzeyləri seyr etmisən. Başına bəyaz buludlar çökən meşəni "ağbirçək ana" qiyafəsində görmüsən və ilahi məhəbbət pıçıltılarına qulaq vermisən. Təəssüf ki, o zaman bunları qiymətləndirə bilməmisən, indi təzə baxışla ürəyinə yığırsan bu gözəllikləri... »[1]

Elşadın poeziyası haqqında ədəbi prosesin nüfuzlu, tanınmış simaları tərəfindən yazılan belə yüksək fikirlərə biz araşdırma zamanı çox təsadüf etdik və düşünürəm ki, bu fikirlərin hələ ardı gələcək. Yeri gəldikcə biz həmin qənaət və mülahizələrə istinad edəcəyik.

Elşad Səfərli poeziyaya təbii sevgisini hətta yeri gələndə qələm dostları ilə bölüşür, çünki şairi başa düşürlər, qiy-

---

[1] C.Əlibəyov. Şeirin dərd-qəm qatarı. "Yeni era" qəz., Bakı, 1999, 12-13 oktyabr, № 32 (032), s.7

mətləndirirlər. Təsadüfi deyil ki, "Sənət dostlarıma" şeirinin subyektlərini konkretləşdirir:

Allahverdi Emin və Şahin Fazil–
Mənim qəlb dostlarım, ülfət dostlarım.
Mən yaxşı dostları unutmuramsa,
Məni də unutmur, əlbət, dostlarım. –

Etirafı və bu dəfə dostlara inamı:

Hərəmiz bir yerdə qələm çalırıq,
Nə şöhrət umuruq, nə ad alırıq.
Sənəti unutsaq, unudularıq,
Sənətlə yaşayaq, sənət dostlarım!

Mən Elşadın poeziyasını otuz beş ildir oxuyuram və poetik ritminin səngiməmdiyini sezirəm. Bu poeziyada öz ayaqları altında tapdığı həqiqəti, obrazlı görümün qüvvəsini və ruhi təzahürü aydın hiss edirəm. Bu poeziyada boş pafos yoxdur, ona görə ki, şeirin tərkib hissələri təsvir dairəsinin genişliyi, məzmun çaları və məna yüküylə yüklənmişdir. Şairin poetik əzabını, iztirabını  və yaşamaq ehtirasını oxucu yaşaya bilir. Baxaq, kiçik bir detala: "külək" məfhumu: onun məyusluğunu, kövrəkliyini, qadın gözəlliyinə məftunluğunu müşahidə etmişik, elədirmi? Amma külək kimsəsizləşəndə uşaqlaşır və:

Bayırın qaranlığında
Ucadan,
Uşaq zarımasına oxşayan
Və bunu
Var gücüylə ətrafa yayan

Bir səslə
Külək vıyıldayır.
Yox, yox.
Bu, vıyıltı deyil.
Külək
Döyülüb çölə atılmış
Kimsəsiz bir uşaq kimi
Bayaqdan zarıldayır.

Şeirdə qəbul etmədiyim bir nüans epiqonçuluqdur, hansı şairisə təqlid, yamsılamaqdır: dil sənindir, söz başqasının. Elşadın bütün şeir kitablarını oxumuşam və bu "ünsürü" görməmişəm, görsəm onun özünə ciddi iradımı deyərdim: "Yazmaq qüdrətindən uzaqlaşmısansa, şeirdən də o məsafədə aralan".

Elşad Səfərli poetik iradəsini ortaya qoydu; onlarla lirik və epik şeirlər, sonetlər, sonetlər çələngi, xokkular və dəyərli poemalar yazdı, kitablarında əbədiləşdirdi. Hələ ötən əsrin son ilində üç bəndlik şeirini oxumuşdum: "Yaşından böyük uşaq"- zərif, amma düşündürücü poetik nümunə:

Meydan oxuyur, baxanda
Əlifbanı da bilmir heç.
Elə sözlər danışır ki,
Boyuna uyğun gəlmir heç.

Yaşından qabaqdı xeyli,
İstedadı Allahdandır.
O dünəndən bu gündə yox,
O dünəndən sabahdadır.

Yaşından böyük uşağı,
Görənin öyməyi gəlir.
Sözü qan qoxuyan kəsin
Ağzından süd iyi gəlir.

Bir haşiyə çıxım ki, Elşad Səfərli poeziyamızda ilk dəfə "Xokku" janrında şeirlər yazanlardan biri, bəlkə də birincisidir. Çünki ona qədər mən heç kimdə xokkuya təsadüf etməmişəm və kitablarında bu janra rast gəlməmişəm. E.Səfərli isə "Şair təkliyə məhkumdu" kitabında əllidən çox və digər kitablarında yaponlara məxsus bu janrda çoxsaylı nümunələr qələmə almışdır: ilk yazılma tarixləri isə 2003-cü ilə gedir!

Yuxarıda qeyd etdik ki, Elşad "xokku janrında ilk dəfə şeirlər yazanlardan biri, bəlkə də birincisidir". "Birincilik"lə bağlı mülahizəmizdə nə dərəcədə əsaslı olduğumuzu əsaslandırmaq, ümumiyyətlə bu məsələyə tam dəqiqlik, qətilik gətirmək üçün onun yaradıcılığı haqqında müxtəlif nüfuzlu qəzetlərdə çoxsaylı məqalə, resenziyalarla çıxışlar edən ədəbiyyatşünas alimlərdən dosent Əlirza Əliyev və Musa Babayevin müştərək yazdıqları bir resenziyaya müraciət etməyi məqsədəuyğun hesab edirik: "Azərbaycan ədəbiyyatında xokku janrında əsər yaradan ilk şair, yanılmırıqsa, Elşad Səfərlidir. Bu baxımdan xokku Elşad poeziyasının (o cümlədən, Azərbaycan poeziyasının) məhsulu, yeni uğuru, estetik prinsipi, poetik kəşfidir. Xokku yapon ədəbiyyatının üç misralı lirik janrıdır, misraları qafiyələnmir (Elşadda isə xokkuların əksəriyyəti qafiyəlidir, bu, əlbəttə, onun Azərbaycan xokku tipinə novatorluq, yenilik gətirməsi deməkdir –A.E.) lakin onlar məzmundan doğan daxili bir ritmə, musiqiyə malikdir. Kitabda Elşadın 50-yə qədər xokkusu verilib. Janr yaponların olsa da, fikir, hiss, duyğu,

düşüncə, assosiativ duyum millidir, milli olduğu qədər də bəşəridir.” ***(Bax: Ə.Əliyev. M.Babayev. Zamanla müxalifətdə olan şair. “Sənət qəzeti”. Bakı, 2004, 23.10-05.11, №15 (015), s.17).***

Bəzi nümunələr:

♦♦♦

Kəpənəklər–
Onları gül-çiçəkdən
Qoparıbdır küləklər.

♦♦♦

Dərman gərəyim deyil...
Yuxusuzluğum
Sənsizliyimdir.

♦♦♦

İntəhasız səma...
Onu buludlar da
Doldura bilmir.

♦♦♦

Dağlar...
Təbiətin sinəsində
Dağ olmuş qabarmalar...

Janrın tələbi: poetik fikrin yığcam və lakonik yekunu. Maraqlıdır, Elşad bir xokkusunda janrın özünü “şərh” edir:

♦♦♦

Xokku
On yeddi hecalı deyilsə,
Xokku yox, hoqqadır.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Elşad Səfərlinin "sonetlər"ini ilk dəfə oxuyanda bir xeyli təəccübləndim də: soneti dünya poeziyası səviyyəsinə qaldıran Dantedən, Petrarkadan, V.Şekspirdən və milli şeirimizdə Adil Babayevdən sonra janra girişmək? Sualımı tamamlamadım və bir neçə dəfə oxuyandan sonra Elşadın poetik istedadının polifonikliyini bir daha təsdiqlədim. Sonetə xas lirik düşüncə və kövrək həzinlik – poetik obrazın təzahürü. Daha nə qalır: şeirin strukturunu kəskinləşdirmək yox, əhvala bələmək, hərçənd, bükülmüş körpənin səsi eşidiləcək. Yaxud qazanılmış və itirilmiş sevginin kəsən əks-sədası:

Qəfil bir ayrılıq boğdu eşqimi,
Qollarım boşaldı, qırıldı mənim.
Günüm qara oldu, qara rəng kimi
O gündən qanım da qaraldı mənim.

Mən ki sarsılmazdım dar ayaqda da,
Nikbin duyğulardan yazırdım, Allah.
Bəlalı eşqimin mən ki yolunda
Canımdan keçməyə hazırdım, Allah.

Bir qarayel əsdi, nəydi ömrümə?
Hicranın havası dəydi ömrümə –
Həyatım saraldı, soldu gül kimi.

Bircə ölmək qalır... qismətimə bax,
Ömrümdə ilk dəfə mürəkkəblə yox –
Qaralan qanımla yazdım şerimi.

**24.08.2000**

Şair Elşad Səfərlini uzun vaxt kəsiyində birgə işlədiyim illərdə və ondan sonra–görüşlərimizin müstəvisində ədəbi fikir arenasında da görmüşəm. Tənqidi məqalələrini oxumuşam. Hətta özümdən soruşurdum ki, ədəbi tənqid - ədəbiyyatşünaslıq – sözün yumşağı yox, şərti “aravuranlığı” onun təmiz poeziyasına çaşıb buz, dolu kimi yağmazmı? Amma düşündüyüm kimi olmadı: elmlə poeziya “yola” getdilər, bir-birinin “xətrinə” dəymədilər. Və mənim bu qənaətimi çox-çox sonralar istedadlı şair Əbülfəz Naxçıvanlı Elşadın “Bu, Elşad Səfərlidir” kitabı haqqında yazıb mətbuatda çap etdirdiyi “Ağılla hissin vəhdəti” adlı resenziyasında sanki bir daha təsdiqləmiş oldu.

Nəzəriyyəçi alim Elşad Səfərli milli poeziyamızda xüsusi üslubu və poetik tematikası olan şair, yazıçı, publisist və Vətəndaş Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubunu tədqiqat mövzusu seçdi, araşdırdı və dissertasiya müdafiə etdi, həmin mövzu ilə bağlı monoqrafiyasını nəşr etdirdi. Bunu da xüsusi qeyd etməyə dəyər ki, poeziyamızda fərdi üslublarla bağlı ədəbiyyatşünas alimlərdən N.Qəhrəmanlı, V.Quliyev, A.Abdullazadə, nəsrdə isə V.Osmanlının kiçik məqalələri istisna olmaqla, Azərbaycan ədəbiyyatşünaslığında konkret ədəbi simanın fərdi üslubunu ilk dəfə dissertasiya həcmində geniş şəkildə tədqiq edən də məhz Elşad Səfərlidir. Avtoqrafı ilə mənə bağışladığı bu dəyərli əsəri oxudum, müəllifin qələm dostu, həmfikrinə layiq tədqiqat apardığını alqışladım...

Filologiya üzrə fəlsəfə doktoru, dosent Elşad Səfərlinin ədəbi fikirlərindən danışmaq istəməzdim; bu, ayrıca bir mövzudur. Lakin məni başqa bir məsələ maraqlandırır: Şairin poeziyası ədəbiyyatşünasların diqqətindən yayınmamışdır. Görkəmli tənqidçilər, şairlər, publisistlər bu vətəndaş poeziyanı qəbul etmişlər! Bu məsələ bu gün çox ciddi

qoyulmuşdur, başlıca səbəbi şeirimiz bəsit, ölçülüb-biçilməmiş, ilhama yabançı epiqonçuların, rezentorların, surremendiyalıların "səlib yürüşü"dür – başqa epitet tapmadım.

Amma unutmayaq ki, şairin şair haqqında araşdırma aparması bəzi rakurslardan çətindir. Birincisi, şeirin fəlsəfəsini "tutmaq" qətiləşir və bəlkə də özünün intellektual yanaşması ilə üst-üstə düşür. İkincisi, tematik yaxınlığında–paralellər tapılır və daxilən müqayisələr aparır, bir növ "rəqabət" özünü göstərir. Üçüncüsü, tədqiq etdiyi şairi təmin edəcəkmi?

Mən bu haqda, təbii ki, düşünmüşdümsə, kitabın "ağırlaşmaması" üçün məqbul saymamışdım. Rəva görsəm də mümkünsüzdü, əlimin altında yox idi. Amma hər ehtimala qarşı fikrimdən keçmişdi. Bu yay vaxtı üç günlüyə Lənkərana getməyə qərar verdim. Bu məkanda öncə orta məktəbi bitirmişdim, üç sinfi rayonun Gərmətük qəsəbəsində oxumuşdum. Elşad da bu təhsil ocağının məzunu olmuşdu. Görüşdük, tək deyildi, istedadlı yazıçı Qardaşxan Fərziylə birgə görüşümə gəlmişdilər. Ən şirin söhbətlər, məkrsiz mübahisələr, ləyaqətli mülahizələr çayxanadan başlanmırmı? Ağacların kölgəsində oturduq. Xəyal məni 50-ci illərin sonlarına apardı. O vaxt bu ağaclar qocalmamışdı, mən yeniyetməliyimi, onlar cavanlığını yaşayırdılar. İndi şaxələnmişdilər, budaqları–övladları da yaşa dolmuşdular. Övladları məni tanımasalar da, dədə ağaca, deyəsən, tanış gəlirdim. Bu arada, ovcumda armudu stəkana bir yarpaq asta-asta, candərdi düşdü. Çiynimə toxunmuşdu, amma qərar tutmamışdı. Bu yarpaq sarımtıl idi, gözümün qabağında can verirdi, bəlkə də məni həyan bilmişdi, onu həyata qaytaram, bu, mümkünsüzdü. Əlimdən o gəldi ki, o yarpağı ustufca götürdüm və xəzəlləşmiş qardaş-bacılarının arasına

buraxdım. Yarpaq kürü tökən qızıl balıq kimi üzdə çapaladı...

Xəyallandım, özümdən asılı deyildi. Axı, mən Elşadın elmi yaradıcılığından danışırdım...

– Allahverdi müəllim, - telefonda idi, - arxivimdən mövzu ilə bağlı bəzi qeydləri, çıxarışları göndərirəm, sabah institutda sizi tapacaq sürücü.

– Gözləyəcəyəm, - cavab verdim və xeyli hal-əhval tutduq. Və həmin ağ qaytanlı qovluq qarşımdadır. Fərəhləndim, şair Elşad ciddi tənqidçilər, hövsələli ədəbiyyatşünaslar və kövrək şairlər tərəfindən oxunulurmuş! Şair üçün bundan qiymətli nə ola bilər? Oxucu zövqünü təmin edəsən! Elmi əsərlərə düşəsən.

Və bunu da vurğulayım ki, Elşadın şeirlərinə müəyən diqqətin, marağın nəticəsidir ki, o görkəmli iki xalq şairimiz: **Nəriman Həsənzadə, Söhrab Tahirin** və tənqidçi, filologiya üzrə elmlər doktoru **Vaqif Yusiflinin** zəmanətləri ilə Azərbaycan Yazıçılar Birliyinə (1998) tezliklə üzv seçilmişdir. Bu üzvlülüyün əlamətdarlığı ondadır ki, inanmıram ki, imzalarına yüksək hörmət bəsləyən adıçəkilən xalq şairləri hansısa istedadsıza Birliyin qapısından içəri keçməyə zəmanət versinlər. Bir-iki şeiri çap olunub sinələrinə döyənlər, özgənin uğurunu gözügötürməyənlər Elşada münasibələrində bu faktı da gərək ki, unutmasınlar. Bir də görürsən hansısa tənqidçi adlandırılan şəxs Elşadın bir şeirində yazdığı kimi “arvadıyla arvadları bir kənddən olanlar”dan biri haqqında yazır: ”O, ədəbiyyata səssiz-səmirsiz gəldi...” Yalandır, əziz oxucu, inanmayın belə yalan sözlərə! Həmin kəslər Bodenştedtdən də qatı plagiat, “ədəbiyyata” (əgər, həqiqətən gəldikləri yer ədəbiyyatdırsa – A.E) heç də səssiz-səmirsiz yox, S.Vurğunun “çil toyuğu” qismində–fındıq boyda yumurtladıqlarını gözə soxmaqla, çı-

ğır-bağır salmaqla gələnlərdi. Məqsədim heç də Elşadı tərifləmək deyil, bildirmək istəyirəm ki, ədəbiyyata səssiz-səmirsiz gələnlər Elşadkimilərdir, təmənna, tərif, şöhrət güdmədən, özlərini gözə soxmadan başlarını aşağı salıb, əsl sənət işlərilə – ədəbiyyatla məşğuldurlar. O ki qaldı hörmətli tənqidçi  həmkarıma, o, yəqin indi olsaydı heç də Elşada zəmanət verməzdi. Çünki bu iki şəxs arasında çoxdandır ki, Şimalın ara verməyən sazaqlı küləkləri əsir. Buna görədir ki, Azərbaycanda şeir və nəsrlə məşğul olanların körpəsindən tutmuş qəddi bükülmüş ağsaqqalına qədər hamısı haqqında yazdıqlarının siyahısında yalnız Elşadın adına rast gəlinmir. Görünür, bu məsələdə meyarlar hamı üçün düşündüyümüz kimi heç də eyni cür deyil...

...Bir-bir vərəqləri nəzərdən keçirirəm, özümdə qeydlər aparıram, haqqında yazan yaradıcı qüvvələrin ədəbi prosesin çalışdıqları bir sıra sahələri üzrə tərkib müxtəlifliyi marağımı daha çox cəlb etdi.

Professorlardan Seyfulla Əsədullayev, Əmirxan Xəlilov, Nizaməddin Şəmsizadə, Şahin Fazil, Hüseyn Həşimli, Tərlan Novruzov, dosentlərdən: Allahverdi Eminov, Kamran Kazımov, Musa Babayev, Əlirza Əliyev, Məhəmmədəli Mustafa, Yaşar Məmmədli, Mirhüseyn Abbas, Yədulla Ağazadə, şairlərdən: Şəkər Aslan, Ağacəfər Həsənli, Əbülfəz Naxçıvanlı, Xudaverdi Cavad, Qiyas Əcaib (Vəkilov), Rüzgar Əfəndiyeva, yazıçılardan Cəmil Əlibəyov, Zöhrə Əsgərova, Qardaşxan Fərzi, Etibar Əhədov, Yasəmən Möhübbətqızı, Əlisəfa Həsənov, Zərbi Ələsgərov, H.Rüstəmli... Uzun siyahı alındı. Bunların sırasında daha çox alimi olmaqla, tənqidçisi də var, şairi də, yazıçısı da, jurnalisti də... Təbii ki, yazılan bu çoxsaylı məqalələrin hamısı eyni ədəbi-tənqidi səviyyədə deyil,  lakin hər bir müəllif Elşad Səfərli şeirini sevərək yazmışdır. Axı, Elşad vəzifəli şair,

məmur, biznesmen deyil ki!.. Bax bu məqamda Elşadın mənə dediyinə əsasən, məmur, biznesmen və əsl sənətə münasibət kontekstində bir xatırlama etmək istəyirəm. O, vaxtilə sonetlə bağlı bir-iki kiçik həcmli məqaləsi elmi mətbuatda çıxan ədəbiyyatşünas professorlardan birinə 2014-cü ildə sonetdən bəhs edən dərs vəsaitini və monoqrafiyasını qarşı tərəfin fikirlərinin onun üçün maraqlı ola biləcəyi məqsədilə göndəribmiş. Təəssüflər olsun ki, bu təşəbbüsü müqabilində qarşı tərəfin heç bir reaksiyası ilə üzləşməmişdir. Həmin alimin poeziya adına layiq elə bir ciddi yaradıcılığı olmayan, lakin Yazıçılar Birliyində kifayət qədər ciddi məmur vəzifəsi tutanın birisi haqqında nüfuzlu qəzetlərin birində iki səhifəlik mədhnaməsini gördükdə çox təəccübləndiyini söylədi. Məmur, biznesmen – əsl sənət qütblərinin qarşılaşdırılmasında üstünlük birinci komponentin tərəfində imiş. Bu, həm də gerçəkliyimizin medalyonsayağı üz tərəfiymiş...

Keçək əsas mətləbə... Deməli, yuxarıda adıçəkilən söz sərrafları poeziyanı qiymətləndirməyi bacaran ziyalılarımızdır. Onların zəhmətini alqışlayıram. Bu məqalələri, əsərləri oxuyanda həqiqi fikrin, analitik düşüncənin şahidi oldum və onların yanaşmalarında demokemenliyi, defeltsiyalılığı və disfunksiyalılığı hiss etmədim.

Mərhum professor, ədəbiyyatşünas alim, tənqidçi **Seyfulla Əsədullayev** “Azərbaycan poeziyasında sonet janrı” monoqrafiyasında Elşad Səfərlinin sonet yaradıcılığına yüksək qiymət verir və yazır ki: “ Elşad Səfərli öz sonet çələnglərini bu sxem (qafiyə sxemi belədir: abab/cdcd/eff/ggf –A.E.) əsasında yazmışdır. Bunların hamısı sonetlər çələngindən sonra ayrı-ayrı sonetlər yazmışlar (tənqidçi Vaqif Hüseynov, Şəkər Aslanı nəzərdə tutur–A.E.). Lakin öz yerlilərindən fərqli olaraq E.Səfərli 14-lüklə yazır. O, yeganə

sonetçidir ki, həm İtaliya, həm də ingilis tipli sonetlər yazır. Onun on bir sonetindən 8-i ingilis, 3-4-ü italyan tipli (zahiri forma cəhətdən) sonet formasında yazılmışdır".

Bu sonetlərin əsas mövzusunu ictimai həyatdakı nöqsanların, haqsızlığın, ədalətsizliyin, yalanın, ikiüzlülüyün tənqidi, gözəlliyin, sevgi-məhəbbətin, saf insani hiss, duyğu və arzuların poetik tərənnümü təşkil edir. O, gözəllik, sevgi haqqında yeni, obrazlı söz deməyi bacarır:

Ən ülvi gözəllik də bir gün solur nəhayət,
Hər şeyi alt-üst edən, tar-mar edən təbiət
Sənin də gül hüsnünü vecinə almayacaq –

9-cu sonetində söylənilən bu fikir, əlbəttə, Şekspirin sonetlərindən gəlir, lakin şair onu özününküləşdirir, özünün obrazlı ifadələri ilə deyə bilmişdir. 10-cu sonetin axırıncı misrasındakı "Doğan yeni sevgilər ilk sevgidən gözəlmiş" fikri daha orijinal poetik bir kəşfdir. 6-cı sonetində E.Səfərli həyati, fəlsəfi düşüncələr fonunda, geniş kontekstdə bədii sözün qüdrətindən, sənətin ölməzliyindən, şeirin əbədiliyindən söhbət açır. Bununla əlaqədar o, Azərbaycan soneti təcrübəsində ilk dəfə olaraq, sonet və sonetçiləri (Avropa, rus və Azərbaycan sonetçiləri) xatırlayır, sonetin tarixi, kökü, ənənələri ilə bağlılığını dərk edir, Dantenin, Petrarkanın, Şekspirin adlarını çəkir, sonet sənətinə yüksək qiymət verir, soneti dərk və qəbul edə bilməyənlərlə mübahisəyə girişir, sonet haqqında sonet yazır:

Sonet haqda bir naşı, fərqinə də varmadan,
Deyib, şerimizin o, ruhuna deyil uyğun.
Belə söyləyən zaman, bilməliydi o nadan,
Sonet təntənəsidir yüksək şerin və zövqün.

“Xanu-xası” kiminsə pis zövqü götürmürsə,
Günah həmin zövqdədir, bilsin ki, aşda deyil.
Kim intibah şerinin qüdrətini görmürsə,
Demək, başı soneti dərk edən yaşda deyil.

Bu gün mənə ruh verir, ilhamıma güc verən,
Şekspir dühasından könlümə yatan sonet;
Dantenin qələmində ilk tumları göyərən,
Petrarkanın eşqində kamala çatan sonet.

İlham qanadlarımı, Tanrım, bərkit sonetdə,
Az olsa da, bilərəm xidmətim var sənətdə.

E.Səfərlinin bu soneti A.Puşkinin “Суровый Данте не презирал сонета”sı ilə yaxından səslənir və şübhəsiz ki, onun təsiri altında yazılmışdır. Bu, sonet haqqında sonetin Azərbaycan poeziyasında ilk nümunəsidir ki, bu da müəllifin bu sahədə novatorluğuna dəlalət edir. E.Səfərlinin sonet haqqında fikri İ.Bexerin “Sonet poeziyanın əsas formasıdır” və O.Fedotovun “sonet dünya poeziyasının ən mükəmməl, təkmilləşmiş formasıdır” fikirləri ilə üst-üstə düşür.

Düzdür, E.Səfərlinin bu sonetlərinin bəzilərində katrenlər arasında məna-məzmun bağlılığı hiss olunmur, ya da zəif hiss olunur, sözlərin təkrarına, lüzumsuz ritorikaya yol verilmişdir, vurğu xətaları gözə çarpır (6-cı sonet), amma bütövlükdə bu sonetlər şairin uğurudur, burada onun lirik-fəlsəfi düşüncələri, obrazlı təfəkkürü güclüdür.

Nəzərdən keçirdiyimiz bu 11 sonet müəllifin “Qisas himnləri” sonetlər çələngindən sonra yazıldığı üçün ondan daha poetik, daha qüvvətli və kamildir. Paradoks kimi görünsə də, o, əvvəl çələng janrında qələmini sınamış, mü-

əyyən təcrübə əldə edəndən sonra ayrı-ayrı sonetlərini yazmışdır. Bu məsələdə E.Səfərli Ş.Aslanın, V.Hüseynovun yolu ilə getmişdir. Maraqlı orasındadır ki, aşağıda adları çəkiləcək digər Lənkəran sonetçiləri də bu sahəyə birbaşa çələng yazmaqla qədəm atmışlar."[1]

Burada məsələyə münasibət bildirməyi özümüzə borc bilirik. Çünki müəllif yuxarıdakı mülahizəsində E.Səfərli ilə bağlı yanlışlığa yol verir. Belə ki, E.Səfərli digər Lənkəran sonetçiləri kimi heç də sonetlər çələngi yazandan sonra ayrı-ayrı, müstəqil sonetlər yazmamışdır. Əslində o, ayrı-ayrı sonetlər yazıb, müəyyən qədər təcrübə toplayandan, qələmi xeyli püxtələşəndən sonra sonetlər çələngi yazmışdır.

Bunu da qeyd edək ki, Elşadın özü ədəbi fikirdə çaşqınlığa səbəb olmasın deyə, S.Əsədullayevin yuxarıda sözügedən mülahizəsində yol verdiyi yanlışlığı aradan götürmək, obyektivliyi təmin etmək üçün "Sonet janrı və Azərbaycan soneti" adlı son mükəmməl monoqrafiyasında münasibət bildirməklə məsələyə dəqiqlik gətirir və onun sonet yaradıcılığında prosesin mürəkkəbdən sadəyə doğru yox, elə məhz sadədən mürəkkəbə, tək sonetdən çələngə doğru aparıldığını inandırıcı arqumentlərlə isbatlamış olur.[2]

Elşad Səfərlinin sonetləri haqqında S.Əsədullayevin nəzəri yanaşması və yüksək qiymətləndirməsinə kiçik hadisə kimi baxmamalıyıq. Poeziyamızda bu janrda yazan şairlərimizin xidmətini gözdən qaçırmayan alim gənc Elşada özəl baxışıyla yanaşır. Bu araşdırmadan sonra şairin sonet yaradıcılığına tədqiqatçı marağı artdı və bunun sanballı nümunəsini istedadlı ədəbiyyatşünas alim **Hüseyn Həşimlidə**

---

[1] Seyfulla Əsədullayev. Azərbaycan poeziyasında sonet janrı. Bakı, Mütərcim, 2002, s. 50-51.

[2] E.Səfərli. Sonet janrı və Azərbaycan soneti. Bakı, Elm və təhsil. 2014, səh.281-287.

görürük. O, “Azərbaycan poeziyasında sonet və terset”[1] monoqrafiyasında daha ətraflı və analitik düşüncə tərzilə bəhs etmişdir: “Çağdaş mərhələdə sonet yazanlar sırasında Lənkəranda yaşayan şair Elşad Səfərlinin də adı çəkilmə-lidir. Təqdirəlayiq haldır ki, o, həm ingilis, həm də italyan sonet formasında şeirlər qələmə alır. E.Səfərlinin şeirlərində diqqəti cəlb edən cəhət, hər şeydən öncə, şairin sonet janrının inkişaf yoluna, dünya, eləcə də, Azərbaycan poeziyasında məşhur yaradıcılarının irsinə bələdliyi, yeri gəldikdə onlara uğurlu istinaddır.”[2]

Bu məqamda da haşiyə çıxmalı oluruq. Belə ki, Elşadın lirikamızın bir sıra janrlarında müvəffəqiyyətlə yazılmış çoxlu şeirləri olduğu kimi, sonet sahəsində də mükəmməl nümunələrə sahibdir. Bu sahədə deyərdim uğurları daha qabarıqdır. Çünki Azərbaycan poeziyasında sonetin bir sıra növlərində ilk nümunələrin yaradıcısı məhz Elşad Səfərlidir. Bu barədə S.Əsədullayev, H.Həşimli və digər müəlliflər öz kitab və məqalələrində ətraflı elmi məlumat vermişlər. Amma çox təəssüflər olsun ki, bu gün mətbuatda “dəmdə” olan, özünü tənqidçi adlandıranın birisi məlum həqiqi faktlara göz yummaqla əyalət səviyyəli bəzi jurnallarda (bilərəkdən həmin jurnalların adlarını çəkmirik) şairin bu sahədəki uğurlarına kölgə salmağa cəhd edir. Hansı ki, həmin jurnallar haqqında Elşad şeirlərinin birində çox gözəl demişdir:

...Bir-iki jurnal var, jurnal ha deyil,
Kağız yığımıdı, söz zibilidi...

---

[1] Hüseyn Həşimli. Azərbaycan poeziyasında sonet və terset. Bakı, “Elm və təhsil”nəşriyyatı, 2003, s.152-158; s.220-221
[2] Yenə orada, səh. 152

“Filosofluq” edib “boz” nümunələrdən ibarət bir əyalət almanaxında “Ön söz” qismində yazdığı bir cızma-qarasında isə “dəmdə” olan, lakin hələ də “bişməyən” həmin “tənqidçi” bölgədə yaşayan, şairliyə, yazıçılığa dəxli olan-olmayanların hamısının adlarını məxsusi şəkildə uzun bir siyahıda çəkir və sonra da riyakarcasına oxucuya müraciət edir: gördünüzmü, mən heç kəsin adını yaddan çıxartmadım! Hansı ki, həmin siyahıda adı birinci çəkilməyə layiq olan Elşad Səfərli imzası yoxdur. Elə yaxşı ki, yoxdur, çünki təsadüfi, əksəriyyətinin ədəbiyyata dəxli olmayanların sırasında Elşad Səfərli imzası niyə olmalıdır ki?..

Və həmin özünə “tənqidçi” deyən kəsin nə demək istədiyi bəllidir... Ola bilsin ki, həmin kəsin E.Səfərli haqqında kifayət qədər yaxşı yazılanlardan xəbəri yoxdur. Onda ona imzaları ədəbi prosesə kifayət qədər yaxşı tanış olan professorlardan S.Əsədullayev, Ə.Xəlilov, H.Həşimli, Ş.Fazil və adlarını çəkmədiyimiz digərlərinin kitab və məqalələrinə diqqət yetirməyi məsləhət görərdik. Bir də ki, bu kitabımızın sonunda “Əlavə” kimi verdiyimiz E.Səfərli yaradıcılğı haqqında yazanların və yazılanların heç də tam olmayan siyahısı belədə anlayışı olan düşüncə sahibinə nəsə demirmi?..

Əyalət jurnalında çap etdirdiyi növbəti bir yazısında özünün də mənsub olduğu bölgə üzrə sonet yazanların adlarını çəkir. Ədalət naminə yazaq ki, E.Səfərlini də həmin sıralamada qeyd edir (çünki buna məcburdur, inkar edə bilməz). Qəribəsi budur ki, ümumiyyətlə sonet yazmayan birinin adını sonetçi kimi vurğulayır. Və cümləsini belə bitirir: «Etiraf edək ki, ən yaxşı sonetləri Şəkər Aslan yazmışdır.» Müəllifin diqqətinə tam obyektiv olaraq çatdırmaq istəyirik ki, Ş.Aslan lirik şeirin bir sıra növlərində uğurlu nümunələr yazsa da, sonetlər çələngi sahəsində Azərbaycan poeziyasında ilkinliyə imza atsa da, sonet poetikası baxımından

onun yazdıqları heç də müvəffəqiyyətli deyil, ciddi qüsurlara malikdir. Buna görə də haqlı olaraq mərhum ədəbiyyatşünas alim Ş.Salmanov və digər tənqidçilər tərəfindən onun sonetləri tənqid edilmişdir.

E.Səfərlinin sonetləri isə tam mənasında klassik sonet poetikası tələbləri səviyyəsində yazılmış və sonetin bir çox növləri məhz onun qələmi sayəsində Azərbaycan poeziyasında ilk dəfə uğurla işlənmişdir. Bunun nəticəsi olaraq bir çox nüfuzlu ədəbiyyatşünas alimlər bu təkzibedilməz ədəbi faktı öz kitab və məqalələrində xüsusi vurğulamışlar. Bu məqamda haqlı sual ortaya çıxır. Onda bəs müəllifin "etiraf edək ki, ən yaxşı sonetləri Ş.Aslan yazmışdır" müddəası nəyə əsaslanır? Bu, oxucunu çaşdırmağa yönəldilən cəhd deyil, bəs nədir? Bax belədə yeri var ki, oxucuya üz tutub deyəsən: "Əziz oxucu, qərəzi görürsünüzmü?» Həmin "tənqidçiyə" isə üzümüzü tutub demək istəyirik ki, kiməsə bəslənilən şəxsi qərəzi poetik mətnlərin dəyərləndirilməsi zamanı ədəbi-tənqidi müstəviyə gətirmək düzgün deyil, yazanda da obyektiv, heç olmasa insafla və vicdan amilini unutmadan yazmaq lazımdır.

Onu da qeyd edək ki, Elşad mübariz və prinsipial şairdir, özünü müdafiə etməyi bacarır. Buna görə də həmin "tənqidçi" deyilən kəs Elşada qarşı uğursuz gözdənsalma cəhdlərinə qarşı adekvat kəskin cavablar ala biləcəyini heç də unutmamalıdır. Unutmamalıdır ki, növbəti dəfə tanınmış bir professorun qapısına Elşadın onunla işi olmasın deyə minnətçi düşməsin...

Nə isə... Əsas mövzudan yayınmayaq, keçək əsas mətləbə... Hüseyn Həşimli E.Səfərlinin sonetləri kontekstində digər şairlərlə paralellər aparmışdır. Və yazmışdır: "E.Səfərli həmin istiqamətə daha mühüm diqqət yetirmişdir. Dante, Petrarka kimi sonet ustadlarını xatırlayan, V.Şeks-

pirə ayrıca şeir həsr edən E.Səfərlinin qələmindən çıxmış bir neçə poetik nümunə bilavasitə "sonet haqqında sonet"dir. Belə şeirlərdə müəllif bir tərəfdən sonetin ədəbi mahiyyətinə toxunur, "yüksək zövqün və aristokratizmin" ifadəsi sayılan soneti belə qiymətləndirir:

Sonet çox vaxt oxundu kübar məclislərində,
Yarandığı ilk gündən qəlbləri fəth edir o.
Bu gün İtaliyanın söz-sənət zirvəsində,
Dantenin, Petrarkanın sevimli şeridir o.

Başqa bir yerdə isə müəllif soneti "intibah şeirinin qüdrəti" kimi yüksək qiymətləndirir, bu janrın guya bizim poeziyanın ruhuna uyğun olmadığı barədəki iddiaları haqlı olaraq düzgün hesab etmir, dolğun sonet yazmağı əsl istedadın bəhrəsi sayır:

Sonet haqda bir naşı, fərqinə də varmadan,
Deyib, şerimizin o, ruhuna deyil uyğun.
Belə söyləyən zaman bilməliydi o nadan
Sonet təntənəsidir yüksək şerin və zövqün...

İlham qanadlarımı, Tanrım, bərkit sonetdə,
Az da olsa, bilərəm xidmətim var sənətdə![1]

Başqa bir sonetdə isə "lirik "mən"in aludə olduğu puç eşqin" nisgili belə təqdim olunur:

... Elə birisinə getdi ki, fəqət,
Hüsnünü tez pozub, onu aqibət
Gözəllər içində qoydu kölgədə.

---

[1] Yenə orada, səh. 153

Özgə sevgisinə gətirdi biət,
Vaxtsız da dul qaldı...ondan bəlkə də,
Mənim qisasımı aldı təbiət.

E.Səfərlinin **abba qddq mpp mnn** kimi qafiyələnən bir sonetində isə tənhalıq ovqatı poetik müstəviyə gətirilmiş, dostların, həmdəmlərin əsl mövqeyinin bu anda üzə çıxdığı vurğulanmışdır. Belə şeirlər həm də insan, onun taleyi, sosial mövqeyi və s. barədə düşüncələrin bəhrəsi kimi maraq doğurur:

Yox imiş təklərin halına yanan,
Bunu da anladım qalanda yalqız.
Mən elə şeylər var, onları yalnız
Ayrılıqda görüb dərk etdim, inan...

Öyrəndim kimin də kim olduğunu,
Başım daşa dəydi, onda ayıldım,
Çoxundan soyuqluq gördüm, ayrıldım...

Ömrün faniliyi, dünyada hər şeyin müvəqqəti olması və bunun oyatdığı nisgil də şairin sonetlərində öz ifadəsini tapmışdır. Göz oxşayan gözəllik də, qaynar gənclik də, təravətli bahar da keçicidir. Lakin təsəlli ondadır ki, bunların hər biri təkrarsızdır, hər bir gözəlin hüsnü də, hər bir insanın ömrü də, hər ilin baharı da bir-birinin təkrarı deyil, təkrarsız olan gözəllik və ülviyyət isə daima xatırlanacaq:

Hər dəfə qüssə ilə diqqət yetirirəm mən,
Çöhrəndə rəngi solan, qarışan cizgilərə.
Baxıb köks ötürürəm şuxluğunu itirən,
Üzündə yavaş-yavaş qırışan cizgilərə.

Zaman tez ötüb keçir, cəhd edir ki təbiət,
Bu günkü xoş havanı sabah yağışa versin.
Sənin gənclik qapına payız gətirən xilqət,
Ömrünün baharını çalışır qışa versin.

Ən ülvi gözəllik də bir gün solur nəhayət,
Hər şeyi alt-üst edən, tarmar edən təbiət,
Sənin də gül hüsnünü vecinə almayacaq.

Solmaqda olan hüsnə baxıb mənəm vaysınan,
Dünyaya çox gözəllər gəlsə də, buna inan,
Sənin gözəlliyinin təkrarı olmayacaq.

Katrenlərində misralar, məsnəvidə olduğu kimi, qoşa-qoşa qafiyələnən başqa bir sonetdə isə şairin yozumu bir qədər fərqli xarakter alır:

Nə tez ürcahıma çıxdı qocalıq,
Nə tez verdiyini alıbdır xalıq,
Qarışıb ətrinə kimsə bürünmür,
O mələk çöhrəndən bir iz görünmür...

Şeirlərində A.Babayev, Ş.Aslan, V.Hüseynov kimi Azərbaycan sonetçilərinin adlarını ehtiramla çəkən şair onların bu sahədəki ənənələrinin layiqli davamçısı kimi çıxış edir. X.R.Ulutürkə və S.Rüstəmxanlıya həsr olunan sonet isə ədəbi ithaf xarakteri daşıyır.

Dünya ədəbiyyatının sonet təcrübəsinə yaxından bələd olan E.Səfərlinin sonetlərindən bəziləri onbirlik, bir qismi də ondördlük heca ölçüsündədir. İngilis soneti formasında yazdığı şeirlərdə qafiyələnmə belədir: **abab qdqd mpmp**

**nn.** İtalyan soneti şəklindəki nümunələrdə qafiyə rəngarəngliyi diqqəti cəlb edir:

abab qdqd mmp nnp
abba qddq mpp mnn
abab qdqd mpm ncn
aabb qqdd mmp nnp

Göründüyü kimi, şair Avropa sonetinin çeşidli qafiyə düzümlərinə biganə qalmamış, həmçinin Şərq şeiri ənənələrinin təsiri ilə katrenləri məsnəvi kimi qafiyələnən sonet yaratmaq sahəsində də qələmini sınamışdır.

E.Səfərlinin sonetlərində aparıcı yerlərdən birini məhəbbət mövzusu tutur. Şair lirik qəhrəmanın kövrək duyğularını, könül çırpıntılarını, hissi-mənəvi yaşantılarını poetik tərzdə canlandırmağa xüsusi səy göstərir:

Daha məhv olan eşqə yanıb kül olmaqdansa,
Qapından perik düşən qəmli bülbül olaram.
Mən sənin gül bağında qızılgül olmaqdansa,
Hasarımın dibində bitən bir kol olaram.

Bu cür surətini hifz edir əlbət,
Səndən gözəlliyi alıb təbiət,
Demə, bəxş edibmiş övladlarına.

Müəyyən mənada tanış motivlərdir, V.Şekspir sonetlərinin bir qismində buna bənzər düşüncələrlə rastlaşmışıq, lakin E.Səfərli ənənəvi mövzuya fərdi yanaşma nümayiş etdirməyə, ümumən orijinallığa nail olmuşdur. Xüsusən, o məqamlarda ki, şair lirik qəhrəmanın yaşadığı duyğuların konkret ovqat anları fonunda təsvirinə üstünlük verir, onda

sonetdə ifadə olunan hisslər də daha emosional, daha təsirli bədii biçimdə üzə çıxır:

Sənə diqqət yetirdim, bir kimsənin toyunda
Oğrun-oğrun baxmaqla mən sənə göz qoyurdum.
Sən o toya gəlmişdin sanki mələk donunda,
Sənin gözəlliyinə  baxıb qürur duyurdum.

Sənə özgə baxanda acıqlanırdım, fəqət,
Qısqanclığın odunda gizli-gizli yanırdım.
Sən ey sevdiyim qadın, sən ey sevimli afət,
Mən səni özgələrə o toyda qısqanırdım.

Gözəlliyindən tez-tez danışıb demirəm ki,
Özgələrin dilinə səsin, sorağın düşər.
Adını da şerimdə hələlik çəkmirəm ki,
Ad çəksəm, iki evdə, bilirəm, qırğın düşər.

Tanrım, mənim günümə heç bir bəndən düşməyə, -
Ki sevdiyin göz görə, lakin əl yetişməyə.

E.Səfərlinin sonetlərində yaşadığımız günlərin ovqatı, müstəqillik yolları ilə irəliləyən Azərbaycanın qarşısına çıxan problemlər, Qarabağ münaqişəsi, itirilmiş torpaqlarımızın nisgili və s. məsələlərə də həssas sənətkar münasibətinin ifadəsi ilə rastlaşırıq. Qarabağın tacı, gözəl Şuşanın düşmən tapdağına düşməsindən doğan kədərin dilə gətirilməsi ilə yanaşı, müəllif Vətənimizin yenilməzliyinə, yağılardan qisas alınacağına inamını bəyan edir:

Yenilməzlik rəmziydi Şuşa Azərbaycanın,
Nədən basılmağını fikirləşə bilirmi?!
Uyğusuna gedərdi şən bülbül sədasının,
İndi quzğun səsinə heç öyrəşə bilirmi?..

Bəs hansı xəyanətdən düşmənə çökdü Şuşa?
Nə qədər ki, bu xalqın ruhu sındırılmayıb,
Şuşa yurd ola bilməz bir ovuc qudurmuşa.

Başqa bir sonetdə isə E.Səfərli yurddaşlarımızı xalqımızın tarixi qəhrəmanlıq ənənələrini yaşatmağa, Koroğlu, Babək kimi igidlərin Vətən, xalq naminə fədakarlıqlarını unutmamağa, dünənki şərəfli tarixi bu gün də davam etdirməyə səsləyir.

Ümumiyyətlə, E.Səfərlinin sonetləri janrın çağdaş mərhələdə yaranan nümunələri sırasında özünəməxsus yer tutur" [1] Filologiya elmləri doktoru, əməkdar elm xadimi Hüseyn Həşimli sonet də daxil olmaqla bəzi Avropa mənşəli janrlar[2] haqqındakı doktorluq dissertasiyasında da Elşad Səfərliyə istinad edir və bəzi nəzəri müşahidələrini əsaslandırır: 1) Poeziyamızda sonetin kontaminasiyasının bir təzahürü də məsnəviyə xas qafiyə modelini yada salır. Belə sonetlərin katrenlərində qoşa qafiyələnmə qeydə alınır (E.Səfərli, M.Təbib); 2) Broxokolon hər misrası bir hecalı sözdən ibarət şeirə deyilir. Elşad Səfərli də bir neçə analoji şeir yazmışdır. On dörd hecalı sözdən ibarət belə sonetlərdə hər söz bir misradır; 3) Poeziyamızda ilk sonet – akrostix və kodalı akrostix E.Səfərli tərəfindən 2003-cü ildə yazılmışdır; 4) Son illərdə vətənpərvərlik mövzusunda E.Səfərli "Qisas himnləri" adlı çələng yazmışdır; 5) Yalnız son onilliklərdə Şərq üçlüyünün, əsasən də xokkunun janr səviyyəsində təzahürü halları ilə rastlaşırıq (E.Səfərli, B.Pərviz, A.Talıbzadə)."[3]

---

[1] Hüseyn Həşimli. Azərbaycan poeziyasında sonet və terset. Bakı, "Elm və təhsil", 2003, s. 152-158; s. 181-184.

[2] H.Həşimli: Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar. Doktorluq dissertasiyasının avtoreferatı. Naxçıvan, 2011, 58 s.

[3] H.Həşimli. Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar. Doktorluq dissertasiyasının avtoreferat. Naxçıvan, 2011, 58 s.

İstedadlı şair və alim, şərqşünas Şahin Fazil Elşad Səfərlinin poeziyasına müraciət etmiş və əsas qayəsini "tənqidçi-şair" fikrinin obyektiv, yaxud subyektiv yanaşılmasına yönəltmişdir. Müqayisələrində nə dərəcədə haqlıdır – mənlik deyil, hər bir söz adamının şəxsi zövqü var. Şeir o vaxt "yerinə düşür" – birmənalı qarşılanmır. Professor və şair **Şahin Fazil** yazır: "Əgər Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi ordenli şairlər "hayku" yazsaydılar, tənqidçilər onların hayku yaradıcılıqlarını gen-bol tərifləyər, barələrində məqalə və monoqrafiyalar yazardılar. Bu gün hansı tənqidçi Böyükxan Pərvizdən, Elşad Səfərlidən hayku yazan şairlər kimi söz deyib?.." ***(Bax: Ş.Fazil. Yaponiya səfərnaməsi. Bakı, Elm və təhsil, 2011, s.99-100).***

Elşad Səfərlinin sonetlərinin diqqət mərkəzində son illərdə dayanması təsadüfi deyil, bu janrın incəliklərinə vaqifliyidir, içindən gələn poetik vəhyin nəticəsidir. Professor **Nizaməddin Şəmsizadə** "Ədəbiyyat nəzəriyyəsi" dərsliyində ***(Bax: Bakı, "Proqress" nəşriyyatı, 2012, s.205-206)*** E.Səfərliyə münasibətini – sonetlə bağlı – bildirmişdir:

"Sonetin bir növü də broxokolon adlanır – on dörd təkhecalı sözdən ibarət belə sonetlərdə hər söz bir misradır. Bu formada gənc şair Elşad Səfərli də bir neçə analoji şeir yazmışdır (fikir Hüseyn Həşimlidən sitat kimi verilmişdir – A.E.)". Oxucu üçün broxokolon sonetlə (buna miniatür sonet də deyilir) bağlı əyani təsəvvür yaransın deyə bir nümunəyə müraciət edək:

Sən
Gül,
Ol
Şən.

Get, -
Az
Naz
Et.

Bax...
Yar
Çox.

Seç...
Mən
Heç...

***20.05.2002***

**P.S.** Şərti işarədir, xüsusilə "ön söz"ə yük ola bilər. Amma sonetdən danışıramsa, yəni onun müəllifi Elşad Səfərliyə münasibətimi bildirirəmsə, bu, sözügedən janrın davamlı tədqiqatçısı kimi də onun yaradıcılıq portretində digər bir aspektdən yeni cizgilərin aşkarlanması baxımından oxucu üçün böyük maraq kəsb edə bilər...

Qarşımda çağdaş formatla Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrifi əsasında çap edilmiş bir kitab var və adı belədir: "Azərbaycan sonetinin poetik xüsusiyyətləri" (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2014, 286 səhifə). Təbii ki, müəllifi dosent Elşad Səfərlidir.

Bir ədəbiyyatşünas olaraq monoqrafiyanı oxudum və mənə elmi baxımdan əlaqəli gəldi. Çünki mən on ildir çətin janr olan "poetika" məsələlərilə məşğulam. S.Vurğunun, Mir Cəlalın, İ.Şıxlının poetikası haqqında araşdırmalar aparmış və hər biri haqqında monoqrafiya çap etdirmişəm. Demək istəyirəm ki, poetikanın, xüsusilə, bir ədəbi (poe-

ziya) janr haqqında geniş müstəvidə yazmaq hünərdir. Bəzi cəhətlərini səciyyələndirərdim: Bu janrın tarixini Şərq-Qərb kontekstində götürməsi, qədim ənənələrə malikliyi və bu ədəbi məkandan Qərbə, Avropaya transferi Elşadın orijinallığı, milli köklərə bağlılığıdır – belə qiymətləndirirəm.

Belə bir ədəbi körpüdən yararlanan müəllifin Azərbaycan sonetinin təşəkkülü, M.Müşfiqin, Ə.Kürçaylının, A.Babayevin, Ə.Cəmilin, Ş.Aslanın, S.Mustafanın, V.Hüseynovun və digərlərinin sonet yaradıcılığını təhlil etməsi təqdirəlayiqdir. E.Səfərlinin sonetlər müəllifi olması bu yanaşmanın dəyərini daha da artırır.

Mən istedadlı şair Əliağa Kürçaylının sonetləri üzərində Elşadın xüsusi dayanmasını bir də ona görə təqdir edirəm ki, şairlə özü arasında bir ruhi yaxınlıq görmüşdür. Xüsusilə, Ə.Kürçaylının "Torpaq quruyurdu, yağdı yağışlar" sonetinin fəlsəfəsini dəqiq açmışdır. İnanmaq istəməzdim ki, Ə.Kürçaylının tədqiqatçıları Elşad Səfərli səviyyəsində həmin soneti və digərlərini təhlil etsinlər!

Ədəbiyyatşünas, şair Elşad Səfərli sonetin poetikası ilə əlaqədar dərin tədqiqat aparmışdır. Son dövr şairlərindən, özünün yaradıcılıq bağlılığı olan söz ustalarından Şəkər Aslanın, Vaqif Hüseynovun, Abbasağanın, S.Mustafanın, Abbas Abdullanın və başqalarının sonet yaradıcılığı haqqında miqyaslı təhlillər aparmışdır.

Bir mühüm məziyyət də ondadır – E.Səfərli ədəbiyyatşünaslıqda ilk sonetçi-şairdir, sonetçi-ədəbiyyatşünasdır ki, sonet janrının poetikasını tədqiq etmişdir – yüksək peşəkarlıqla!

Elşad Səfərli imzası bu gün mətbuatda az-az, gec-gec görünür... O bu gün mətbuatda, demək olar ki, yoxdur, amma ədəbiyyatda var... yaxşı ki, var. Bunu kimsə etiraf etmək istəməsə də, inkar da edə bilməz... Pələngin meşədə

səsi gəlmirsə, bu heç də onun yatdığına dəlalət etmir. Bu mənada E.Səfərli həmişə və müntəzəm olaraq ədəbiyyatla, meditasiya ilə məşğuldur. Gündə ekran-efiri, qəzet-jurnal səhifələrini qabar edənlər çox da sinələrinə döyməsinlər. Çünki bu da var ki, palaz-palaz müxtəlif mətbuat səhifələrində çap olunmaq, ekran-efiri zəbt etmək, gözləri qabar, qulaqları döyənək etmək hələ ədəbiyyatda olmaq demək deyildir.

E.Səfərli imzasının layiq olduğu qədər tanınma arealının genişlənməsi zaman məsələsidi – qısa bir zamana ehtiyacı var. Ancaq bu, şairi qətiyyən heç narahat da etmir. Onun bu kontekstdə kriteriyaları tamam fərqli, bizcə, daha məntiqlidir. Təsadüfi deyildir ki, şeirlərinin birində yazır:

Mənimçün yüzüncü dərəcəlidi,
Kim məni tanıyır, kim tanımayır.
Çünki yaddaşlarda qalıb-qalmamaq,
Təkcə tanınmaqla həll olunmayır.

Və yaxud başqa bir şeirində deyir:

Kim məni tanımır vecimə deyil,
Yüz dastan bağlayıb – sətrimcə deyil.
Qıraqdan
Sözünə züy tutan yüz Pəri tapıb,
Üstəlik,
şeirdə qanadlanmağa,
fəzalanmağa
Yüz qanad taxsa,
Yenə də bir ilham pərimcə deyil...
Beləsiynən varam, çıxsa döyüşə.

Və artıq bu misralarda şairin özünə yüksək inamının nədən qaynaqlanması gün kimi aydın olur. Görünən budur ki, onun "sözünə görə dili və dilinə görə dilçəyi var", belədə haqlı olaraq ədəbi taleyin sabahı üçün narahatlıq keçirtməyə dəyməz.

Unutmaq lazım deyil ki, Elşad yazdıqlarının dəyərini bilən şairdir. Onun "Gizli axan bulaq" şeirində böyük rus şairləri B.Pasternak və M.Svetayevadan epiqraflar verilmişdir. Bəlkə də heç kim onun, xüsusən M.Svetayevadan gətirdiyi "моим стихам как драгоценным винам настанет свой черед" epiqrafına dərindən diqqət yetirməmişlər. Bu epiqraf heç də təsadüfən verilməmişdir. Əslində şair bu epiqrafla geniş oxucu auditoriyası üçün hələlik gizli, naməlum qalan şeirlərinin gələcək taleyinə yüz illərnən evdə, yaxud anbarda qorunan ən qiymətli şərab içkisinin qaldıqca dəyər və keyfiyyətinin daha da artması faktının analoqu kimi baxdığına işarə edir. Bax, Elşad Səfərli poeziyasının böyük inam, nikbinlik fəlsəfəsinin əsl mahiyyəti də elə məhz bu analoqla bağlılığındadır. Kimlər üçünsə bu gün diqqətdən kənarda qalan yaradıcılığının vaxt gələr, həmin şeirdə dediyi kimi "gizli xəzinə kimi üzə çıxacağından" tam əmindir və buna görə də şairin şeirlərinin sabahkı taleyi üçün ürəyi tam rahatdır. O ki qaldı sabah kimin ədəbiyyatda qalıb-qalmayacağı ilə bağlı düşüncəmizə, düşünürük ki, bu, əlbəttə, böyük hərflə Zaman məsələsidi, belə deyək, zamanın əlində tutduğu ələk məsələsidi. Bu məsələ Azərbaycan Yazıçılar Birliyi adlanan qurumla, həmin qurumda yer tutan iki-üç vəzifəli məmurun iradəsi ilə bağlı olan nəsnə də deyil. Belədə adamın ürəyindən sadəlövhcəsinə bir fikir də keçir. Görəsən, əsərlərinə görə dəyər və qiymətini alan orta əsrlər dövrü və aramızdakı məsafə heç də az

görünməyən yaxın keçmişimizin şairlərinin yaşadığı zamanlarda hansısa Yazıçılar Birliyi, yaxud ittifaqı olubmu?

E.Səfərlini yaxşı şair kimi tanımaq üçün onu səbirlə, elə yaxşıca da oxumaq lazımdır. Necə ki, ona şeirlər həsr edən onlarla şairlər sırasında imzası oxuculara yaxşı tanış olan istedadlı şair, tarixçi alim Şahin Fazil belə də etmiş, yaradıcılığını diqqətlə izlədiyi Elşada həsr etdiyi "Bu, Elşad Səfərlidir" adlı sanballı məqaləsində eyniadlı gözəl bir şeir yazmaqla bir növ yuxarıda söylədiyimiz fikri poetikləşdirmiş oldu. Sözügedən şeir növbəti səhifələrdə təqdim olunacaq.

Ədəbiyyatşünas alim, dosent, yazıçı Mirhüseyn Abbasın E.Səfərlinin "Yalnız sevgi" kitabı haqqında yazdığı "Şeirin bulaq yolu" məqaləsindəki qeydləri də maraqlı təhlil prizmasında diqqəti cəlb edir: "Elşad Səfərli, bir şair kimi, kitabdan-kitaba daha da püxtələşir. Çap etdirdiyi kitabları ilə oxucuların dərin hörmət və sevgisini qazanan şair poeziyanın çətin, dolanbac yollarını arxada qoyaraq, sanballı əsərlər yazmaqdadır. Oxucu E.Səfərli şeirinin obrazlı təfəkkürdən irəli gələn səmimiyyətinə inanır. Bu inanc şair qarşısında daha məsul vəzifələr qoyaraq onu qələm fırçası ilə söz-rənglərdən daha gözəl lövhəli əsərlər yaratmağa sövq edir" ***(Bax: M.Abbas. Şeirin bulaq yolu. "Aşkarlıq" qəz., Bakı, 2002, 5 fevral, №1-2(43)).***

E.Səfərlinin kifayət qədər müvəffəqiyyətlə yazılmış sanballı kitabları var və həmin kitablar kifayət qədər də yüksək poetik zövqə malik oxucular tərəfindən oxunmaqda, təqdir olunmaqdadır. Və ədəbi prosesin bir sıra tanınmış nümayəndələrinin onun poeziyasına maraq göstərib resenziya, məqalə və kitab həsr eləmələrini də buraya əlavə etsək, onun ədəbi portretinin heç də az olmayan ciddi poetik reputasiyaya (reytinqə) malik olduğunun şahidi oluruq. Be-

lədə biz sözümüzü təkrarlamalı oluruq – Elşad Səfərli bu gün kimlərinsə diqqətsizliyi ucbatından, bəlkə də küskün düşdüyündən yalnız mətbuatda yoxdur, ancaq böyük hərflə Ədəbiyyatda var...

Kifayət qədər ciddi söylədiyimiz bu mülahizəmizin əsassız, sübutsuz olmadığını göstərən əlimizin altında bəs qədər mənbələr vardır. Buna görə də dediklərimizin təsdiqi kimi nüfuzlu qələm sahiblərinin yazdıqları həmin mənbələr sırasında birinə müraciət edək: "Şair Tənhalığı və Təkliyi Allah vergisi, Tanrı payıdır ki, bu hər kəsə nəsib olmur, hər kəsin qismətinə düşmür. Şair öz Tənhalığı və Təkliyi ilə xoşbəxtdir, çünki o, ürəklərə yol tapan sənət incilərini – möcüzəli poeziya nümunələrini məhz tənhalıq və təklik adlanan bu ilahi səltənətin qucağında yazıb-yaradır, qədirbilən oxucularına ərməğan edir.

Budur, Tənhalıq və Təklik səltənətində söz-söz, misra-misra, beyt-beyt hörülən bir poeziya çələngi – şair Elşad Səfərlinin "Şair təkliyə məhkumdu" (Bakı "Nurlan" 2004) toplusu qarşımızdadır.

Topludakı şeirlər, ümumən uğurludur, şairin güclü poetik potensialından, forma-məzmun axtarışlarından, yaradıcılıq üslubunun fərdiliyindən və özünəməxsusluğundan xəbər verir. Elşadın həqiqətən güclü şair, orijinal istedad sahibi olduğunu təsdiqləyir.

Topludakı şeirlərin dili ifadəli və obrazlıdır, rəngarəng məcazlar sistemi ilə zəngindir və bu şeirləri oxuduqca Elşadın bədii kəşf və tapıntı sayıla bilən yeni, orijinal təşbeh və metaforalarına, ən gərəkli epitet və metonimiyalarına, dağ siqlətli mübaliğə və təzadlarına, adi həyati faktları poetikləşdirmə məharətinə heyran qalmaya bilmirsən. Günəşin üfüqləri al-qırmızı boyaması adi təbii hadisədir. Bu adiliyi hamı görür, lakin hamı onu mənalandırmağı, hamı ondan

qeyri-adilik axtarmağı bacarmır. Elşadın məharəti ondadır ki, hamının  gördüyü bu hadisədə hamının görə bilmədiyi qeyri-adiliyi görür, bu qeyri-adiliyi insanla, insanın taleyi ilə bağlayır və günəşi qırmızı edam kötüyünə, üfüqləri isə başı kəsilən insana bənzədir:

Gündoğanda,
Kimin qanı çilənib üfüqlərə?
Qırmızı  ləkələr
Qan laxtalarıtək
Gözə dəyir.
Günəş,
Üstündə insan başı kəsilən
Qıpqırmızı
Edam kötüyünə bənzəyir.

Bu, orijinal təşbehdir və Elşad bu yeni nəfəsli təşbehi güclü ilham axarında, şeirin içəri ləngərində və humanist məzmununda kəşf etmişdir.

Şairin "Divar saatı", "Ağ gün, qara gün", "Günbatana doğru", "Qurd quzuyla otlayır", "Buludlar dağılıb göyün üzünə" və s. şeirləri də məhz fikir və məzmun təzəliyinə, bədii təsvir və ifadə vasitələrinin yeniliyinə görə seçilir, yadda qalır.

"Şair təkliyə məhkumdu" toplusunu təkrar-təkrar oxuyur və  inanırsan ki, doğrudan da, Tanrı tənhalığında və qonşuluğunda bir şair yaşayır, bu, Elşad Səfərlidir – özünün "Dünya ömür yoludur", "Sözü ürəyində qalan adam", "Səhərə tələsən qatar", "Yalnız sevgi" poetik toplularıyla; Azərbaycan müstəqilliyinə, bütövlüyünə hələ neçə-neçə "Sonetlər çələngi" hörmək arzusuyla; sevən-sevilən  gənclərin saf, səmimi sevgi duyğularına nurlu, işıqlı məhəbbət

şərqiləri bəstələmək həvəsiylə; istedadsız və simasız, məddah və mədhiyyəçi, yaltaq və riyakar cızmaqaraçıları poeziyanın müqəddəs məbədindən biryolluq silib-süpürmək qətiyyətiylə. Və biz inanırıq ki, Elşad Səfərli qəlbinə od, əlinə qələm verən, beynində ocaq qalayan bu arzu və düşüncələri gerçəkləşdirəcək, qəlbində hələ lal olan, hələ gözə görünməyən, eşidilməyən neçə-neçə səsləri və sözləri, neçə-neçə rəngləri və boyaları dilləndirəcək, onlara Tanrı tənhalığında poetik libas geyindirib poeziya səltənətinə çıxaracaq". ***(Bax: Ə.Əliyev, M.Babayev. Zamanla müxalifətdə olan şair. "Sənət qəzeti". Bakı, 23.10-05.11.2014-cü il № 15 (015) s. 17).***

Bu yaxınlarda – 2012-ci ilin sonlarına yaxın onun "Gənclik" nəşriyyatında çox nəfis tərtibatla "Bu, Elşad Səfərlidir" kitabı çapdan çıxdı. Kitabın adı kifayət qədər iddialı səslənir, deyilmi? Ola bilsin ki, kiməsə lap təkəbbürlü görünsün! Amma mən heç də belə düşünmürəm, çünki E.Səfərlini heç vaxt təkəbbürlü görməmişəm, əksinə, yazdıqlarında da, yuxarıda qeyd etdiyim kimi, "sözünün dilinə, dilinin isə dilçəyinə uyğun" olduğunu görmüşəm. Əgər kiməsə adicə bir kitab adı təkəbbür amili kimi görünürsə, onda bəs klassik, ustad şairlərimizin yazdıqları "fəxriyyə"lərə nə ad verək? Əslində isə həmin şeirlər intibah insanının və şairinin öz yaradıcılıq qüdrətinə inamından, özünüdərkdən başqa bir şey deyildir. E.Səfərlinin kitabının adı da şairin öz poetik qüdrətinə böyük inamın ifadəsi kimi qəbul edilməlidir. Bir də rus poeziyasında eqofuturistlərin yaradıcılıqlarını unutmaq lazım deyil.

Kitaba şairin xeyli mükəmməl şeirləri, bunların sırasında Avropa mənşəli sonetləri və ədəbi proses tərəfindən maraqla qarşılanan iki poeması daxil edilmişdir. Bu kitabın poetik sənətkarlıq məziyyətləri haqqında özüm heç nə demək istəmirəm. Yazımın bu yerində tamamilə fərqli dəyər-

ləndirmə mövqeyi nümayiş etdirib, digər müəlliflərin bu kitab haqqında yazıb, müxtəlif mətbuat səhifələrində çap etdirdiklərinə müraciət etməklə şair Elşad Səfərli yaradıcılığı barədə nə dərəcədə obyektivlik göstərdiyimizi sübut edirəcəyik. Həmin müəlliflərin yazdıqlarına istinad edək:

**QARDAŞXAN FƏRZİ, ƏBÜLFƏT MƏDƏTOĞLU:**

"Bu gün Azərbaycanın oxucu camiyəsində kifayət qədər özünü tanıtmış, öz yerini müəyyənləşdirmək gücünü ortaya qoymuş imza sahibləri var. Doğrudur, oxucu həmişə təzə imza, təzə söz sorağında olur. Bu da zamanla, inkişafla, xüsusi olaraq ədəbiyyata yönəlik baxışlarla əlaqəlidir. Yəni oxucu geniş informasiya şəbəkələrinə malik olduğundan indi bir kitabın, bir şairin, bir imzanın, bir ədəbi mühitin içərisində yatıb qalmır. Ona gələn bu bol informasiyanın içərisində çeşidləmək, yaxşını-pisi fərqləndirmək, xüsusi olaraq sözə yeni münasibət bəsləmək imkanı qazanır. Kəsəsi, internetin bir düyməsi hesabına dünyanın istənilən nöqtəsində çapdan çıxmış və mürəkkəbi qurumamış istənilən dəbli məhsulu oxumaq, onunla tanış olmaq indi uşaq oyunu kimi çox sadə və əlçatandır.

Bax, bu mənada Azərbaycan oxucusu da hər gün qarşılaşdığı imzalara məhz həmin o texnikanın verdiyi imkanların bucağından baxır. Belə olduğu halda da söz adamı kimi, söz sahibi kimi, sözü yaradan və təqdim edən yazıçı-şair kimi oxucuya çatmaq nə qədər asandırsa, oxucunun diqqətini çəkmək, oxucunun yaddaşında qalmaq o qədər çətindir. Konkret ifadə etsək, oxucunu qazanmaq və oxucunun olmaq bu gün müşkül məsələlərdən biridir.Təbii ki, burada təqdimatın, təbliğin də böyük rolu var. Bunu unutmaq olmaz.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Bu günlərdə Lənkərandan ünvanıma göndərilmiş bir kitab və onun barəsindəki səmimi fikirlərlə tanış oldum. Kitabın müəllifi 80-ci illər ədəbi nəslinə mənsub olan Elşad Səfərlidir. Müəllifin aftoqrafı ilə mənə göndərilən "Bu, Elşad Səfərlidir" kitabına qələm dostum Qardaşxan Fərzi ürək sözlərini də əlavə edərək ünvanıma çatdırıb. Təbii ki, mən bu dəyərli hədiyyəni bir oxucu marağı ilə gözdən keçirdim, kitabla yaxından tanış oldum. Onun ayrı-ayrı bölmələrdəki şeirlərini karandaşla işarələdim və sonra baxıb gördüm ki, mənim fikirlərimlə dostum Qardaşxan Fərzinin fikirləri, demək olar ki, üst-üstə düşür. Ona görə də bu iki fikri birləşdirmək və ikimizin "Bu, Elşad Səfərlidir" kitabına oxucu münasibətini birlikdə təqdim etmək razılığına gəldik...

80-ci illər ədəbi nəslinə mənsub olan Elşad Səfərli Lənkəranda yaşayır və burada da yazıb-yaradır. Bu günə qədər bir xeyli kitabların işıq üzü görməsi sevincini yaşayıb və bu gün də şeirlər və poemalardan ibarət olan "Bu, Elşad Səfərlidir" kitabı onun son illər yaradıcılığının bir növ toplusudur. Kitaba yazıçı-publisist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Allahverdi Eminov ön söz yazıb. Allahverdi müəllim ön sözü çox qəti bir hökmlə başlayıb:

–Elşad Səfərli şairdir – böyük hərflə - poeziyaya onu ilhamı gətirmişdir – mütaliəsi yox.

Bəli, elə ilk sözdən, ilk fikirdən sözün bütün mənalarında "Elşad Səfərli şairdir!" – hökmü oxucunu özünə çəkir. O oxucunu ki, onun Elşad Səfərli yaradıcılığı barəsində ya bilgisi yoxdur, ya da onu çox az oxuyubdur. Məhz bu təqdimatla oxucunu kitaba çəkən Allahverdi Eminov Elşad Səfərlinin, demək olar ki, yaradıcılığına kifayət qədər gur bir işıq saçıb. İstər onun ayrı-ayrı şeirlərini, istər poemalarını, necə deyərlər, yüz dəfə sağdan, soldan, altdan, üst-

dən çözüb səpələyib oxucunun gözləri qarşısına. Hər misranın, hər fikrin arxasında dayanan gücü, hikməti, mənanı elə ustalıqla şərh edib ki, oxucu Elşad Səfərli yaradıcılığından rahatca bəhrələnə bilsin.

Bax, bu mənada Elşad Səfərlinin kitabdakı şeirlərinin çox böyük əksəriyyəti öz fikir yükü ilə, öz yanaşma tərzi ilə diqqəti çəkir. Məsələn, əgər söhbət Qarabağdan, bu problemin çözümündən gedirsə, onu bu cür sadə və lakonik ifadə etmək yalnız Elşad Səfərliyə məxsusdur:

Vaxtsa gedir...
vaxt gözləmir,
Sükut da bir xoş vəd vermir.
Vaxt çoxdan bizə işləmir,
Vaxt düşmənin tərəfində...

Həqiqətən də az qala əsrin dörddə biri qədər yaşı olan Qarabağın işğal dərdi hələ də çözülmür. Bizim itirdiyimiz vaxtı düşmən tapıb, qazanıb. Və yaxud başqa bir şeirində Elşad Səfərli bugünkü durumu, daha doğrusu, cəmiyyətdəki müəyyən cırlaşmanı, insanlardakı laqeydlik hisslərini, etinasızlığı cır armuda müraciət etməklə çox konkret bir formada diqqətə çatdırır:

Bugünkü sənətə cır məhsul qatan
Şairlər bilirəm duyar fikrimi:
Bu gün şerimizin kölgəsi altda
Belələri bitib cır armud kimi.

Doğrudan da, cəmiyyətdəki etinasızlıq, laqeydlik oxucunu da bürüyüb, oxucu da cəmiyyətin bir parçası kimi ona sırınan, ona zorla satılan cır armudları almağa, ən azı ona toxunmağa məcbur qalıbdı.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Elşad Səfərli poeziyasında özünəməxsus yanaşma, təqdimat xüsusilə diqqəti çəkəndir. Yəni şair söz qıtlığı yaşamır, ona təsir edən, onu ilhamlandıran hər şeyə öz baxışıyla diqqət yetirir. Məsələn:

yaz fəslidir...
gülün gülü,
çiçəyin çiçəyi açılır.
Gülə, çiçəyə baxdıqca
insanın ürəyi açılır...

Təbiətin gül mövsümünü, təbiətin oyanışını balaca bir şeirdə özünəməxsus cizgilərlə işarələmək artıq, Allahverdi Eminovun dediyi kimi, şairin məharətidir, qabiliyyətidir. Həmin fikirlərin davamı olaraq demək yerinə düşər:

Ürəyim şirincə sızıldayırdı,
Özüm öz yaramı mən qanatmışdım.
Arı yuvasıydı xatirələrim,
Arı yuvasına çöp uzatmışdım.

Və yaxud:

Vəhdət sevgisində "Mən" sözü yoxdur,
Daim "Sən"i anıb bil, "Sən" demişəm.
Tale bu sevgidən qurban istədi,
Bircə onda qurban "mən-mən" demişəm.

Bax, bu şeir nümunələri göstərir ki, Elşad Səfərli təkcə bir şair kimi yox, həm də bir duyğu adamı kimi ürəyində olanlar, ürəyini verdiklərinə qarşı nə qədər səmimi və həs-

sasdır. Onun "Yalnız sevgi" şeirinin birinci bəndindəki fikirlər də dediklərimizi bir daha təsdiq edir. Şair yazır:

Sən mənim ömrümdə tale yazımsan,
Taledən yazılan çətin pozula.
Ürəyim telefon dəftəri deyil,
Gündə kimlərinsə adı yazıla.

Bu günün sevgi şouları adamları çaş-baş salsa da, şair dostumuzun saf və səmimi etirafı o şouları üstələyir, onlara qalib gəlir. Hətta onun sevgi ilə bağlı xatirə dolu ilahi pıçıltıları qələbəsini bir az da möhkəmlədir, bir az da əzəmətli edir.

Kəndin bulaq yolu...
axşam düşəndə
Dolardı cüt gəzən qaraltılarla.
Bu sevda yolunu keçmişəm mən də
Bir zaman ilahi pıçıltılarla.

Elşad Səfərlinin kitabındakı sonetlər, poemalar özü-özlüyündə ayrıca bir yazının, ayrıca bir müzakirənin açılmasını istəyir. Çünki onların hər birində yığcam və konkret, həm də oxucunu bir növ ovcunda saxlayan ifadə tərzləri, yanaşmalar var. Kitaba son söz yazmış şair Ağacəfər Həsənli vurğulayır ki, Elşad Səfərli "bölgədə yaşayan ölkə şairi"dir! Bu, Ağacəfər Həsənlinin fərdi yanaşması olsa da, əslində Elşad Səfərli öz yaradıcılığı ilə bölgəni çoxdan ölkəyə çevirə bilib. Bax, bu uğura görə qələm dostumuzu ürəkdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzu edirik". ***(Bax: Qardaşxan F. Əbülfət Mədətoğlu. "Bu, Elşad Səfərlidir". "Ədalət" qəz., Bakı, 2013, 10 yanvar, №3 (4031), s.6.)***

**MUSA BABAYEV:** “Əzizim Elşad! Qarşımdadır yüksək poliqrafik səviyyəli, gözəl-nəfis biçimli “BU, ELŞAD SƏFƏRLİDİR” (Bakı, Gənclik. 2012) poetik çələngin. Oxuyuram şeir və poemalarını təkrar-təkrar bezikmədən, usanmadan. Sevinir, fərəhlənir yeni poetik nəfəslərinə, söz və ifadələrin təbiilik və səmimiliyinə, ürəyəyatımlı məna-məzmun çalarlarına. Sevinirəm bir də ona görə ki, SƏNin bu topludakı lirik “MƏN”in daha dolğun və mükəmməldir, daha milli və bəşəridir, dünyanın bugünkü və sabahkı taleyinə daha narahat və həyəcanlıdır. Və mən bu lirik qəhrəmanını bütünlüklə səciyyələndirmək fikrindən uzağam, onun yalnız bizə doğma milli-bəşəri, əxlaqi-mənəvi dəyərlərinə diqqət çəkər, fikir və düşüncələrimi bu yöndə oxucularla bölüşəcəyəm.

Müxalifdir ZAMANla SƏNin lirik “MƏN”in. Əyilmir, sınmır ZAMANın zərbələrindən. Üz-üzə durur ZAMANla mərd-mərdanə, gözucu baxmır belə ZAMANın yad dəyərlərinə. Etina etmir ZAMANın istəklərinə. ZAMAN məddah, oyuncaq, robot görmək istəyir ONU. İstəyir ki, O da ZAMANın “vintciyi, təkərciyi” rolunu ifa etsin, istedad və ilhamını qurbanlıq kimi atsın ZAMAnın ayaqlarına. Ən kritik durumlarda haqq qazandırmır ZAMANın iddialarına. Sarsıntı, iztirab keçirir. Fəqət haqq sözünə, düz fikrinə arxa çevirmir, ŞAİRLİK stixiyasından uzaqlaşmır, ŞAİRin uca adına ləkə salmır, asi kəsilir, incik düşür ZAMANdan: “Olur zamanla da sözü çəp gəlir // “Topu, gələsi” yox, sözü haqq bilir // Bəzən incik düşür, asi kəsilir // belə bir dövrana, gərdişə könlüm”.

ZAMAN söykənib ZORuna, GÜCünə. Lirik “MƏN”in ümidlidir ALLAHına, bir də İSTEDADına. Və nə qazanıbsa, hamısını döyüşə-döyüşə, vuruşa-vuruşa qazanıb. Çünki arxasında ALLAH dayanan kimsənə güclü və qadir-

dir: “Haqqa söykənmişəm, haqqın yolunda // Hazırdır mərdanə döyüşə könlüm // Nə qazanıbdısa bu günə qədər // Qazanıb döyüşə-döyüşə könlüm”.

Sənin lirik qəhrəmanında ZAMAN yaşayır, ZAMAN səslənir, əzizim Elşad! Hopdurub ruhuna ZAMANın addım səslərini, ZAMANın demokratiya çağırışlarını. Dağılır, uçulur bu səs və çağırışlardan ALLAH iddialı diktatorların ölkə və məmləkətləri. Alqışlayır lirik “MƏN”in oyanan, silkələnən ŞƏRQin AZADLIQ hayqırtılarını, HİDDƏT-NİFRƏT təlatümlərini: “Azadlıq hayqırtısına bürünüb Yəmən, Liviya // Tiranların başı üstündə bu hayqırtılar dönüb od püskurən vulkana, lavaya // İnanmır dünya daha bu hökmranlıq uzun çəkə”.

Dünyanın yaxın-uzaq ölkələrində hökm sürən diktatura rejimlərinə açıq-aydın mesajlar göndərməyi də unutmur SƏNin lirik qəhrəmanın: sələflərimiz olan diktatorların acınacaqlı-faciəli, biabırçı-rüsvayçı aqibəti sizləri də yaxalayacaq, xalqın kin-küdurət, qəzəb-nifrət dalğalarında biryolluq itib-batacaqsınız: “Bu gün qan tökdüyün yetər // Haqqın məhkəməsi ağır. //Tarix səndən bu qan üçün // Bir gün də haqq-hesab istər”.

Lirik qəhrəmanın elə bir ölkə arzulayır ki, orada azad sözə, müstəqil fikrə qadağa qoyulmur, müxalif düşüncə sahibləri təzyiq və təqiblərlə üzləşmir, azadlıq aşiqlərinə zülm-işgəncə yaşadılmır, həqiqət, ədalət nəğməkarları vəhşicəsinə susdurulmur. Lakin lirik “MƏN”ə arzuladığı ölkə əlçatmazdır. Çünki ölkəsində diktatura bərqərardır, açıq söz, müstəqil fikir yasaqdır. Bu fikir-düşüncələrlə və bir də ürəyindəki “Hayd-park” arzusu ilə şirin yuxular qucağına atılır bu gənc. Atılır ki, oyanıb görsün dünya başdan-başa “Hayd-park”dır. Çörəkdən əvvəl söz deyə bilmək arzusuy-

muş insanlığın ehtiyac ruzusu // Hər gecə özümü birtəhər yuxuya verirəm, içərimdə ingilissayağı "Hayd-park" arzusu".

Dostum Elşad! Lirik "MƏN"in çox gözəl bilir ki, diktatorlar qənim-düşməndir "Hayd-park" sevdalı şairlərə. İzləyir, pusur onları. Çalışır ki, dilə tutsun, ələ keçirsin, özününküləşdirsin şairləri. Qara niyyətləri daşa dəydikdə müxtəlif yollarla aradan götürür ipə-sapa yatmayan bu ilham övladlarını: kimini sui-qəsdə təslim edir, kimini zəhərləyir, kimini sürgünə göndərir, kimini zindanlara atdırır. Diktatorlar anlamırlar ki, bu qəsd-qarətlər, bu həbsetmələr, bu qətləyetirmələr kəsə bilməz qələm tutan əlləri, susdurammaz haqq-ədalət bağıran dilləri, nə azadlığa sədd çəkə bilər, nə də xalqın müstəqillik duyğularına! Bu gün kimi apaydın həqiqəti belə bəyanlayır diktatorlara SƏNin lirik qəhrəmanın: "Top-tüfənginə güvənmə, // Topundan az kar aşacaq // Müstəqilliyinə bu xalq // İnan, daşla qovuşacaq".

İctimai-siyasi tutumludur "Köhnə qurdlar", "Humanist balta", "Repressiya baltasının özünəbəraət monoloqu" şeirlərin. Hər üç şeirdə xalq-hökmdar münasibətləri qabardılır və bu münasibətlərdə uduzan tərəfin hökmdar olduğu qənaətindədir SƏNin lirik qəhrəmanın. "KÖHNƏ QURDLAR"da lirik qəhrəman təsdiqləyir belə bir gerçəkliyi: Stalin ölsə də, 30-40-cı illər tarixləşsə də, stalinizm hələ də yaşayır, o illərin cəzazor maşınları, idarəçilik sistemi bu günlərdə də fəal və işləkdir: "Özündən sonraya miras da qoyub //Ardıcılı olan min qurd yetişib// Onun dövrəsində hürr balası yox // Onun kölgəsində manqurt yetişib".

"HUMANİST BALTA"da BALTA-HÖKMDAR kəsir-doğrayır meşəni – xalqı. Doğraya-doğraya timsah kimi göz yaşları da tökür, sağ-soluna haray da salır. İkili tale yaşayır BALTA-HÖKMDAR: cəlladlıq və humanistlik. BU, bütün diktatorların xislətidir: "Ağacları doğrayan da balta // Ha-

lına guya acıyan da balta // Meşəni qıran da balta // Hay salıb şivən qopan da balta".

"REPRESSİYA BALTASININ ÖZÜNƏ BƏRAƏT MONOLOQU"nda millətə, xalqa qəddarlıq və cəlladlığını, siyasi iradəsi və ixtiyarı özgə əldə olduğunu, "as desələr" asdığını, "kəs desələr" kəsdiyini, siyasi sistemin qurbanına çevrildiyini acı-acı etiraf edir və bir növ keçmiş cinayətlərinə haqq-bəraət qazandırır bu millət atası, bu millət başçısı: "Sapı özgənin əlində // İxtiyarı yad əlində olan bir icraçı idi // Düşmən ovu bəhanəydi // Kölgə necə olmalıydı // Kölə necə olmalıydı?!".

Dostum, bir sıra şeirlərində parçalanan-bölünən Vətənə harayçıdır, satılan-talanan yurda keşikçidir, məğlub-əsir torpaqlara xilaskardır SƏNin lirik qəhrəmanın.

"XƏTAYİNİN VƏTƏN XƏRİTƏSİ" şeirində hiddətlidir qəhrəmanın BÖYÜK AZƏRBAYCANın zaman-zaman param-parça edilməsinə, Vətən sərhədlərinin min-min kilometrlik kiçildilməsinə, vəzifə-kreslo əldən getməsin deyə ölkə siyasilərinin yurdu yağı-yağmaçıya savaş-döyüşsüz təslimetmə aktına: "İtirə-itirə hüdudlarını // Çəkilib içinə sığmısan, Vətən // Bir vaxt gen açdığın qanadlarını // Elə bil bükmüsən, yığmısan, Vətən!".

"AY VAR, İL VAR" şeirində məmləkət təzadlarını, yurd ağrı-acılarını, əxlaqi-mənəvi aşınmaları, Laçınlı, Şuşalı... ellərin didərginlik həyatını dünyaya hayqırır, dünyaya səslənir SƏNin lirik qəhrəmanın, SƏNin lirik "MƏN"in.

"İTƏN VAXT" şeirində atəşkəs rejiminin qeyri-müəyyən vaxtadək uzadılmasını və bu vaxt kəsiminin daha çox düşmənə işlədiyini "Vaxtsa gedir, vaxt gözləmir // Sükut da bir xoş vəd vermir // Vaxt çoxdan bizə işləmir // Vaxt düşmənin tərəfində" tipli misralarda ürəkyanğısı ilə xatırladır məmləkət başbilənlərinə SƏNin lirik qəhrəmanın.

"MƏMLƏKƏTƏ ULDUZ YAĞIŞI YAĞIR" şeirində etirazlanır əsirlikdə inildəyən torpaqlardan bir qarış belə qaytarmayan, fəqət fəxr-fəxarətlə, yekə-yekə ulduzlu paqon gəzdirən kabinet-mətbəx səviyyəli generallara SƏNin lirik qəhrəmanın, əziz dostum! "Növbəti ulduzları düzməklə məşğuldur // Məğlub ordunun generalları // Döyüş uğurları var, bəlkə? // Bundan qürur duyurmu// Çadırlı, qızları qara çadralı ölkə?!".

"KÖLƏ ADAMLAR" şeirində ağrıdır, sinirləndirir lirik qəhrəmanı qul-kölə xislətlilər, nökər-lakey əxlaqlılar. Qorxu-təhlükə bilir onları cəmiyyətə lirik qəhrəmanın və o, bu qənaətdədir: qul və kölələr öz bətnlərində gəzdirir öz müstəbidini, öz diktatorunu. Məzlum və susqunların törəməsidir zalımlar və zülmkarlar. Qulların və kölələrin içlərində nə qədər ki, göl durğunluğu yaşayır, daxillərində nə qədər ki, dəli küləklər əsmir, bir o qədər VAR olacaq diktatorlar və müstəbidlər. Qullar və kölələr ölən kimi öləcək müstəbidlər də, despotlar da, zalımlar da! Diktatorların ömrü məzlumların ömrü qədərdir: "Kölə mühitində tiran doğulur // Təməlində durur müti adamlar".

"DAYAQ" şeirində daha bir keyfiyyətli yaddaşlar köçürür SƏNin lirik qəhrəmanın: insanlara arxa durmaq, faydalı-gərəkli olmaq! Çox lakonik, lakin ibrətamiz məzmunludur "DAYAQ" şeirin: meyvələrin ağırılığından sınmasın deyə ağaca dayaq-dirək qurur və bu dayaq-dirəklər ağacı sınmaqdan qoruyur. Bu adi lövhəni SƏN, DOSTUM, çox gözəl poetikləşdirir, ictimailəşdirir və ona ictimai-siyasi don geydirirsən. Burada təbliğ edirsən iki fikri, iki ideyanı: a)dəstək-arxadır hökmdara xalqı və milləti; güclüdür, sarsılmazdır hökmdar xalqı və milləti ilə; b) yüksəlişdədir o məmləkət ki, orada hamı bir-birinə arxa-dayaqdır. Hər iki ideyanı metaforalarla, rəmzlərlə əyaniləşdirir, insanları hər

iki ideyanın gerçəkliyinə, zəruriliyinə inandırırsan. Şeirdəki “barlı ağac” – məmləkətin; “dirək-dayaqlar” – xalqın; “böyük insanlar” – hökmdarın simvolu, rəmzidir. Bu simvollarla demək istəyirsən ki, dirək-dayaqlar (xalq) həm də ağaca (məmləkətə), həm böyük insanlara (hökmdarlara), həm də öz-özünə dayaq-arxadır: “Deyirəm, kaş adamlar da belə yetəydilər böyük insanların karına //Bir-biri üçün dönəydilər dirəyə// Verəydilər kürək-kürəyə”.

Ədəbi prosesin içindədir, həssaslıqla izləyir bu prosesi SƏNin lirik qəhrəmanın. Təəssüflənir ədəbi hadisəyə çevrilməyən bədii əsərlərin yoxluğuna, saxta, süni sənət maklerlərinin həqiqi sənətkarları üstələməsinə, kölgədə qoymasına, ədəbi oğurluğun vüsət almasına, bəzi üzdəniraq tənqidçilərin xalturaçılığa və məddahçılığa yuvarlanmasına, bu və ya digər avtoritetin ala-babat əsərlərinə “resenziya sığalı” çəkməsinə (Yaşar Qarayev), həmin əsərləri ədəbiyyatımızın “şedevri” adlandırmasına və s. “BİR TƏNQİDÇİNİN, ƏSLİNDƏ TƏRİFÇİNİN BALLADASI, “KARVANBAŞI VƏ NAŞI TƏNQİDÇİ”, “PLAGİAT NİYƏ ŞAİR OLUR Kİ” ... tipli şeirlərdə qarşılaşırıq SƏNin lirik qəhrəmanının ədəbiyyat tənqidçiləri ilə bağlı fikir və düşüncələri ilə, qənaət və mülahizələri ilə: “Tənqidçi sənətçün karvanbaşıdır // Başçıyla karvana bir xətər gəlməz // Sənət karvanını karvanbaşıtək // Naşı tənqidçilər apara bilməz”. “Kimə gərək qərəzli tənqidçi // Umacaq mərəzli tənqidçi // Abır-həya deyilən şeyi almır vecinə // Bir balaca cib xərcinə // Dürr tökülür ağzından”.

SƏNin lirik “MƏN”in eşq heyranlığını və sevgi aldanışlarını, məhəbbətin iztirab və sevinclərini “GÖZƏLLİK”, “SEVGİSİZ KEÇƏN GÜN”, “CÜT QARALTI”, “SEVİRƏM”, “SƏN” və s. şeirlərdə izhar edir bizlərə. Bu izhar o qədər səmimi, o qədər ürəkdəngəlmədir ki, biz qəl-

bən inanırıq bu sevdalı gəncin duyğusallığına, gözəllik vurğunluğuna, təmizlik və paklığına. İnanırıq umacağı, gözləntisi yoxdur nə sevdiyi qadından, nə də vurğun kəsildiyi qızdan – dözüm və səbatdan, vəfadarlıq və fədakarlıqdan başqa! Bu gənc "Nə bilim bəxtimə yazılan eşqdən // Başım min bəlalar çəkəsi imiş" giley-güzarında necə səmimidirsə, "Mən səni dəlicəsinə sevmək zorundayam // İndi özümdən çox ruhumun hayındayam" etirafında da bir o qədər inamlı və inandırıcıdır.

Dostum! Maraqlı, məzmunlu, yaddaqalan epizod və ştrixlərlə zəngindir kitabdakı "ƏLVİDA, KİRLİ RUSİYA" və "VADİM" poemaların. Birinci poeman epik-lirik mahiyyətlidir və burada rus şairi M.Y.Lermontovun faciəli həyatını əks edibsən. "Vadim" isə poema-elegiyadır, dünyasını vaxtsız dəyişmiş qardaşın Elxan barədədir. XVI kiçik bölmədən ibarətdir bu poema. Bölmələrdə fərdi hiss-həyəcanlarını, şəxsi iztirab düşüncələrini ifadə edirsən. Bəzi bölmələrdə şəxsi iztirabların fonunda həyat-ölüm, nikbinlik-bədbinlik, ölməzlik-fanilik, etibarsızlıq-fədakarlıq motivlərini önə çəkir, qardaş ölümündən doğan yaşantılarını xüsusidən çıxarıb ümumiləşdirirsən.

Əzizim Elşad! SƏN bu gün də - ömrünün 56 yaşında da söz karvanının sarvanısan. Addımlayırsan SABAHlara, GƏLƏCƏKlərə ruhunda, canında SÖZ çınqısı, SÖZ qığılcımları. Qurumur, susmur ilham bulaqların, söz irmaqların. Yazır-yaradır, misralara köçürürsən elin sevincini də, kədərini də!

İnanıram DOSTum, ALLAHın SƏNə ayırdığı ömür möhlətini yenə də SÖZə inana-inana SÖZün işığında əridəcək, yeni-yeni SÖZ abidələri ilə oxucularını sevindirəcəksən. Elə yazar, elə yaradarsan ki, oxucular misra və beytlərində SƏNi tanıyacaq və fəxrlə deyəcəklər:

Yaş əllini ötsə də,təbi çox şeyə qadir,
Yaş əllini ötsə də ürək sevməyə qadir.
Neçə söz lovğasını sözlə yenməyə qadir,
Bu, Elşad Səfərlidir.

***(Bax: Musa Babayev. "Bu, Elşad Səfərlidir". "Vətəndaş həmrəyliyi" qəz. Bakı, 2013, 7 fevral № 02 (862), s.14)***

**PROFESSOR ŞAHİN FAZİL:** "Bu, Elşad Səfərli olmayıb da kim olacaq ki? Hər kəs özü özünü çox yaxşı tanıyır. Elşad Səfərli də. Ola bilsin ki, kimsə onu bir qədər təkəbbürlü, bir az özündən razı adam kimi tanıyır. Amma bu, qətiyyən belə deyil, çünki bu, Elşad Səfərlidir və onu mən yaxşı tanıyıram. O qədər söhbətləşmişik ki. O qədər şeir oxumuşuq ki, bir-birimizə.

Doğrudur, əvvəllər Elşad indikindən daha çox təvazökardı, amma sonra gördü ki, quru-quru təvazökarlıqdan kar aşmaz. Daha sonra yazdı ki:

Yetər, təvazökarlıq
öz qədərincə olar,
Ücbatından küt gedib
nə qədər xoş arzular...

Bəli, Elşad Səfərli "küt gedən xoş arzularının ucbatından" bildi ki, doğrudan da, zaman təvazökarlıq zamanı, dövran təvazökarlıq dövranı deyil. Gördü ki, əgər səni görmürlərsə, özün-özünü görməlisən, özü də yaxşı görməlisən özünü. Və Elşad özünə nəzər, yeni baxışla baxdı və özünü yenidən gördü:

Yetər təvazökarlıq,
kimdən pis yazdım görən?
Niyə öz söz "Mən"imdən
qürurla deməyim mən?.."

Əlbəttə, həyat mübarizədir, əgər mübariz olmasan və özündəki mübarizliyi zahirə çıxarmasan, görməyəcəklər səni, tanımayacaqlar səni, duymayacaqlar səni, səni ancaq sən görəcəksən və belə deyəcəksən:

Hələ qiymətini almayıb şerim,
Ləl sözümü alan ləl vermir mənə.
Əlimdən ruzumu qapanlar belə,
Çətinə düşəndə əl vermir mənə.

Bağlanıb sənətə bəslədim hörmət,
Dedim: o ömrümə verəcək zinət.
Paxılı, xaini çoxalan sənət,
Hələ ki dərd verir, gül vermir mənə.

Qeyd olunmalıdır ki, Elşad Səfərli bir neçə şeir kitabının, həmçinin iki monoqrafiyanın, bir dərs vəsaitinin, neçə metodik vəsaitin, tədris proqramlarının, qırxdan çox elmi məqalənin müəllifidir. Filologiya üzrə fəlsəfə doktoru, dosent olan bu məhsuldar alim Lənkəran Dövlət Universitetində mühazirələr oxuyur, seminarlar aparır. O, istər poeziyada, istərsə də elmdə öz sözünü deməyə çalışmış və demişdir də. Elşadın əsərlərini oxuduqca, artıq çoxdan püxtələşmiş bir şair-alim görürsən. Şair-alim, yoxsa alim-şair? Fərqi yoxdur. Elşad hər iki adla yaxşı tanınan istedad sahibidir.

Elşad Səfərlinin hələlik sonuncu yaşıl cildli “Bu, Elşad Səfərlidir” adlı kitabında 6 bölmə vardır: “Gizli axan bulaq”, “Hər şey sonra olacaq”, “Gərmətük balladası”, “Yalnız sevgi”, “Mən Petrarka deyiləm”, bir də “Poemalar”. Kitabdakı “Ön söz əvəzi” “Ruh gücündən doğan istedad” yazıçı-publisist, ədəbiyyatşünas, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Allahverdi Eminov, “Bölgədə yaşayan ölkə şairi” adlı “Son söz əvəzi” isə şair-publisist, Beynəlxalq Türksoy, Qaracaoğlan və “Qızıl qələm” ədəbi mükafatlarının laureatı Ağacəfər Həsənli tərəfindən yazılmışdır. Kifayət qədər yaxşı tanınan iki imza. Hər iki müəllifin Elşada verdikləri yüksək qiymət. Allahverdi Eminov sözünün sonunda Elşadda təzahür edən istedadın ruh gücündən yarandığını bir daha vurğulayaraq bir filosofun fikri ilə öz sözünü tamamlayır: “Mən nə deyərdim? Elşad Səfərli cəsarətli, yaradıcı adamdır, inanmıram bu keyfiyyət onu tərk eləsin, çünki bu, onun varlığındadır. Necə ki, filosof S.Endlirin sözləri ilə yazıma nöqtə qoyuram: “Cəsarət qol gücündən deyil, ruh gücündən yaranır”. Ağacəfər Həsənli isə kitabın “son sözü”nün əvvəlində iftixar hissi ilə yazır: “Vaxtilə Lənkəranda yaşayan, burada yazıb-yaradan Şəkər Aslana Xalq şairi Məmməd Araz üzünü tutub demişdi: “Sən bölgə şairi deyilsən, ölkə şairisən”. Elşad tərəddüd etmədən neçə il öncə Bakıda işini-gücünü atdı, Lənkəran Dövlət Universitetində pedaqoji fəaliyyətə başladı, filologiya üzrə fəlsəfə doktoru oldu,bir müddət paytaxtın xiffətini çəksə də, bədii yaradıcılığından qalmadı, dəyərli elmi məqalələrlə yanaşı, özünəməxsus ciddi poetik axtarışlar aparıb, yaxşı şeirlər, poemalar yazdı və bir daha təsdiqlədi ki, bölgəyə həqarətlə baxmaq düz münasibət deyil, Məmməd Araz demişkən: “Bölgədən də ölkə şairi çıxa bilər”.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Bəli, Elşad Səfərli bölgədən çıxdı və Musa Yaqub, Məstan Əliyev, Şəkər Aslan, Adil Qasımov, Məzahir Hüseynzadə, Vaqif Hüseynov kimi ölkə şairlərindən biri oldu, öz sözünü deməyi bacardı, imzasını oxuculara yaxşı tanıda bildi, elə özü demişkən "söz bazarçısı" olmadı, bəzi özündən razı təzə imza müəllifləri kimi "meydan sulamadı":

Bazarın mübarək, söz bazarçısı,
Yaman aludəsən öz bazarına.
İndi ki, şeirə ucuzluq düşüb,
Matahını çıxart  tez bazarına.

Yoxsa, söz uğrunda bir rəqabət var,
"Meydan sulamada" təzə imzalar,
Kitab bağlayırsan sən də tezbazar,
Varam cəldliyinə, tezbazarına...

İmza var, şeirdə heç öz sözü yox,
İmza var, məddahlıq pozub – üzü yox,
Kiminsə sözünün qəti duzu yox,
Tutub göndərəsən duz bazarına.

Tənqidçilərdən yanğılıdır Elşad. Onları tənqid alovunda qarşılayır Elşad. Təbii ki, mövqesiz tənqidçiləri. Şair, yaxud nasir ola bilməyən və əlacsızlıqdan şairi də, nasiri də tənqid oxuna tuşlayan bəzi tənqidçilər Elşadın qaynar güllə hədəfləridir. Elə mən də bir vaxt 1989-cu ildə çap olunmuş "Yenə görüşərik" adlı kitabımın "Suallar" adlı şeirində demişdim:

Görəsən, ilk əğyar haçan doğulub,
Saf eşqi bürüyüb nə vaxt duman, çən?

Qədim dövrlərdə şair çox olub,
Bəs tənqidçi necə, olubmu görən?

Hazırkı dövrümüzdə "təmənnalı" tənqidçilərin sayı get-gedə çoxalır, amma Nizamidən bu yana, lap XIX yüzilliyədək ədəbi mühitimizdə tənqidçi görməmişəm, tənqid kitablarına təsadüf etməmişəm. "Mənim Belinskim", "Bir tənqidçinin, əslində tərifçinin balladası", "Dünənin şeir oğrusu", "Bir vaxt tənqid deyilənə", "Karvanbaşı və naşı tənqidçi", "Yorğan sırıyan qadın və tənqidçi haqqında ballada" adlı tam silsilə təşkil edən bu və adlarını çəkmədiyimiz digər şeirlər Elşadın şair və nasirlərdən mənafe güdən və məddahlıq edən tənqidçilərə münasibətini özündə əks etdirir və şair üzünü onlara tutub belə deyir:

Puşkini tanıdan Belinski oldu,
Bu bir həqiqətdir– bilməyən kimdir?
Mənim Belinskiyə ehtiyacım yox,
Mənim Belinskim – öz şeirimdir.

Şair Elşad Səfərli şeir yazmaqdan ötrü bəzi şaircığazlar kimi gecə-gündüz rədif-qafiyə axtarışına düşmür, mövzu tapmaqdan ötrü onun-bunun kitabını ələk-vələk etmir, söz oğurluğuna girişmir. Qısaca desək, Elşad mövzunu yox, mövzu Elşadı tapır. "Qısaboylu armud kolundan bitən cır armud" da, "Yorğan sırıyan qadının yorğan-döşəyə yun yerinə pambıq sırıması" da, "Modernist şeir oğruları" da, "Ağlayan timsaha oxşayan balta" da, "Vəzifə daşı olub başa dəyən" əlhət daşı da, "Ələ baxan tulalar" da, "Baramadan çıxan kəpənək" də Elşadın mövzu obyektləridir. "Barama qurdu" bu günlərdə elə mənim özümün də mövzularımdan biri oldu və cəmi-cümlətanı dörd misradan ibarət bir "poema" adlandırdığım şeir yazdım:

Tut yarpağıydı yurdu,
Qurd qəbir toxuyurdu...
Öz ipək kəfənində
Öldü barama qurdu.

Bir neçə kəlmə də başqa şairlərin heç toxunmadıqları, bəzilərininsə ara-sıra "xala-xətrin qalmasın" deyərək yada saldıqları sonet və hayku(xokku) janrları və Elşadın onlara münasibəti haqqında. XX əsrin ortalarında sonet yazan şairlərimiz vardı. Əsrin sonlarında hayku yazanlar da oldu. Əlbəttə, belə halı yalnız alqışlamaq olar. Nə olsun ki, sonet Avropada, hayku Uzaq Şərqdə - Yaponiyada yaranıb. Vaxtilə qəzəl də Ərəbistanda meydana çıxmışdı, lakin uzun əsrlərdir ki, qəzəl janrımız mövcuddur və bu gün də onun parlaq nümunələri yazılmaqdadır. Sonet və hayku janrları da eləcə. Şairlərimiz sonet də yazırlar, hayku da. Lakin bu gün həmin janrlara "mən də sonet və hayku yaza bilirəm" iddiası ilə girişən "üzdəniraq" qələm sahibləri ortaya çıxmaqdadır. Lakin onların nə soneti sonetdir, nə də haykuları hayku. Bizim Elşad da bu iki şeir növünə meyil edən şairlərdəndir. Amma onu başqaları ilə qətiyyən müqayisə etmək olmaz. Elşad predmeti bilmədən, sonet və haykunun mahiyyətini dərk etmədən qələmə əl atanlardan deyil. Elşad Şekspiri də, Petrarkanı da, Müşfiqi də düşünə-düşünə oxuyan və müvafiq şeirlərini yazanlardandır. O, hazırda sonetlə bağlı doktorluq dissertasiyası üzərindəki işini davam etdirir. Öz sonetlərinin birində "Mən Petrarka deyiləm, heç ola da bilmərəm" misrasını yazan Elşad həmin şeirin sonunda "Azərbaycan Petrarkası olmaq niyyətini (iddiasını!)" belə ifadə edir:

Təkcə Lauram çatmır, di gəl ki öz Sevdam var,
Bu sevdadan bitişər sinəmdə lap min yaram.
Barı kamala yetən sevgimdən qoy alım kam.

Sənətdə yer uğrunda mənim də iddiam var,
Bundan ilhamlanaram, min yol qürur duyaram,
Azərbaycan şerinin Petrarkası sayılsam.

Ümumiyyətlə, sonet yaradıcılığını unutmayan Elşad son vaxtlarda hayku janrını, demək olar ki, yaddan çıxarmışdır. Əvvəllər isə o, bu şeir növündə uğurlu nümunələr yaratmışdır:

Göyün sinəsinə
Kimsə əl atıb,
Dırnaq yeri qalıb.

Yaxşı deyib, vallah! Diqqət yetirin: Göyün sinəsində yenicə doğmuş ayın dırnağa bənzər görüntüsü!

"Bu, Elşad Səfərlidir" kitabının 90 səhifəsini əhatə edən böyük bölməsində iki poema var. Şair birinci poemasını böyük rus şairi Mixail Lermontova, ikincisini isə mərhum qardaşı Elxana həsr etmişdir. Mixail - Yuri Petroviç Lermontovun oğlu, Elxan isə Elşad Səfərlinin qardaşıdır, Vadimin atasıdır. Hər iki itki şairin ağrısıdır, istər rus olsun, istərsə də azərbaycanlı. Vaxtsız-vədəsiz gələn itki. Əlbəttə, itkilər çoxdur, amma hər itkiyə şeir yazılmaz. İtki şeirini yazmaq üçün sarsılasan gərək, ağlayasan gərək və gücün, əgər şairsənsə, gərək qələmə çata. Qələm də ki, sənə bağlıdır, sənin istəyindən, sözündən asılıdır. Lap elə Elşadın qələmi kimi. Bəli, Elşad iki itkiyə iki poema yazdı: Yuri Petroviçin oğul itkisinə, özünün qardaş itkisinə...

Elşad Səfərli qızğın mütaliəçidir, yorulmadan oxuyur. Oxuyur və oxuduğu kitab yazarlarını dönə-dönə xatırlayır və onların adlarını bir-bir şeirlərində sadalayır, misralarına gətirir. Gətirir və qazanır, şeir qazanır. İtirməyə nə var ki? Elşadın bu kitabında kimlər xatırlanmır? Dante, Petrarka,

Şekspir, Cani Rodari, Puşkin, Lermontov, Belinski, Pasternak, Svetayeva, Yevtuşenko, Nəsimi, Xətai, Sabir, Mirzə Cəlil, Aşıq Qurbani, şair Abdulla bəy Asi, Dəxil, Qumri, Raci, xan qızı Ağabəyim ağa, Tofiq Fikrət, Ələkbər Müşiri Səlimi, alimlər: Məmməd Cəfər, Məmməd Arif, Nazim Hikmət, Xəlil Rza Ulutürk, Rəsul Rza, Əli Kərim, Vaqif İbrahim, Hüseyn Arif, Şəkər Aslan, Məmməd Aslan, Vaqif Səmədoğlu, Vaqif Yusifli, Ramiz Rövşən, Salam Sarvan, Qardaşxan Fərzi, Hüseyn Həşimli, Ağacəfər Həsənli, Məzahir Hüseynzadə, Allahverdi Eminov, Rübail Allahverdiyev, Şəddat Cəfərov, Şahin Fazil və s. müəlliflər.

Mən hələlik bu kiçik məqaləmlə kifayətlənirəm. Elşadın bu kitabı haqqında kitab yazmaq olar. Uğurlu şeirlər toplusudur bu kitab. Daim axtarışdadır Elşad. Axtarır və tapır. Söz tapır, fikir tapır, mövzu tapır Elşad. Əziz oxucu, bir şeirə diqqət yetir. Hal-hazırda bu real aləm və dünyada yaşayan, yaradan Elşad o biri dünyanı da xatırlayır və xatırladır, “Bizim o dünyalıq ağrımız da var” adlı şeirini ərsəyə gətirir ki, məzmunu belədir: Şair bir gecə yuxuda anasını görür. Ana onu səsləyib deyir: “Məzarda yatmaqdan belim ağrıyır, oğul, məni gəl, ayağa qaldır”. Elşad oyanır və mərhum anasına bir şeir yazır:

Can ana!
Məni səsləmisən, mən sənə qurban.
Axır mənzilində yatmaqdan bezib,
Məzarda ağrıyan belinə qurban...

Gorda da rahatlıq yoxmuş, eləmi?
Sözün bu sirri də mənə anladar:
Belin ağrıyırsa, demək, qabaqda
Bizim o dünyalıq ağrımız da var”.

Necə də kövrək, səmimi, təsirli misralar, dəyərli misralar. Elşad şeirlərinin dəyərini bilən şairdir. Elə buna görə də ruhdan düşmür və yazır. Yazır və bilir ki, dəyəri haçansa bilinəcək, lazımi qədər qiymətləndiriləcək. Yazır və bədbinliyə qapılmadan deyir:

Paxıl var istəmir görünsün yerim,
Üzə çıxmağa da qoymur boy verim.
Min düşmənim olsa, gün gələr şerim
Qiymətini alar öz dəyərində.

Mən də sənin kimi düşünürəm, Elşad. Dəyərin bilinəcək! “Bu, Elşad Səfərlidir” kitabını oxuyub eyni adda şeir yazası oldum. Mən bu şeirimlə Elşadın kitabının qiymətini, elə özünün dediyi kimi, “öz dəyərində” verməyə çalışmışam:

Dəyişilməz qalıbdır
əzəldən indiyəcən,
Doğmasıdır Lənkəran,
əzizidir Daşkəsən.
Bakı da ona vətən,
Şəki də ona vətən,
Şahdağlı, Savalanlı,
Arazlı, Xəzərlidir,
Bu, Elşad Səfərlidir.

Dolanır müəllimtək,
sərvətlə məst olmayır,
Çox əsər yazıbsa da,
şöhrətlə məst olmayır.
Vurğunsa da yerinə
yerlipərəst olmayır,

Qubalı, Dərbəndlidir,
Qaxlı, Kəlbəcərlidir,
Bu, Elşad Səfərlidir.

Şeirlərinin çoxu
bütöv vətən haqdadır,
Hərdən də sevgi haqda,
gül və çəmən haqdadır.
Hayku da yazmaqdadır,
sonet də yazmaqdadır,
Şeirdə hünərlidir,
elmdə dəyərlidir,
Bu, Elşad Səfərlidir.

Yaxşı deyir yaxşıya,
pisdir pislərə qarşı,
Mətinliklə cəng edir
çox xəbislərə qarşı.
Təmizlikdən dəm vuran
natəmizlərə qarşı
Qapısı qıfıllıdır,
ürəyi çəpərlidir,
Bu, Elşad Səfərlidir.

Zəhmətiylə çevirir
gecəsini gündüzə,
Yamsılamır hec kəsi,
fikirləri təptəzə.
Kirpiyini qırpmadan
sözü şax deyir üzə,
Sınar, amma əyilməz,
ürəkli, təpərlidir,
Bu, Elşad Səfərlidir.

Həmişə uyğun gəlir
meyli ilə imkanı,
Yazıb-pozur, yaradır,
boşa vermir bir anı.
Mən belə tanıyıram
bu möhtərəm insanı,
Çox bəla çəkib... Başı
qəzavü-qədərlidir,
Bu, Elşad Səfərlidir.

Özünə müdrik demir
müdrik yaşa dolsa da,
Şadyanalıq eləmir
arabir şad olsa da.
Adına uymasınlar,
adı Elşad olsa da,
Daim fikir-xəyallı,
Şahintək kədərlidir,
Bu, Elşad Səfərlidir,
Bu, Elşad Səfərlidir!!!"

***(Bax: Şahin Fazil. Bu, Elşad Səfərlidir. Resenziya, "Palitra" qəz., Bakı, 2013, 25 aprel, №72 (1926), s.12.)***

**ƏBÜLFƏZ NAXÇIVANLI:** "Sözün az qala urvatdan düşdüyü, sənətin öz meyarını itirdiyi, vəzifə sahibindən tutmuş bazar alverçisinə qədər hamının şeir adıyla yazdığı cızma-qaranı oxucuya sırımağa çalışdığı indiki zamanda əlinə oxunaqlı bir kitab düşəndə sevinməyə bilmirsən. Xüsusilə də belə bir kitab uzun illər gözünün qarşısında kəlməkəlmə, misra-misra, şeir-şeir böyüyüb boy atan şairin kitabı olanda.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Ötən ilin son günlərində "Gənclik" nəşriyyatının çapdan buraxdığı "Bu, Elşad Səfərlidir" kitabını hələ vərəqləməmiş düşünürdüm ki, görəsən neçə müddətdir ki, görmədiyim, son illərdə mətbuat səhifələrində şeirlərinə rast gəlmədiyim, lakin hələ ilk gənclik illərində yaradıcılığına yaxından bələd olduğum qələm dostumun bu kitabı necə alınıb?

Kitab pedaqoq-alim, tənqidçi Allahverdi Eminovun ətraflı ön sözü ilə açılır. A.Eminov da Elşadın yaradıcılığına yaxşı bələd olduğundandır ki, haqlı olaraq yazır: "Elşad Səfərlinin poeziyası ona görə təmizdir ki, onun üçün şeir və sənət məfhumları bir-birini tamamlayır, çünki o, istedadına inanır və cəsarətlənir. Şairdə bu sonuncu yoxsa o istədiyinə nail ola bilməz!"

Elşad Səfərli ötən əsrin səksəninci illərində ədəbiyyata gəlib. Elə buradaca cəsarətlə qeyd etmək istəyirəm ki, o, ədəbi aləmə "Zənbillə" düşməyib. Zəhmətkeş ailədə böyümüş, hələ çox kiçik yaşlarından zəhmətin nə olduğunu yaxşı bilən bu istedad sahibi poeziyanın daşlı-kəsəkli yollarında, əlçatmaz zirvələrə aparan sərt sıldırımlarda, necə deyərlər, dizlərini qanadıb. Zəhmətin nə demək olduğunu yaxşı dərk etdiyindəndir ki, ucuz şöhrətə can atanları, çox zaman olmadıqları mərtəbəyə maneəsiz yüksələnləri "Gizli axan bulaq" şeirində belə səciyyələndirir:

Pasternak demişkən yaxşı hal deyil,
Layiq olmadığın adlar alasan.
Sənətlik bir işin olmasın, amma
Hamının ağzında əzbər olasan.

Adı dilə düşmək istedad deyil,
Sənətdə qalmaq da deyildir hələ.
Dildə lətifəyə dönməyin özü
Şöhrətli olmaq da deyildir hələ.

Uzaq tələbəlik illərində Elşadın bir şeiri var idi: “Pəncərədən daş gəlir” və mən bu şeiri çox xoşlayırdım, fürsət düşdükcə oxutdururdum ona. Elə o vaxtdan da qələm dostumun lirikasının vurğunuyam, çünki həmin şeirlərdə “ritm, ahəng və ləngər üçlüyü” bir-birini tamamlayır (A.Eminov).

Məni quşlar oldu ilk qarşılayan,
Sevinc çağlayırdı səs-sədasında.

Çinarlar da məni salamladılar,
Əzəli farağat komandasında.
*“Kəndə qayıtmışdım”*

Yeri gəlmişkən onu da qeyd etmək istərdim ki, bəzi yaradıcı gənclər iki-üç şeiri işıq üzü görən kimi şəhərə can atırlar. Lakin Elşad Səfərlinin Bakıda evi, işi ola-ola (“Maarif” nəşriyyatında böyük bir redaksiyanın müdiri idi) doğulub boya-başa çatdığı Lənkərana qayıtdı. Artıq iyirmi il olar ki, o, Dövlət Universitetində çalışır, burada filologiya üzrə fəlsəfə doktorudur.

Deyirlər ki, balıq dəryada böyüyər. Axı elə balıq növləri var ki, məsələn, kilkə, o heç dəryada da böyümür. Və ya çox vaxt dəryada böyümək istəyən balıqları köpək balıqları elə udur ki...

E.Səfərlinin kitabında bəzi üzdəniraq (bilərəkdən adını çəkmirəm) tənqidçilərə də şeirlər həsr olunub. Oxuyan kimi hiss edirsən ki, Elşad da mənim kimi belələrinin əlindən yanıqlıdır. Vaxtilə bədii yaradıcılığa meyil göstərən, müvəffəq olmayanda qələmini tənqid səmtə yönəldərək “anam mənə kor deyib” istedadları danan belə tənqidçilərin əməlləri əslində şeir mövzusu deyil. Belələrinə elə tənqidi yazılarla cavab vermək lazımdır, özü də adıyla yerli-yataqlı.

İstedadlı qələm dostumuz Ağacəfər Həsənlinin “Ədalət” qəzetinin 10 may 2011-ci il tarixli nömrəsində Elşad Səfərliyə həsr elədiyi “Bölgədə yaşayan ölkə şairi” yazısı kitabda “son söz” əvəzi verilmişdir. Həmin yazı bu cüm-

lələrlə bitir: “Mən bu kiçik qeydlərimdən sonra üzümü Lənkəranda yaşayan şair dostuma tutub deyirəm: Başını uca tutub şeirini yaz, bölgədə və ya paytaxtda yaşamaq şərt deyil. Əsas şərt nə yazmağında və hasilə gətirməyinin məzmunundadır”.

Elə buradaca görkəmli xalq şairi Hüseyn Arifin “Paya” şeirini xatırladım. Şeir tam yadımda qalmasa da məzmunu belədir: Bir ağacdan budaq kəsib çəpərin ömrünü uzatmaq üçün paya kimi ora sancırlar. Həmin paya torpağa rişə atıb get-gedə böyüyür və əksinə, çəpəri içəridən dağıdır. Şeir bu misralarla bitir:

Nəhayət, içindən pozdu çəpəri,
Onun qollarını bağlamaq olmaz.
Ağactək böyümək istəyənləri
Payatək çəpərdə saxlamaq olmaz.

Bu, doğrudan da belədir. İstedadı nə qədər dansan da, yolunu kəssən də o mütləq üzə çıxacaqdır.

Qələm dostum Avropa mənşəli şeir şəkillərindən də bacarıqla istifadə edərək maraqlı əsərlər ortaya qoyur. Bu baxımdan onun qələmindən çıxan sonetlər olduqca oxunaqlıdır. Kitabın “Mən Petrarka deyiləm” bölməsində toplanan sonetlər diqqəti cəlb edir.

Elə buradaca onu qeyd etmək istərdim ki, Elşad “Sonet janrı və Azərbaycan soneti” mövzusunda yazdığı doktorluq işini də artıq tamamlamışdır. Əminik ki, o, doktorluq dissertasiyasını da uğurla müdafiə edəcəkdir.

Kitaba həmçinin E.Səfərlinin “Əlvida, kirli Rusiya” və “Vadim” poemaları da daxil edilmişdir. Hər iki poema epik səpkidə qələmə alınmışdır.

Böyük rus şairi, həyatı keşməkeşlərlə dolu olan M.Y.Lermontovun “poetik portretinə yeni cizgilər əlavə edən” “Əlvida, kirli Rusiya” poeması Elşadın yaradıcılıq imkanlarının genişliyini bir daha bütün parlaqlığı ilə üzə çıxarmışdır.

İmperialist bir dövlətin tənəzzülə uğradığı bir dövrdə yaşayan, gənc yaşlarından ədalətsizliklərə dözməyərək, mübarizəyə atılan, ömrünün çiçəklənən dövrləri sürgünlərdə keçən və nəhayət dahi rus şairi A.S.Puşkin kimi dueldə həlak olan M.Y.Lermontovun poetik portretini öz imkanı daxilində yarada bilmişdir.

Poema barədə fikrini bildirən A.Həsənli yazır: "Əlvida, kirli Rusiya" çağdaş Azərbaycan şairinin qələmindən çıxıb və şübhəsiz, müasir təlatümlü dövrümüzün ab-havası da poemada öz əksini tapıb.

...Şair göstərir ki, hər bir əvvəlin sonu olduğu kimi, sovet imperiyasının da sonu çatdı. Ancaq Puşkinin, Lermontovun azadlıq odaları ölmədi.

Poemanın orijinal cəhətlərindən biri də budur ki, E.Səfərli Lermontovun əsərlərindən hər fəslə uyğun epiqraf vermişdir. Ancaq qələm dostuma xatırlatmaq istəyirəm ki, rus dilində olan bu nümunələrin ana dilimizdə variantları da verilsəydi yaxşı olardı. M.Y.Lermontov Azərbaycan dilinə kifayət qədər tərcümə olunmuş şairlərdəndir.

Kitabdakı ikinci poemanı – "Vadim"i Elşad Səfərli həyatdan vaxtsız köçmüş kiçik qardaşı Elxanın xatirəsinə həsr etmişdir. Əsəri oxuduqca qardaş itkisinə yanıb-yaxılan bir şairin keçirdiyi ağrıları çox aydın hiss edirsən, müəllifin ağrı-acılarına şərik olursan:

...Gördüm kiçik qardaşı
Otaqda can vermədə,
Gördüm şirin canını
Dərdə qurban vermədə...

Dünya bu dəm başıma
Fırlanmasın neyləsin!
Yandı bağrımın başı,
Bəs yanmasın, neyləsin!

Poemada XIX əsrin məşhur mərsiyəxan şairləri Qümrinin, Racinin xatırlanması, Abdulla bəy Asinin yada salınması da yerinə düşür.

"Vadim"in maraqlı cəhətlərindən biri də şairin orada öz doğma talış dilində oxşamalar verməsidir.

Yazının əvvəlində qeyd etdiyim kimi, Elşad Səfərli uzun illər gözlərim önündə kəlmə-kəlmə, misra-misra böyüyən, şeir-şeir boy atan şairlərdəndir. Bunu onun qarşımdakı "Bu, Elşad Səfərlidir" adlı kitabı da təsdiq edir. Ancaq qələm dostuma bir iradım var: bundan sonra kitabına belə ad qoymasın. Necə yəni "Bu, Elşad Səfərlidir"? Birincisi, bu ad qeyri-təvazökarlıq doğurur, ikincisi, şeirlər və poemalardan ibarət kitaba belə ad deyil, lirik ad verilsə daha yaxşı olar.

Sonda isə mən inanıram ki, qələm dostum istər şair, istər tədqiqatçı alim kimi bundan sonra da maraqlı əsərlər yaradacaq, adına sadiq qalaraq eli şad edəcək. Elə yazacaq ki, oxuyanlar özü deyəcək: Bu, Elşad Səfərlidir*! (Bax: Əbülfəz Naxçıvanlı. Ağılla hissin vəhdəti. "Bu, Elşad Səfərlidir" kitabına resenziya. "Kredo" qəzeti, Bakı, 2014, 22 mart, №12 (767), s.15).*

Şair Elşad Səfərlinin bədii yaradıcılığı – poeziyası XXI əsrin oxucuları üçün maraq doğurur, görünür, mən yanılmamışam. Bunun əsas mənbəyi onu daima mütaliə etməyim, uğurlarına sevinməyimdir. Elə də uzun olmayan vaxt axarında haqqında məqalələr qələmə almışam, çalışmışam şeirlərindəki poetik tutumu, poetik çevrilmələri və mövzu rəngarəngliyini müəyyən həcmdə təhlil edim, şəxsi zövqümü estetik qanunlarla uyğunlaşdırım. Amma şeir ki var, şıltaq, küsəyən, sözə baxmayan ruhi-dəyərdir, milyardlarla beyinə sığışan hüceyrələrin tufanından yaranır. Bu halətdə şairi seyr etmək onun "gününə ağlamaqdır"! Vallah, fikrimdə mübaliğə yoxdur, çünki ömrümdə bir beytə də yaxın durmamışam, mənlik olmayıb və bu "kəşfi"mi Elşad çox yaxşı bilir! Yenə Allahımdan razıyam ki, Sözü oynatmağın

başqa bir üsulunu mənə əta etdi! Mənim nəsrə və elmə sığınan Sözüm yorulanda ürəyimi poeziyaya tuturam...

Kitabı hazırlayarkən yazdığım məqalələrin bir sözünə belə toxunmadım, ürəkdən gələn o fikirlər ki var – sonra redaktə edəndə inciyir, küsür və intihar edir.

Mən şeirə haqq qazandırıram, eləcə də ədəbi tənqidə. Elşad Səfərlinin poeziyası, desəm ki, gözümün qabağında yaranıbdır, yenə də şişirtmirəm, düşündüyümü oxucularla bölüşürəm. Onun şeir dünyası genişdir, ucadadır, kainatda dolaşandır. Lirik şeirlərdən və poemalardan hörülən bu çələng solmayandır, ürəyindən qopan "qəlpələrdir", ona baları qədər əzizdir. Şairin şerini özü kimi sevən ikinci adam ola bilməz, axı, hər sözün, misranın, bəndin naz-qəmzəsini şairin özü çəkir. Ağlayan uşağı atası, anası kiridir, bağrına basır ki, səsinə ürəyində laylay desin.

Mən əvvəlki fikrimə qayıtmaq istərdim: Allahverdi Eminovla daim yaradıcı ünsiyyət bağlayan, ona "ustadım" deyən Elşad Səfərli onun obrazı oldu. Bəli, obraz yalnız bədii ədəbiyyatın deyil, ədəbiyyatşünaslığın və ədəbi tənqidin də obrazıdır – israrımda dayanıram – müəllifi müəllif nəzərində, müşahidəsində və axtarışında canlandırır, şəxsiyyətini bütövləşdirir və qəhrəmanına çevirir! Mən daha onu gözləmədim ki, Elşad Səfərli söhbətlərimizdə deyir ki, müəllim, ustadım, sizin yaradıcılığınız geniş tədqiqat mövzusudur və mən bu niyyətimi mütləq həyata keçirəcəyəm. İnanıram! Amma, görünür, mən tələsdim: axı o, cavandır məndən. Mən ekvatoru adlamışam; nə bilmək olar, bəri başdan haçandan "planlaşdırdığım" kitabın əl-ayağını yığım!

Bu, həm də mənim bir ədəbiyyatşünas kimi borcum idi...

# Elşad Səfərli yaradıcılığı haqqında yazılan məqalələr

**Birinci məqalə**

## POEZİYAYA BORCLU ŞAİR

Bahara az qalırdı, havaların canından hələ üşüt-mə çıxmamışdı. Redaksiyamız ("Azərbaycan müəllimi" qəzeti nəzərdə tutulur) doqquzuncu mərtəbədə yerləşirdi və oradan Yasamalın havası olduğu kimiydi. Həmişəki təkin bizim şöbəmizin "iş saatı" qurtarmışdı. Əməkdaşımız, o vaxt cavan şair Əbülfəz Naxçıvanlı məni qaraşın, qıvrımsaç, uzunboylu oğlanla tanış etdi: – Elşaddır, Bakı Dövlət Universitetinin tələbəsidir,–dedi.

–Şeir yazır? – Fəhmlə dilləndim və onun baxışlarında, əlinin titrəyişində yaradıcı adamlara məxsus nəsə duydum.

–Xeyr, müəllim, - Elşad utancaqlı səslə astadan dedi və yanımızda qərar tutmadı. Hiss elədim, utanır.

Artıq tanışdıq, doğmalaşmışdı. Və onun qısa, lirik şeirləri görünməyə başladı. Əlbəttə, bu, 80-ci illərdi… iş elə gətirdi ki, mən "Maaarif" dövlət nəşriyyatında məsul vəzifəyə dəyişildim. Yaradıcı mühit "donuq", kitab əlyazmalarını elə "səssiz" işləmək yeri idi. Elşad isə Universitet diplomunu almışdı və az keçmədi birgə əməkdaşlıq etdik. Daha qələmə aldığını gizlətmirdi, çünki o, o illərin tanınmış şairləri Ağamalı Sadiq, Hafiz Rüstəm, Qiyas Əcaib (Vəkilov), Əlislam Bilal, Ədalət Əsgəroğlu və Əbülfəz Naxçıvanlı (o da nəşriyyatda işləyirdi) ilə bir mikro ədəbi

mühitdəydi. Yeri gələndə onlardan xahiş edirdim yeni şeirlərini oxusunlar. Və bir gün Elşad bir qovluq əlyazmanı utana-utana mənə verdi. -Oxuyun, fikrinizi bildirin, - acizanə dedi – Ya bu poeziyanın daşını atım, ya da… Üzündə xəfif təbəssüm işartısından qürrələndim ki, ümidsiz deyil cavan şair. Bir də, poeziya elə xəstəlikdir, “sağaldın”, bir daha sənin varlığına üz tutmur. Ona görə də şeirdən küsməzlər, onun nazıyla oynayarlar…

Oxuyub qaytardım. - Ciddi yazırsan. Fikir yükün ağırdır, şeirinki də odur, oxucunu düşündürməyi bacarasan. – Son sözüm oldu və onu əlavə elədim ki: - dilin təmizdir.

Elşad Səfərli az yazmırdı, redaksiyaların qapısını döyənək eləmirdi, abrını qoruyurdu. Nəşriyyatlarımıza da Allah insaf versin, bir barmaq əlyazmanı mərhələlərdən keçirmək üçün, xüsusilə cavan müəlliflər cəhənnəmin qapısından keçirdilər! Sovetlərin bir “tələbkarlığı” da bu idi. Axır, bir gün Elşad Səfərli utancaq görkəmdə bir kitabçanı avtoqrafla mənə verdi və dərhal da uzaqlaşdı. Bu, “Dünya ömür yoludur” şeirlər toplusuydu. İlk və uğurlu debüt: Yazmağa, poeziyanın küsəyən və ciddi intizamına dözməyə dəyərdi. Onun uğurları yalnız öz zəhməti hesabına idi, şeirləri yaranırdı, oxunurdu. İki ildən sonra (1993) “Sözü ürəyində qalan adam”ı işıq üzünə çıxdı. Şeirlərdə Elşadın axtarışları açıqca hiss olunurdu. Obrazlar ənənəvi stixiyasından çıxmışdı, tərənnüm adiliyini “bəyənmirdi”. Mühitə açıq baxışı, poetik cəsarəti vardı; bu şeirlər təkcə qəzet-jurnal səhifələrinin “sənədi”nə çevrilmirdi, ictimai yerlərdə oxucu ünvanını tapırdı və s. Mən şair dostumu zamanın xırda məişət qayğılarının ücbatından bir-iki il “itirdim”, görünmədi. Bakı mühiti istedadlı gənci özündən uzaqlaşdırdı. Doğma Lənkərana yol aldı, oradakı Dövlət Universitetində işlədi. Bu torpaq Xəzərin saf suyunu öpən səhərə baş qoyur. Talış

dağları füsunkar əzəmətiylə yam-yaşıl meşələrə təmiz hava-nəfəs verir. Onu seyr eləmək yaradıcı adamda şeirə qaynarlıq, inam gətirir, yazmaq ovqatını duruldur. Bu yerin-yurdun rəhmətlikləri Şəkər Aslan, Vaqif Hüseynov, Xeyrulla Mehdi, Həbib Səfər (Allah onların ruhunu nurla doldursun) və Mirhafiz Bahadır kimi istedadları var. Bu şairlərlə cavanlığım eyni zamana düşüb. Xatırlayıram 60-cı illərdəki ədəbi mühiti. Belə səhərlərə Elşad Səfərli də göz açmaqdadır, necə ki, "Səhərə tələsən qatar"ı (1996) oxucularına hədiyyə elədi. Son iki kitabından, düzü, xəbər tutmadım. Budur, şair Elşad Səfərlinin təzəcə çapdan çıxmış "Yalnız sevgi" kitabı alim dostum Həsənağa Mirzəyevin vasitəsiylə mənə ünvanlandı. Əlbəttə, isti aftoqrafla. Çox da uzağa düşməyən illər çözələndi yaddaşımda. Demək, insan yaşayırsa, hər bir həqiqətin şahidi olur, öz gözü və duyğusu ilə xatirələrini özü yaşadır. Onun canlı ruhu şahidlik edir. Kitabın adı təsadüfən seçilməmişdir. Poeziyaya istəyin-məhəbbətin çatmırsa... hər kəs öz işiylə məşğul olsa, yaxşıdır. Elə Elşad ilk səhifədə verdiyi şeirində deyir:

Şeir mənimçün
Udduğum havadı,
Aldığım nəfəsdi,
        ilhamdı.
Tanrının qulağıma pıçıldadığı,
        ilahi məqamdı…

Maraqlıdır, müəllifin özünə, poeziyaya ciddiyətindəndir. "Şair, zaman və zindan" rublikasını ön bölməyə çıxarmışdır. Bu bölmədə şeirə-sənətə təsadüfən üz tutanlar, qələminin ünvanını bilməyənlər, şairin dərdiylə bir doğulanlar, hətta plagiatçılıqdan utanmayanlar hədəf seçilir. Bu yanaş-

manın özü məsuliyyətdir, şairin sonrakı taleyinə zəmanətdir. "Şair qələmi", "Kəfənim boynumda yol gedirəm mən", "Dərd şairin gərəyidi", "Şair, zaman və zindan", "Yazıçılar Birliyində" və s. şeirlərində Elşadın bir söz daşıyıcısı və yaşadıcısı kimi keçirdiyi ağrılar zaman ölçüsündən adlayır. Axı, şairlər daima nəfəs aldığı Zamanın və Məkanın hakimi olmuşdur. İnsafən qiymət verən də elə Dövr, onun idarəedici iqtidarıdır. Məncə, "Dövrün ağrılı günündə Səməd Mənsuru andım" da biz bu müxalif yekunun poetik ümumiləşdirməsini görürük:

Ömrü qul tək yaşamazlar,
Ömür dərd daşımaq deyil.
Bu cür ki, biz yaşayırıq,
Vallah, bu yaşamaq deyil.

Elşad Səfərlinin yaradıcılığı az-çox 25 ilin dizini qatlayıbdır. Və bu poetik axtarışın dövrü az da deyil; ona görə ki, poeziya üçün ilk "təhqiqat" var, istedad elə bir-iki şeirdə də səsini çıxardır. Elşadın bu kitabında mən onun poeziyaya işıqlı və qaranlıq, səmimi və kövrək obrazlarla baxışını görürəm. Çünki o, həyatla, bu havanı udan insanlarla qabaq – qənşər durmağı, içərisindəki yaxşını və pisi deməyi bacarır. Bu, şairlər üçün psixoloji duyumun istisnasıdır. "Bir jurnal işçisinə", "Məni qapan itlər", "Tarix", "Epiqonçu", "Başsız atlı", "Sənət paxılları", "Büt" reallığın poetik faktıdır-ifadəsidir. Elə sonuncu şeirdə: "Bir millət ki, acizləşdi, Başda duranı bütləşir", "Bu millətə büt yapan yox, Büt sındıran oğul gərək" misralarında oyanışa çağırış vardır. Fikrin davamı kimi: "Özgə təkrar edib bilik qazanır, Bizsə vərdişləri təkrar edirik, "Az təpik döymüşdük yad ordusunda, qayıdıb gəlmişik çəpik çalmağa" misraları –

azadlıq hissinin hələ ki, mexaniki yönümdə çəpiklərin səsində itdiyi şair ağrısındadır. Şairlərin də bizdən fərqi ondadır ki, ürəklərindən keçir millətin taleyi, vacib deyil şair tribunalarda boy-buxununu ucaltsin. Biz azadlıq yollarında belə sözün qabağına bükülüb ürəyimi xalqıma verərəm, ürəyim, yaşat məni – borcundan çıxım və sair, poetik şüarların şahidinə çevrilmişik. Az sonra (iki-üç il nədir tarix üçün) tribunalardan vəzifə kreslosuna gəldi bir para "azadlıq mücahidləri" və dünənki ürəyinə məxfən pıçıldadı: "sağ ol, ürəyim, acılarımı, yaxşı ki, qəbul eləməmisən, indi istədiyin tərzdə yaşa!". Bu fikrim elə-belə deyil və bu sətirlərin müəllifinin də, Elşadın da başına gəldi "azadlıq fədailərinin" məişət psixologiyası; mənəviyyatsızlıq əxlaqını büruzə verdilər. "Yaşat məni, ürəyim"in müəllifi isə "qəlbində poeziya odu", "inamından üzülmədi", "ağrısından söz üstündə bezmədi" və s.

Hələ mənim tükənməyib eşq odum,
Hələ məndən borcun umur bu yurdum.
Hələ mənim döyüşdədir söz ordum,
Yaşat məni, yaşat məni, ürəyim.

Unutmayaq ki, şeir 1992-ci ildə qələmə alınmışdır. İnsanlıqdır, necə ki, Marks astadan pıçıldamışdı: "İnsan yalnız təfəkkürü ilə deyil, bəlkə bütün hissləri ilə şeylər dünyasında özünün insanlığını təsdiqləyir".

Bu qənaətimi sonra demək istəyirdim, amma yerinə düşdü: Elşad o şeiri yazanda ətrafdakı cılızları (daxilən) görürdüsə, ümidini itirmirdi, ümumiyyətlə, mənim şair dostumda nikbinlik az deyil və hələ birgə çalışdığımız illərdə bəzən ruhdan düşüb söhbətləşirdi mənimlə, haqsızlığa dözəmmirdi. Təsəllisi o olurdu, sənin şair taleyin hələ irə-

lidədi, o qədər sənə hücum edəcəklər! Təmkininə sığın, potensialına arxayın ol. Bizim xislətimizdədir (o vaxt "mentalitet" sözü yoxdu) bu, əzizim. Və həqiqətən, Elşad gözü nurlu, ürəyi təpərli yaradıcılıq sevinclərində öz şair ovqatının qələbəsini nəql eləyirdi. Budur, neçə ilin ayrılığında şair olub-keçənlərə bir bəndlik misraları ilə tutarlı cavab verir:

Diktatorlar yetişir şair qisminə qənim,
Şair başı kəsənə baxıb "əhsən" deyirlər.
Balıq başı yeyənlər, iştah açıb indi də-
Balıq başından ləziz şair başı yeyirlər!

Şirin poetik hissi kövrək notlarsız ötüşmür. Bu, istər-istəməz belədir, bir körpənin acısı da, geniş dünyanın müharibəsi də onun yaradıcılıq əzablarının kərpicləridir. Bir məqam var ki, şairləri də analar dünyaya gətirir, bətnində ilhamla tərtəmiz süd verir, halalıq bağışlayır. Onun üçün də Ana şairlərin şah mövzusudur. Elşad kitabında vaxtsız itirmiş Anasına titrək həyəcanı və səssiz hıçqırtısında kövrək misralar ərməğan etmişdir. Mən Elşadın qəfil (analar illərlə xəstə yatsa da ölümləri vaxtsız – gözlənilməz olur) anasını itirməsinin şahidiyəm. O, həmişə mənimlə görüşəndə - ya işlə, ya ürək söhbəti olsun – səsində ümid, qayğı, inam vardı. Bu dəfə onun qıvrım qara saçları mənə elə gəldi ağarmışdı, gəncliyə məxsus təntənə - ruhu sanki sarsılmışdı. Bircə onu pıçıldadı ki – anam vəfat elədi. – Mən onun göz yaşlarını görməmək üçün üzümü yana çevirdim. Axı, mənim anam sağdı, onun anası cənnətə qovuşmuşdu… İndi Elşadın "Sən mənim günümə bir ağla, ana", "Bizim o dünyalıq ağrımız da var", "Anamı erkən itirdim" şeirlərini oxuyuram. Fikir verin, yuxuda da analar balası üçün dikəlmək,

işığa çıxmaq ümidindədi: Yuxuda gördüm ki, anam məni səsləyib, - deyir: - Məzarda yatmaqdan belim ağrıyır, oğul, məni gəl ayağa qaldır, – səsi

Gorda da rahatlıq yoxmuş,eləmi?
Sözün bu sirri də mənə anladar:
Belin ağrıyırsa, demək, qabaqda-
Bizim o dünyalıq ağrımız da var –

övlad həyatının öncəki nigarançılığıdır. Bunu yalnız Ana fəhmi duya bilər!

Elşad meşələrə, dənizə gözünü açıb, saf səhəri içərisinə çəkib. Təbiət onun üçün musiqidir, güc-qüvvədir, hər şeydən əvvəl, poetik ilham mənbəyidir. Yadımdadı, biz kabinetdə dərdləşəndə üzü bayıra açılan pəncərədən yamyaşıl küknar ağacları görünürdü və o, üzü işığa meşəni xatırladır. Mənim də uşaqlığım Elşadın doğulduğu kənddə keçmişdi. Onu da duyurdum ki, ürəyində misralar puçurlaşır. “Meşələr bezmişdi balta səsindən”, “Dənizliyini unudan dəniz”, “Külək” bəlkə də o günlərin xatirəsinin səsidir. Bir fərqi var idi təbiət şeirlərinin: Ekologiyamızın məhvi qorxusu – şair narahatçılığı! Amma bu hissə publisist deyimi rəvac versə də, şair həzin ovqatını təbiətdən alır:

Çəkib qırışına meh ütüsünü,
Bahar yer üzünə təravət verir.
Günəş sinəsində mamır bitirən,
Daşa, qayaya da hərarət verir.

Məni isə daha poetik nümunə - “Axşam xatirəsi” kövrəltdi, uzaq illərin və bu günün yaşantısına apardı. Nə gizlədim, Nekrasovun, Lermontovun axşam həzinliyinə aid

şeirləri yadıma düşdü. Səməd Vurğunun, Nəbi Xəzrinin, Vahid Əzizin isti misralarını andım. Şeir adamı yapıncısına büküb isitməlidir, nəfəs verib, bahara qədər qorumalıdır. Günün vida çağında üfüqdən qüruba yol getməsi, durnaların göylərin səssizliyini pozması, yenidən görüşdən qayıdan oğlanın vüsal bihuşluğu… bunlar idillik şair ovqatıdır, axşamın qəribliyinə gətirir. Biz bu axşamın tənhalaşan çalarında işıq üçün darıxırıq.

Çox keçməz dan yeri odlanar, yanar,
Qaranlıq çəkilər səhəri görcək.
Günəş də üfüqün çiyninə qonar,
Səadət gətirən şahlıq quşu tək.

Mən şairi anlayıram, üstəlik onun yaradıcılığı gözümün önündə ətə-qana dolur. Bu, o deməkdi, şairin xəfif kədərini, ötüb-keçən qüssəsini duymuşam. Belə olmasa idi, sözlər şairdən ahu duruşu ilə qaçardı. Elşadda bu kədəri, qəmi görürəm, şeirlərindən çıxır üzə. “Tabut”, “Qurtuluş”, “Saman çöpü”, “Gördüm içində mən yoxam”, “İkili ölüm” bu hissləri oyatdı məndə. Bu şeirlərin adını ona görə sadalamadım ki, müəllifə iradımı tutum, əsla. Şair də insandır, dərdini bizlərdən fərqli olaraq içərisində daşıyır, ağır qantelsayağı. Şübhəsiz, Elşadın bir üstünlüyü ondadır – kədərdə ümidsizlik görmür, işıq üçün boylanır və tapır.

Başım üstə duracaq
Başdaşım yox, bütümdü.
Tabut gərəyim deyil,
Məzarım tabutumdu.

Elşad Səfərlinin sevgi şeirləri ürəyəyatımlıdır. Əlbəttə, o, hələ cavandır, sevdiyi günlər canlı xatirədir, əbədiyyətdən qopan səsdir. O şəxslərə bu hiss məhrəmdir. Onun qəlbi, fikri pakdır, təmənnasızdır. Və bir də… şairlər sevgisiz ötüşmür, poeziyada müqəddəs həvəsin, əhvalın yerini sax-

layırlar. Necə ki, sevgi şeirlərində “tale yazısı”, “adi dünyada daim maraqlı”, “məhəbbət havası”, “varlığı yaradan qüvvə” və s. epitetlər lirik nümunələrin kövrək motivləridir, ürəyin gileyli pıçıltılarıdır. “Yazım son məktubu”, “Sən gedəli”, “Qayıt”, “Daha gecdir”, “Sevda”, “İlk sevgi”, “Pəncərədən daş gəlir” və s. şeirləri Elşadın sevgi dolu hisslərinin bəmbəyaz çiçəkləridir. Şübhəsiz, belə şeirlərində kədərli notlar yox deyil; axı, itirilən sevgidir, məhəbbətdir!

Elşadda ən yaxşı hal odur, yaşın yığnağından ehtiyatlanmır, əksinə, həyat-eşq tükənməzliyi onu çağırır. “Deyirlər yaş ötür”lə bu barədə fikrimə nöqtə qoyacağam ki…

Deyirlər yaş ötür, daha yaraşmaz,
Kiməsə ötəri, gözucu baxmaq.
Gözəllik önündə səcdə qılana,
Günahdı, bəlkə də tənələr yaxmaq.
“Şair gözəlliyin göz dustağıdır”[1]
Belə “dustaqlıqdan” qurtulum necə?
İlahi gözəllik yanımdan keçə,
Belə gözəlliyə göz yumum necə?!

Nöqtə və nöqtə… Amma Elşad Səfərlinin “Yalnız sevgi” şeirlər kitabı barədə fikrimə nöqtə qoymaq istəməzdim. Müəllif sözün həqiqətində şairdir, poeziyanın poetikasından gəlir, cövhərin rəngindən çıxış edir. Əlbəttə, şair dostumun, istedadlı şairin bəzi şeirlərində epikçilik, didaktika elementləri nəzərə çarpır. Bu, məncə, Elşadın gördüyü, təmasda olduğu həyati faktların inikasının bədii çevrilmələrə dönə bilməməsindən gəlir. İstedadın dönəmindən gəlmir. “Mən qaşıyan yerdən çünki qan çıxır”, “Salam, plagiat”, “Ruh bədənə qayıdantək”, “Məni qapan itlər”, “Başsız atlı” şeirlərinin məzmununu danışmaq istəmirəm, bir də poetik nümunəni nəsrə çevirmək özü günahdır. Məsələ ondadır,

[1] Misra Xalq şairi Məmməd Araza məxsusdur.

bu əsərlərdə müəllif qəzəbi birbaşadır, obyekt tanışdır – belə halda şair nəsihətçiliyi özündən uzaqlaşdırmaqda çətinlik çəkir, həyati amil poetik faktla qarşılaşır və birinci tərəf dominantlaşır. Yaradıcılıq psixologiyasından gələn prosesdir. Təbii ki, istedad üçün bu mərhələni adlamaq çətinlik törətmir. Və axı, Elşad Səfərli oxucuları üçün "Baramadan çıxan kəpənək", "Qan bazarı", "Дружба", "Kürəyini yerə vurmayan pişik", "Bizi əl çalmağa öyrətmişdilər", "Ad günüm", "İlahi pıçıltılar" şeirlərinin müəllifidir. Bunlar poetik əsərlərdir, ölməz nümunələrdir...

"Yalnız sevgi"ni sevgiylə oxudum və kənara qoydum. Yazmaq əhvalıma qayıtmışdım, bəlkə də buna hazır deyildim. Xüsusilə, tanıdığım, ünsiyyətdə olduğum söz adamlarının əsərləri barədə nə qəzəblə, nə də nihilistliklə danışmaq mümkün deyil. Çünki sənə isti xatirələr aman vermir. İş elə gətirdi, yolum vaxtilə işlədiyimiz binanın yanından düşdü. İkinci mərtəbənin pəncərələri açıqdı, həmin yam-yaşıl küknar ağaclarına işıq süzülürdü. Bəlkə də Elşad kimi bir şair otağın sahibiylə bu pəncərədən bayıra boylanır, şeir haqda danışırlar. Nədənsə, bunu qeyri-həqiqi güman saydım və  qətiləşdirdim ki, o ikinci mərtəbədə bizim poeziyadan başlanan söhbəti heç kəs qıra bilməz, axı, xatirələrin öz sahibləri olur. Və mən bu ümidlə birbaşa evə gəldim, Elşadın ürəyindən, ağlından süzülən poetik dəyərlərini bir də oxudum və... nöqtəni qoydum. Sevindim ki, elə bu gün havada yaz nəfəsi vardı. Qəribədir, yaşadığım evin də doqquzuncu mərtəbəsindəyəm, həmsöhbətim isə tələbə, sütül oğlan Elşad deyil, üstündən illər adlamış, püxtələşmiş Elşad Səfərlidir və mənə "bir şeir borclu" olan şairdir. Yox, o, poeziyamıza neçə-neçə əsl şeirlər borcludur hələ...

1. **"Məşəl" jurnalı, 2011, № 1-2**
2. **"Aşkarlıq" qəzeti, 18-30 aprel 2011-ci il**

**İkinci məqalə**

# ŞAİR İSTƏYİ

Elşad Səfərlinin əlli yaşına qədəm qoyduğunu eşidəndə duyğulandım, onun tələbəliyi, birgə işləməyimiz yadıma düşdü.

Mən Elşadın şeir yazdığını sonralar hiss eləmişəm. Şair Əbülfəz Naxçıvanlı demişdi bir gün: – Mirzə, (o, məni bu ayama ilə çağırırdı), bizim Elşad yaxşı şeirlər qələmə alır, ancaq utanır sizə göstərməyə. Az sonra qəzetdə Elşadın şeirlərini oxudum və inandım ki, o, poeziyaya təsadüfi gəlməmişdir. O zaman Elşad BDU-nun filologiya fakültəsinin son kursunda oxuyurdu. "Azərbaycan müəllimi" qəzeti redaksiyasına tez-tez gəlib-gedirdi...

Sonra mən "Maarif" nəşriyyatına baş redaktor təyin olundum. Bir-iki aydan sonra bu nəşriyyatda cavan, istedadlı yazarlarla ünsiyyət qurdum (mərhum Qiyas Əcayib (Vəkilov), Hafiz Rüstəm, Ağamalı Sadiq, Əlislam Bilal, Ədalət Əsgəroğlu, Bahadur Eyvazov, Rüzgar Əfəndiyeva və mərhum Əhməd Rəhimovla...). Onlardan ən cavanı Elşad idi...

Bu günlərdə yolum Lənkərana düşmüşdü. Bakıdan özümlə yağışı da "aparmışdım". Qohumum Nahid Paşayevə (o, Lənkəran Dövlət Universitetinin müəllimidir) dedim ki, Gərmətük kəndinə gedək, məktəbli illərimin izlərini görmək istəyirəm. O, sözümü yerə salmadı. Həmin kənd

indi qəsəbədir – Elşad Səfərli də burda doğulub, boya-başa çatmışdır.

Elşad poeziyaya təsadüfi gəlməmişdir, bunu onun şeirləri, poemaları daha əyani göstərir. Onun ilk "Dünya ömür yoludur" (1991) şeirlər məcmuəsi fikrimizin təsdiqi ola bilər.

Sonralar "Sözü ürəyində qalan adam" (1993), "Səhərə tələsən qatar" (1996), "Yalniz sevgi" (1999), "Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubu" (monoqrafiya, 2003) və hələlik sonuncu olan "Şair təkliyə məhkumdu" (2004) kitabları işıq üzü gördü. Oxucu elə bu adlara diqqət verərsə, Elşadın poetik yaradıcılıq səviyyəsini təsəvvür edər. O, yazmağın məsuliyyətini yaxşı dərk edir:

Oxucum, borcluyam yaxşı yazım ki,
Yanında itməsin hörmətim mənim.
Hardasa bir misram xatırlanırsa,
Demək, itməyibdir zəhmətim mənim.

Onun şeirlərində şair istəyi əyaniləşibdir. Elşad Səfərlidə insan xislətinin mahiyyətinə poetik yönüm də maraq doğurur. İstər qələmdaşları olsun, istər ətrafındakı digər sənət sahibləri – daxilən zənginliyə çağırır. "Göbələk xasiyyəti", "Sürtülmüş aşıq", "Sənət dostlarıma", "İstedad" və sair şeirlərində o, duyduğunu, gördüyünü qələmə alır.

E.Səfərlidə təbiətlə insan xasiyyətindəki harmonik birləşməylə ayrılmalar daha lakonik və düşündürücüdür. Birincidə şair sakitdir, hövsələlidir. İkincidə nigarandır, narahatdır.

Elşad Səfərlinin şeirləri ürəkdən doğan poeziya nümunələridir. Oxuyanda müəllif kimi yaşayırsan:

Bütün ayrılıqların
qapısı üzümə açıqdı.
Dünyanın ayrılıqları
Mənimlə qardaş-bacıdı.
Yolların qovuşduğu yer də
Mənimçün yol ayrıcıdı.

O, həm də maraqlı sonetlər, poemalar müəllifidir. Bu günə kimi əllidən artıq soneti, bir neçə poeması nəşr olunmuşdur.

Elşad Səfərlinin yaradıcılığında ədəbiyyatın nəzəri məsələlərinə dönüş də nəzərə çatdırılmalıdır. Xalq şairi Sabir Rüstəmxanlıdan bəhs edən "Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubu" monoqrafiyası (2004) maraq doğurmuşdur. O, bu əsəriylə özünün yeni bir ədəbi dünyagörüşünü büruzə vermiş oldu.

Elşad Səfərli hazırda pedaqoji fəaliyyətlə məşğuldur, universitet müəllimidir. Ədəbiyyatdan dərs deyir. Ürəyi atlananda "üzünü poeziyaya" tutur. Çünki poeziya təmizlik, paklıq simvoludur.

***"Ədəbiyyat qəzeti"***
***27 iyul 2007-ci il***

**Üçüncü məqalə**

## ELŞAD SƏFƏRLİNİN POEMALARI HAQQINDA BİR NEÇƏ SÖZ

Gərək ki, istedadlı şairin yaradıcılığı haqqında üçüncü dəfədir yazıram. Nədənsə "üç" rəqəmi özü gəlib məni tapır – axtarmıram. Necə ki, bu qış havasında – ovqatında Elşad Lənkərandan telefon açdı, əhvalımı xəbər aldı, mən də adekvat cavablandırdım. Eyni zamanda son vaxtlar nə yazdığını da soruşdum. Sakit, heç nə olmamış kimi: Bir-iki poema, şeir yazmışam, – deyə təvazökarlıqla dilləndi.

Mən Elşadın "işsiz" dayanmadığına əmindim, amma poeziya aləmində ərköyünlüyünə də inanırdım. Elşadın şeirləri ilahinin pıçıldadığı sözlü səsdir, seçilmiş misralardır, əlbəttə, bunları telefonda demədim, ürəyimdən keçirdim. Vədələşdik, konkret gün müəyyənləşdirməmişdik... Çalışdığım iş yerində - kafedrada idim, Elşadın İnstitutun girəcəyində durduğunu biləndə xəfifcə sevindim: Üç ildi görüşmürdük, təsəllimiz telefondu. O, Lənkəran Dövlət Universitetində çağdaş ədəbiyyatı, onun tarixini və nəzəriyyəsini tələbələrə öyrədir – yaxşı missiyadır...

Söhbət şaxələndi, Elşadın qara, qıvrım saçlarına ağ iynə ücünca dən səpələnmişdi. Mənə elə gəldi, üç il əvvəl belə şey yoxuydu, bəlkə də vardı, diqqət yetirməmişəm. Adətimdi, tələbələrimi yaşlı görmək istəmirəm, qoy mən

onların gözü qarşısında qocalım! Qoy mən onların çiynində gedim – necə ki, Elşadın kiçik qardaşı Elxan onun çiynində son “ağırlığını” qoyub getmişdi... Təsadüfə bax ki, oxuduğum ilk poeması da vaxtsız dünyasını dəyişmiş qardaşı barədədir. Əslində elegiyadır. Nədənsə ilk təməli antik yunan şairlərindən gələn bu janra az üz tuturuq, ağır itkinin nisgilini şeirə köçürmürük... Elşad göy – mavi rəngli qovluğunu mənə verdi, utancaq, astadan dedi: -

Ustadım, vaxtınız olarsa vərəqləyin, yazılarımdır. – Armudu stəkanda buxarlanan çaydan bir qurtum içdi, əliylə saçına toxundu. – Darıxmışam, müəllim – dedi və mövzunu dəyişmək istədi. Bu, onun təvazökarlığından gəlməydi. Ürəyindən keçirirdi ki, dar macalda oxuyub fikir söyləmək çətinlik yaratmazmı?

Həyatında və poeziyasında daima Elşad Səfərlini başa düşmüşəm və duyğusunu qiymətləndirmişəm. Zarafat gəlməsin; otuz illik bir dövrün tanışlığı və yaradıcılıq söhbətləridir. İlk şeirlərini mənə oxumuşdu, rəyimin intizarını çəkmişdi. Hələ 80-ci illərdə onun istedadına inanmışdım; o da sağ olsun, proqnozumu doğrultdu. Sonuncu söz ritorik çıxmasın, o mənada ki – mütaliə elədi, əlləşdi – vuruşdu, buna bənzər əmək mümkündü, bir şərtlə, istedadın varsa. Bu yoxsa, hacət yoxdu şeirə gəlməyə. Elşad sözümün həqiqi mənasında şairdir!

Ayrılıq təəssuratımdan çıxmamış qovluğu vərəqlədim. Və ilk poema ötən xatirələrimi oyatdı. Elşad Səfərli kiçik qardaşının vaxtsız ölümündən sarsıntı keçirmiş, bu ağır kədəri yaşamış və “Vadim” poemasını qələmə almışdır. “Xatirə” sözünü təsadüfən işlətmirəm. Müəllif Lənkəranın Gərmətük kəndində doğulmuş və həmin kənd məktəbini bitirmişdir. İş elə gətirmiş, mən də həmin kənd məktəbinin üç sinfində (8-10) oxumuşam. Yeniyetməliyim oradakı sıx

meşəlikdə, kəndin qırağındakı hirsli, amma dupduru çayın qırağında itirdiyim uşaqlarla keçmişdir. O müəllimlər ki mənə dərs vermişlər, bəlkə də onlar Elşadın da müəllimi olmuşlar. Qəribə gələr: poema o kəndin təsviri və təəssüratı ilə başlayır:

Çay qırağında bir kənd –
Doğulduğum od – ocaq.
Məni harada olsam,
Bu yerlər çəkir ancaq.

Həyatımın ən xoşbəxt
Çağları bura bağlı.
Taleyimin xatirə
Bağları bura bağlı...

Sonuncu beyti barmaqlarımın titrəyişində köçürdüm vərəqə, ürəyimin səsini eşidə-eşidə. Axı, o yurdda mənim də ayaq izlərim yaşayır, torpaq vəfalı olur. Şair də etibarını itirmir – oxucuya doğma məkanını təqdim eləyir. Mən gözləyirdim ki, Elşad ağrılı mövzunu başqa bir rakursdan başlayar. Nə yaxşı, belə olmadı. Sanki oxucunu şair mənim kimi kədərinə hazırlayır. Yoxsa, həzin misralara, bacının qardaşla bağlı ağılarına kim tab gətirərdi? Çəkilən oxşamalara göz yaşı axıtmamaq mümkünmü?

Daşmı yağdı, daş, qardaş,
Bizə dəydi daş, qardaş.
Sənin yerinə özüm –
Mən öləydim kaş, qardaş!

Müəllif hadisədən qaçır, birbaşa yaşanan müşahidəyə rəvac verir, başqa cür də düşünmək olmazdı. Bir qardaş ha-

rayını duymasaq, poetik yük öləziyərdi. Şair ürəyini göynədən hissi əyaniləşdirir. Bu oğul hansı məkana yola salınır – məzardı, təkmidir, orda ona kim həyan duracaq? Yaxşı ki, ona o məkanda həyan duracaq kəslər var, sümüyünə qabaqcadan xəbər verən ata ruhudur, ana nəfəsi, böyük qardaş duyumudur.

Atam məzar evində
Agah olunca ağla.
Anam oğul köçündən
Soraq alınca ağla.

Bu hiss yalnız bir təsəlli üçündür, əzabı mərhum insan tərk elədiyi dünyada qoyur, əzabların karvanı başlayır. Misralar tutdu məni, axı, mən də qardaş itirmişəm. Mən də...

Bu da təzə məzarın,
Ata, qardaş yanında.
Məni sağ bilmə, durub
Cansız bir daş yanında.

Toxunduğum bölmədə (X) şairin ölüm - həyat dilemması: biri doğum, digəri son mənzil. Ölümün də fəlsəfəsi var, istəmədən doğuluruq, doymadan köçürük; bu iki dünya arasında unuduluruq. Lakin Elşad Səfərli şair missiyasına sadiq qalır və bu sadiqlik, "şübhəsiz, qardaşına məhəbbətdən gəlir". Bu həqiqətə inanıram və o hissləri yaşayıram, Elşad!

Könül evim şad deyil,
Virandı, abad deyil.
Sınıb Elşadın beli,
Əvvəlki Elşad deyil.

Yox, həm də barışmıram səninlə, Elşad, səni tanıdığım o illərin qanadlarında yaxşı, pis günlərin də gözümün önünə gəldi. Tələbə ikən, nəşriyyatda bir çalışarkən o yadımdadı – atan, qardaşların necə sənin qulluğunda dururdular, anan necə sənə sovqat göndərirdi. O qayğıdan bir ovuc da mərhum qardaşının payına düşürdü. Nə yaxşı, poemada bu ştrixi vermisən. Məgər nankor qardaşlar azmıdır? Sənə qalanda, əzizim, anadan şair doğulmusan, məgər, yazmaya bilərsənmi? Sən bu itkinin əvəzinə daha rahat şeirə məhrəm olmalısan, oxucular əsərlərinin intizarındadır. Ölüm labüddür, əzizim, bir gün də gələcək, müəllimini çiynində yola – soyuq məkana, işıqsız dünyaya yola salacaqsan. Onda bir şeir yazıb, məzarıma qoyarsan...

"Vadim" poemasında fərdi hisslərin təsviri ilə yanaşı, üç motiv qoyulmuşdur: Nikbinlik (XIII), etibarsızlıq (XV) və ölməzlik (XVI). Və bununla müəllif predmeti – obyekti ümumiləşdirmişdir. İnsan və ölüm fəlsəfəsinə gəlib çıxır. Bu da əsas məsələ deyil, şərt labüd iki "qütbün" bir – birini tamamlamağıdır. Qardaş digər tərəfdən atadır, övladları dünyaya gətirmişdir:

Üç igid qaldı səndən,
Nicat, Məhərrəm, Vadim.

Bu beytin məzmun yükü poema boyu mətnin təsəlli motivinə çevrilir və onu daha optimal eləyir – bu üç bala ölümə meydan oxuyub, atalarının ölümsüzlüyünü qazanacaqlar. Şair düzgün olaraq bu inamı proqnozlaşdırır:

Pislik ölümə qaldı,
Gec- tez o, xar olacaq.

Ölümdən intiqamı
Bu balalar alacaq –

deyir və bununla bədii faktların reallığını poetikləşdirir. Şair üçün bu, ona görə gərəklidir ki, – qardaş itkisini unudar, fərəhlənər:

Atanıza oxşayın,
Sevin kara gəlməyi.
Siz böyüyənə qaldı,
Belimin dikəlməyi. –

İnanırıq!

İnsana, onun şəxsiyyətinə hörmət, məncə, daha vacibi onun ölümündən sonrakı hissin fəallığıdır. Elşad həyatı lazımınca görən, düşünən, yaxşını, pisi görməyi bacaran şairdir – insandır. Ona təsir göstərən oturub – durduğu yaradıcı "dostlarının" laqeydliyidir. Son təsəllidən heç kəs imtina eləmir, son mənzilə də çatmır – kədər, qəm. "Zalım dostlar"ın laqeydliyinə bir şair olaraq inciyir. Və haqqı çatır buna. İnsan ağır günün dostu olmalıdır, şadlıqda görünməyə nə var.

Çal – çağır günlərimdə
Siz ki, yanımdaydınız.
Sinəmə "dost" qismində
Yazılmışdı adınız...

"Vadim" poemasının finalı (şərti mənada) ölməzlik elegiyası ilə tamamlanır: Ölmək heç də biryolluq yox olmaq – ölmək deyil, - deməkdə şair haqlıdır. İnsan Allahın bir zərrəciyidir və onun dərgahına qovuşur: Yarpağın tökən ağac yenə yarpaqlanacaq. Budağı düşən ağac yenə budaqlana-

caq – şairin ölməzlik himni kimi səslənir. Və Elxan ömrü Elşad üçün sonsuz nağıla dönüb, şirin-şirin, acı-acı danışılacaq, sabahlaracan uzanacaq:

Beləcə bu nağılın
Ardı qalar sabaha.
Sabahı da adlayıb,
Sonu bilinməz daha.

Xatirələr ölmür. Xatirələr nə qədər yaşayır – insan da eləcə...

Yenə könül sazımın
Simində qəm səslənir.
Yenə can otağımda
Böyük bir dərd bəslənir.
Bu dərdin bəmi yoxdu –
Zilə köklənən simdə!
Bu dərd minotaqlıdı
Birotaqlı evimdə.

Bu həzin misralar Elşad Səfərlinin "Böyük qardaş" poemasının proloqundandır. Düzü, istədim poemanı oxuyandan sonra məqalənin sonunda fikrimi yazım, daşındım ki, "Vadim"in ruhunda yazılmışdır. Kiçik qardaşın ölümündən xeyli əvvəl. Mən əvəzləyə də, yerlərini dəyişə də bilərdim. Bir incə hissə tabe oldum. Ailədə yaşca kiçiklər daha çox əzizlənir, bəlkə də "sonbeşik" məhəbbəti ilə. Xatırlayıram ki, Elşad qardaşlarına eyni sevgi ilə yanaşardı, ayırmırdı onları. Çünki ata-ana tərbiyəsi yetərli, dəyərliydi.

Poemada şairin Etirafı (qoy bu cür yazılsın), xüsusilə, Bayquşla (qoy bu da beləcə getsin) səssiz dialoqu... Daha

çox hissin fəlsəfəsinə üstünlük verir. Mistik ovqat olsa da, həqiqətdir bu; Bayquş barədə rəvayətlər Şərq nəsihətindən gəlir. Əslində “Bayquş” kimi tarixi adı gözlərində yaşadan bu quşa Allah hər gün bir sərçə yemi pay eləyir. Amma o, dini missiyasından uzaqlaşıb “bəd xəbərlər” simvolu kimi qarşılanır. Elşad tarixiliyi də qorumaqla, intuitiv hissə inandığını poemada təsvir etmişdir. Bayquş sadəcə rabitə rolunu oynayır. Burada şairin bir orijinallığı nəzərə çarpır. Nəsr dili ilə müşahidəsini söyləyir. “Aylı bir gecə”dən sonra Bayquş üç dəfə qardaşların ocağına uçur, ağacda oturur, mücərrəd dili ilə xəbərdarlıq eləyir. Elə “üç” rəqəmi də simvolikdir. Şair, təbii ki, bəd xəbəri duyur və daxili təşvişini gizlətmir.

Gəlişin yaxşı hal deyil,
Könlüm bundan xoşhal deyil.
Əhvalım heç əhval deyil,
Səni kim göndərdi, Bayquş?

Şeirimizdə ilk dəfədir Bayquş mistik obrazı yaradılmışdır. O, şairlə hər gecə söhbətə gəlir, baxmayaraq verəcəyi bəd xəbərdir, amma bu quş yalnız şairin görüşünə gəlmişdir. Elşad məhz bu obrazla şairlərin ilahi ilə ruhi yaxınlığına işarə vurmuşdur. Evdə yalnız o, bu səsi eşidir, halbuki ucadan “danışır”. “Bir gecə yenə Bayquşun səsinə oyandım. Səsi həyəti götürmüşdü. Çoxdan gözlədiyim adamı görürmüş kimi sevincək pəncərənin qabağına gəldim. Səsini kəsdi...”. Diqqət yetirsək, Bayquş şəxsləşir, subyektiv rolunu oynayır. Qara xəbəri çatdırmaq üçün gecələr gəlir ki, ətraf bilib, pərişan olmasınlar, gecənin bəyazlığına ahnalə, niskil əhvalı qatmasın. Axı bayquşlar, adətən gündüzlər gözə dəyirlər. Elşad Bayquşla simvolik görüşündə

fəhmə, intuisiyaya da işarə vurur. Bu, "ürəyədamma"dır, qürbətdə xəstə olan böyük qardaşın başında dolanan ölüm kabusudur.

Bu poemada da Elşad Səfərli "ölümə" real nifrətini pıçıldamır, ona görə ki, təbiətin mütləq qanununa qarşı çıxmaq olmaz, Allah yazan konstitusiyadır. Amma şair cəsarəti var: Qardaşa ölümünü Vətən yox, Qürbət bağışlamışdır. Vətəndə ölmək səadətdir! Niyə axı, bərəkətli, varlı Vətənimiz öz övladını yaşatmaq qüdrətinə malik olmasın?

Qürbətə getmişdin,
Çörək pulu qazanmağa –
Getməmişdin,
Yad ocağının istisinə
qızınmağa.
Yad ocağının
qərib üçün istisi olmur.
Dilinin "Vətən" adlı
kəlməsi olsa da,
səsi olmur...

Elşad Səfərli bir şair kimi vətənpərvərdir, xalqını sevəndir, ədalətsizliyi sezən və sözünü deyəndir. Bu motivə yeri gələndə laqeyd qalmır. Şübhəsiz, bu müqəddəs hiss məhz ailə tərbiyəsindən başlanır. Hər bir övladın ürəyində əkilir Vətən çiçəklərinin toxumu. Bəli, Vətəndə çiçəklər də başqa cür ətir saçır! Qürbətdə bir parça çörək üçün çalışan Səfər də Vətən daşıdır Məmməd Araz demişkən. Elşad Səfərli bu hissi özünə məxsus səsləndirmişdir:

Ruhunda Vətən,
Dilində Vətən,

Canında Vətən idi.
Ruhunda bitən,
Dilində ötən
Vətən idi.

Qürbət isə əvəzində vətənsevən oğulu dəmir tabutda yola salır. Qürbət üçün vətənsiz ölənlər ağrı vermir, ağrını yenə Vətən torpağı yaşayır, çünki qoynunda o məkan verəcəkdir. Poemada Elşad kədərdən doğan hissin tərənnümünü elegiya ruhunda verir; başqa janrda bu ağrı alınmaz – mən də belə düşündüm.

Qardaş, sənsiz kədərim - min,
Şaxı qırıldı qəddimin.
Sən köçəndən tərəfimin
Birin öldüyün bilirəm...

Poemada Elşadın səmimi etirafı da məni təsirləndirdi: bəzən ehtiyac ucbatından laqeydləşirik doğmalarımıza. Bu da cəmiyyətimizin insana bağışladığı şapalaqdır. Maddiyyat kasadlığından – etibarsızlıq və laqeydlikdən yox, – məhz bu ehtiyacdan doğulduğumuz kəndə, obaya üz tuturuq, daxilən əzab çəkirik. Məhz Elşadın xəstə qardaşına qürbətdə baş çəkə bilməməsinin bir başlıca səbəbi budur. Rusiyanın ucqar şəhərinə necə getsin? Təəssüf ki, elita hələ bu barədə düşünməkdə və addım atmaqda gecikir... Yenə şair cəsarəti, amma siyasi etikanı gözləməklə:

Sağlığında
Qədrini bilmədik, qardaş.
Qabaq – qənşər oturub
Səninlə doyunca

Danışıb gülmədik, qardaş.
Sən indi yoxsan aramızda,
Bir xiffət qəmi yaşayır
Nəsillikcə hamımızda.
Bir boşluq yaranıb
Nəsil sıramızda...

Elşad Səfərli poemanı həzin, kövrək sonluqla – daxili kədərin istisiylə davam etdirir; bacı məhəbbətinə öz ağrısını qatır.

Yenə hislidir bacalar,
Tüstüsü üz –göz acılar.
Qardaşı ölən bacılar,
Qardaş deyib, ağlayır hey.

Yaş axıdır acı – acı,
Qurumur şalının ucu.
Ər itirən gəlinbacı
“Yoldaş” deyib, ağlayır hey...

“Böyük qardaş” poemasında müəllif şeirimizə “Qardaş” obrazını da gətirmişdir. Oxuyuruq epizodik şəkildə. Lakin Elşad Səfərliyə bunu iki amil vəd edir. Doğmasının ölümü və poetik istedadı – hər iki sosial – patoloji və psixoloji – bədii faktorların harmoniyası. Hərçənd, heç kəs bədii əsərin yazılması naminə bunu arzulamaz, lakin tale bu müsibəti Yerə endirmişsə, ədəbiyyatda izini qoymalıdır. Elşad Səfərli bu təbii ağrıya qarşı şair həssaslığı göstərib, iki dəyərli poemanı qələmə almışdır. Və düşündüyümüz etiraf:

Tanrım,
Mənə qismət etmə bir də,
O rəngin şeirini yazım –
Oturub elegiya yazım!

Elşad Səfərlinin maraq doğuran poemaları sırasında "Əlvida, kirli Rusiya"nı həsəvlə oxudum; dahi rus şairi, qısa ömür yaşamış, zəngin irs qoymuş Mixail Lermontovu gəncliyimdən oxumuşam. Mərhum tənqidçi, müəllimim Əhəd Hüseynov bizə rus poeziyasından mühazirələr oxuyanda Puşkini və Lermontovu fərqləndirirdi. Xüsusilə, "Şairin ölümünə" və "Tənha yelkən" (digər adlarla da tərcümə edilmişdir.) şeirlərini geniş təhlillə "xirdalayırdı", poetikasını açırdı. Və Əhəd müəllim bizdən bir şairdən azı iki şeirini əzbərləməyi tələb edirdi. Allah rəhmət etsin, bu tapşırıqdan yadigar olaraq bəzi poetik nümunələri yaddaşıma köçürmüşəm: Bu haşiyəni əbəs xatırlamadım: Elşad, görünür, gənclik illərindən Lermontov şeirini sevmişdir. Poemanın yazılmasında və oxuculara təqdimində müəllif yanılmamışdır; bəzi cəhətlərə bələdliyini büruzə vermişdir. İlk növbədə diqqətçəkən cəhət şairin Lermontov mühitinin ədəbi və tarixi faktorunu dərindən öyrənməsidir. Böyük rus şairinin dövründə baş verən siyasi – sosial hadisələr, kübar aurası, qadın məclisləri, ən sonda hakimiyyətin siyasətinə "qarışmaq" ovqatı poemanın ana xəttini təşkil edir. Biz Pesteli, Rıleyevi, Puşşini, Delviqi, Muravyovu xəyalən görürük, çünki bunlar ədəbi şəxsiyyətlərdir, Puşkinin dostları idilər və çarın diqqətində dayanmışdılar. Lermontovun dekabristlərə rəğbətinə aid misraları çoxdur. Elşad o poetik mühitə çökən soyuqluğu, hakimiyyət sarıdan – rus qışı ovqatında tərənnüm edir:

Saflıq tutub dünyanı,
Dayanmadan yağır qar.
Ahıl qocalar kimi
Belin əyib ağaclar.

Ağacları qar əyib,
Yoxsa yaş ağırlığı?
Qarın budaqlar üstə
Varmış daş ağırlığı.

Elşad Səfərli Lermontovun 1837-ci il 27 fevralda həbsini xatırlayır, həzin və sərt misralar bağlayır: "Lermontov həbs olundu; Onun sürgün yeri də, birbaşa Qafqaz oldu", – deyir. Təbii ki, şair tək deyildi, onun dostlarının da başı ağrıyırdı:

Rayevski də tutuldu,
Onun da həyatında
Öz sürgün ömrü oldu.
Bir ay yatdı, sonra da
Uzaq quberniyaya,
Uzunmüddətli hərbi
Xidmətə göndərdilər.

"Əlvida, kirli Rusiya" poemasında "duel faciəsi" xüsusi yer tutur. Bu olumla ölüm arasında şair humanizmi, şair ürəyi dayanır. Bu şairlərə Elşad kövrək və obyektiv qiymətini verir.

Duel...üzbəüz durub,
Lermontov – bir də Barant.
Kənarda diqqət edir
Şübhəli bir sekundant.

Elşad əcnəbi Dantesin, habelə Martınovun surətlərini mənfi motivlə təsvir edir, çağdaş oxucularda aydın təsəvvür yaradır.

Barant, barantkimilər
Rusiyada kök salan
Şeir – sənət qatilləri.
Nə qədər onlar vardı –
Vardı, həm söz qətlləri.

Elşad bəzən "poema" janrının ənənələrini pozur – bu, onun novatorluğundan irəli gəlir. Yaxşıdır. M.Lermontovun məşhur "Buludlar" şeirini oxumayan az tapılar. Mən hər gecə bu şeiri nəzərdən keçirir və ötən Lermontovlu poetik əhvalıma qayıdıram. Elşad ayrı-ayrı şairlər tərəfindən dilimizə tərcümə edilmiş bu şeiri özü də yüksək peşəkarlıqla türkcəmizə çevirmişdir. Bir bəndə baxaq:

Yox, barsız söyüdlərdən siz bezib usandınız,
Sizə yaddır ehtiras, sizə yaddır ağrılar.
Daim siz soyuqsunuz, daim də azadsınız,
Sizinçün nə vətən var, nə də ki qovulmaq var.

Poemada Lermontovun Qafqaz günləri poetik ustalıqla tərənnümünü tapmışdır. "Əlvida, kirli Rusiya" cavabı Lermontov ruhuna yaxın vəzndə ifadə olunmuşdur, siyasətə də eyhamlıdır:

Əlvida, kirli Rusiya,
Xəyanətlər ölkəsi.
Əlvida, məkrli Rusiya,
Cinayətlər ölkəsi.

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Elşad Səfərlidə obrazlı ifadələr, poetik detallar və elementlər diqqəti cəlb edir. Bəzi nümunələr:

Ürəyinin başını
Gəlib düz nişan aldı.
Və şairin köksündə
Qan lalətək açıldı.

Yaxud:

Aman, şair ürəyi
Rəqibini əfv etdin.
Ona ömür bəxş edib,
Öz ömrünü dəfn etdin.

Poemada şairin xitabı orijinal səslənir və bu da yenilikdir, həm məqamı, həm də poetik səviyyəsi baxımından.

Çalışdım ki, sözü əziz olanın,
Hamı əziz tutsun xətirini də.
Kimsə Lermontovdan danışsa, yəqin
Xatırlayar Elşad Səfərlini də.

Elşad Səfərlinin poemalarını müasirlərimiz S.Vurğunun, M.Müşfiqin, N.Həsənzadənin, M.Arazın, Musa Yaqubun poetik ənənələrinin təbii davamı kimi qiymətləndirərdim. Özünü də bu sahədə həmin ustadların xələfi kimi qələmə versəm, düşünürəm ki, bu fikrim kimlərəsə mübaliğəli görünməz. Mən, ümumiyyətlə, sənətkarları birbaşa müqayisə etməyi xoşlamıram: Hətta ən zəif şairdə elə səmimi, qeyri-adi detallar, çevrilmələr taparsan – klassiklərdə görmürsən. Elşad Səfərlinin poemalarını bu mənada müasirlərinkindən nə yuxarıda, nə də aşağıda təsəvvürə gətir-

mirəm. İnsafən, barəsində danışdığım poemalar mövzu və məzmun etibarilə şairə etibarlıdır: İstedadın gücü ilə qələmə alınmışlardır.

“Əlvida, kirli Rusiya” poemasını oxuyandan sonra bir daha özümdə yəqinləşdirdim ki, rus poeziyasında romantik poema janrına hüquq qazandıran və bu formanı daha yüksək zirvəyə qaldıran A.S.Puşkin olmuş, bu təbii genetik özək M.Y.Lermontov şeirinə hopmuşdur. Amma deməzdim ki, o, Puşkin təsirinə duşmuşdur (Əkbər Ağayev), əksinə, Lermontovda özünəxas fəlsəfi fikir, sosial etiraz, daxili hıçqırtı cəsarəti vardır. Elə şairin sərt – “Əlvida, kirli Rusiya” cavabı qəsbkar, sözdə demokratik Rusiyaya verilən ən yaxşı qiymətdir. Və bu gün cəmiyyətdəki əksiklikləri və uğurları yaşayan şair Elşad Səfərliyə bu mövzuya qayıtmaq ehtiyacı nəsib olmuşdur. Müəllif Lermontovla bağlı poetik materialı, poetik ruhu situativ vəziyyətlərlə, dramatik keçidlərlə əyaniləşdirmişdir. Mən Lermontovu sevən və əzbərləyən bir oxucu olaraq şairin “Qəlbin məyus anları”, “Buludlar”, “Tənha yelkən” şeirlərinin, “Demon”, “Mıtsıri”, “Qafqaz əsiri” poemalarının təsirini daima yaşayıram. Bax, poeziya budur, Elşadın poemasını əlimə alanda əvvəlcə narahatçılıq vücudumu sardı: Hələ 60-cı illərdə böyük şairimiz Əli Kərimin “Üçüncü atlı” poemasını az-çox xatırladım, ruhdandüşmə vahiməsini də gizlətmirəm. Oxuduqca sakitləşirdim, misralar günəş şüasına bələnib, ürəyimi qızdırdı. Yaxşı, bu misraları necə də söyləməyim?

Qaymaq bağlayan südtək,
Su üzü “buz qaymaqdı”.
Ağ şəkər tozu kimi,
Üstündə qar dümağdı.

Yaxud:

Bir şair susduruldu,
Azadlığa boylanan
Söz boynundan vuruldu.
Mütləqiyyət qövmünün
Bundan kefi duruldu.

Dahi rus tənqidçisi B.Q.Belinskinin əla fikrini qeyd dəftərçəmdən tapdım; oradan belə bir yanaşmanı: poemalardakı forma və məzmundan irəli gələn şeiriyyəti xüsusi göstərmişdir.

Elşad Səfərli poemada realist üslubdan uzaqlaşmağa çalışmışdır, fərdi üslubuna – birbaşa romantik ləngərə üstünlük vermişdir.

Elşad Səfərlinin "Qiymət" poemasının çoxdan intizarında idim; səbəbləri vardı: Qəhrəmanı poliqrafiya üzrə ilk milli alim – görkəmli naşir, gənclik dostum  Şəddad Cəfərovdur. Birbaşa otuz ildən, qiyabi qırx ildən çox tanıdığım və hər görüşümüzdə mehribanlıq, ülfət istisi duyduğum insan, özü də böyük hərflə.Xatırladığım kimi, mən də Şəddadın doğulduğu, oxuduğu Gərmətük qəsəbəsində təhsilimi davam etdirmişəm. Biz bir-birimizi o vaxt tanımamışıq, ona görə ki, o, I-II sinifdən valideynlərilə Bakıya köçmüş, mən isə VIII-X siniflərdə bu kəndə ayaq basmışam. Onda həmyaşıdlarımla köhnə məktəbin həyətində atılıb - düşürdük, gələcək taleyimizi daşıyırdıq gücsüz çiyinlərimizdə. 1980-ci illərdə işlədiyim "Azərbaycan müəllimi" qəzeti "Azərbaycan" nəşriyyatında yerləşirdi və bu nəhəng müəssisənin rəhbərlərindən biri də iqtisad elmləri namizədi Şəddad Cəfərov idi. Fəxrlə salamlaşırdıq. Bir xeyli sonra məni "Maarif" Dövlət nəşriyyatına baş redaktor təyin et-

dilər, o da həmin sistemə - mətbuat komitəsinə məsul vəzifəyə göndərildi...Mən daha hər gün onunla görüşür, nəşr problemləri ilə bilavasitə məşğul olurduq. Hər ikimizin iş üslubu bəzi nadan vəzifəli məmurları qane etmədi, uzaqlaşdırıldıq. XX əsrin sonu yenidən bizi yaxınlaşdırdı. Fürsəti əldən vermək istəmədim, hətta istədim Şəddad müəllim barədə bir əsər yazım, amma subyektiv səbəblərdən məqalə ilə kifayətləndim. Mən çalışırdım böyük poliqrafçının portretini cızım, əlbəttə, çətindir, Şəddad Cəfərov hər hansı tanınmış müəllifin maraqlı kitabının mövzusu ola bilər. Nə yaxşı, istedadlı şair Elşad Səfərli bu böyük şəxsiyyətin ömür yolunu poeziyaya gətirməyi bacarmışdı... Mən "ekskursiya"nı təsadüfi hesab saymıram. Şair – müəllif sübuta yetirir ki, bəzi subyektiv səbəblər ucbatından həyatda – işində rəsmi qiymətini almayan alim poetik qiymətini almağa qadirdir! Bir işarəni xatırlamaya bilməzdim:

Azmı görmüşdü o haqsızlıqları?
Görünür, bunu da görməliydi o.
Bu da bir növbəti zərbəydi, bəli,
Buna da birtəhər dözməliydi o.

Müəllif "epiloq"da bu yola qayıdır; maraqlıdır, mənim gözüm qarşısında baş vermişdi haqsızlıq: Naşı birisi onu əvəzlədi və işin gedişini sıfıra gətirdi və özü getdi. Nəyi uduzuruq belə hallarda: qabiliyyətli kadr uzaqlaşdırılır və biryolluq unudulur. Belə siyasət yalnız ziyan gətirir cəmiyyətin işinə. Halbuki, kollektivin rəyi nəzərə alınmır. Çox yerindədir:

Bir şey unuduldu – belə qərara
Kollektiv razılıq görən, verərmi?

Kollektiv, görəsən, direktor kimi
Naşı bir adamı qəbul edərmi?

Şairlər, həqiqətən, sadəlövh doğulur və inanırlar hətta cızığından çıxan qanunlara da! Adiləşmiş bir adətə çevrilmişdir bu: birinci səlahiyyətli məmurlar üçün şəxsi maraqlar ali qanunlardan və qanunauyğunluqlardan daha vacibdir...

Poemada Elşad Səfərli Şəddadın yaşadığı kənd mühitini, burdakı xırda adamların, xalqa fəsad gətirən hadisələri əllərində birləşdirənlərin xəyali obrazını yaradır. Belə yanaşma Lənkəranın Gərmətük kəndinin bəzi adamlarından da yan keçməmişdir. Və bu yanaşma Kəlbi obrazında ümumiləşdirilmişdir.

"Qiymət" poemasında əsas qəhrəman Şəddad obrazının bəzi insani və əməlisaleh cizgiləri təsvir edilmişdir. Həyati alınmışdır; çünki obraz tarixi şəxsiyyətdir. Tərcümeyi–halının izinə düşən şair daha çox müşahidəsinə üstünlük verir, şair üçün bu, vacibdir. Fransız yazıçısı O.Balzak yaxşı demişdir ki, iztirab müşahidəçilik qabiliyyətindən başlayır. Bu mənada biz xronikal faktları görmürük, poetik faktların şahidinə çevrilirik. Şəddad uğurlara imza atır, etimadı doğruldur, əvəzində bəzi insanlar şər – böhtana əl uzadırlar:

Şəddadın ayağına
　　　şöhrət özü gəlirdi,
Buna sevinməyənin
　　　paxıllığı tuturdu.

Bu o illərdi ki, onu Rusiyanın ən iri poliqrafiya müəssisələrindən birinə –"Ulyanovskaya Pravda" nəşriyyatına baş direktor təyin edirlər. O, Rusiya poliqrafçılarının içərisində qabiliyyəti və işgüzarlığı ilə şöhrətlənmişdi – qısa müddətdə. Nəhayət, onu yenə də respublikaya dəvət edirlər,

layiqli yerini tutur. Bu o vaxtdı, Şəddad Cəfərov öz elminin səmərəsini sübuta yetirdi. "Ulyanovskaya pravda" nəşriyyatında qazandığı praktik təcrübəni kollektivin gücü ilə həyata keçirtdi. Amma onu Vətənə çəkib gətirən torpağına, millətinə məhəbbətiydi:

Vətən idi canında,
vətən idi ruhunda,
Vətənsiz ötüşmədi
uzaq eldə bir günü.
Bir kövrəklik içində -
yurdundan uzaqda da,
Qürbətdə də yaşadı,
yalnız Vətən ömrünü.

Amma qəriblik fenomeni də danılmazdır:

Günü qərib günü olmuşdu onun,
Bildi sevinci yox, vətənsiz günün.
Hicran ağrısıyla cavan ömrünün,
Dönmüşdü vədəsiz qışına qürbət.

Gördü vətən hissi dolanır qanda,
Ürək rahat olmur, sıxılır can da.
Həsrət qəmi ilə doluxsunanda
Göynətdi qəlbinin başını qürbət...

Yanıqlı misralardır, şair ürəkdən yanmayanda elə şeiri də qəribliyə düşür, axtarıb – tapan olmur. Elşad ona görə müvəffəq olur, öz istedadına güvənir, daha poetiklik xətrinə yox – sözlərinə ifadəlilik verir, şair öz ruhi təzahürünü üzə

çıxarır. Yuxarıda vurğuladığım poetik fakt şeirdə poetik akta çevrilir, yəni yazılış tərzində oxucuya çatdırılır.

Mən klassizmsayağı əvvəlki fikrimə qayıdıram: Şəddad Cəfərov qürbətdə işləsə də öz yerini vətəndə tapır və poema belə bir sonluqla bitir:

Yenə təzə kabinet...
yenə də iş başında,
Dünənkindən də artıq
iş başından aşırdı.
O, ruhdan düşməyirdi,
çalışır... çalışırdı!

Sonuncu-beşinci poema Elşadın şair ovqatında kədər motivinə dönən doğma anasının vəfatına həsr olunmuşdur: "Yarımçıq ömür" adlanır. Vaxtsız itirdiy Tuğra anasının ölməzliyinə.

Bu əsər barədə yazmaq mənimçin çox-çox çətindir, müdrik yaşında itirdiyim və bu yaşımda belə, özümü yetim sandığım anam Lütviyyə gözümün önündə yenidən yaşadı. Qəribədir, bilirik, bu dünyada bir köçəri ömür sürürük, amma itkiyə dərin ağrı keçiririk. Bu mütləq qanun daha çox şairləri qıcıqlandırır, onlar təsəlli də tapırlar və etiraflarını gizlətmirlər.

Heç kim əbədi deyil,
Hamı gəldi-gedərdi.
Bu dünyanın yolu da
Bir ömürlük qədərdi.
Ömrün əcəl səmti var:
İnsan doğulan gündən
Üzü o səmtə gedir.

Bu həyat meydanını
Hamı bir gün tərk edir.

Elşad – şair – övlad “Anam, hey ...” harayı ilə kədərini boğmağa çətinlik çəkir; vaxtsız ölümlər daima ağırdır, ana itkisi isə daha ağır:

Bu vaxtsız gedişindən,
Vaxtsız həyatım soldu.
Dünyanın nəhs işindən
Gözlərim yaşla doldu.
Vaxtsız solan canım,hey...
Anam, hey !

“Yarımçıq ömür” lirik poeması ayrı-ayrı elegiya ruhlu nümunələrdən ibarətdir. ”Qırxıncı gün”, “Bacım Naziməyə”, “Niyə soyuq oldun, ata ocağı” və digər lirik hüznlü lövhələr yüksək ehtirasla yazılmış, ana itkisi ümumiləşdirilmişdir. Mən poemanın “Epiloq”unu oxuyanda müəllifin poeziyaya, onun tələblərinə məsuliyyətini bir daha duydum, şair kövrəkliyinə inandım. Həqiqətən, şair qəlbi sızıldayır, şeir dəqiqələrində ruh bədəni tərk eləyir, ilahi sevgiyə qovuşur. Epiloqda şairin nikbin ümidinə inanmağa çalışaraq – təsəlli misralarına diqqət edək :

Deyirlər özünə qayıdır hər şey,
Çox da insan ölür, təbiət solur.
Bu inama görə, hər doğulan da
Kiminsə ömrünün təkrarı olur.

Yəqin bu inamda bir həqiqət var,
Anama oxşayır körpəm də üzdən.

Balamın üzündə anamın ruhu,
Anamı evimdə böyüdürəm mən...

Elşad Səfərlinin nəşrə hazırladığı poemaları poetik istedadın yaradıcılıq közərtisindən alova çevrilən oddur – atəşdir, bu sonuncu sözü sözgəlişi demirəm: poemaların leytmotivində işıqla kölgənin harmoniyası duyulur,çünki bir  yandan insan dünyadan "küsür", o yandan dünyaya səsiylə gəlir. Hər ikisi ölümdür. Fərqi ondadır – hər iki maddiyyatda ruh yaşayır. Amma sözümün canı bambaşqadır. Elşad atasının itkisini həmişə ansa da, poemalarında bu kədərə işarə vursa da, mərhum atasına məhəbbətini şeirlərində tapır. Mən şairin əvvəllər bir şeirini oxumuşdum: "Atam haqqında bir-iki söz"dü. Təsir eləmişdi, ata yoxluğunu andırmışdı. Həmin şeiri bir də oxudum və məqaləmi o şeirdən bəzi misralarla tamamlayıram.

Haqqı həmişəlik boynumuzdadı,
Gərək xatırlayam yeri gələndə.
Adıma hörmətdir atamın adı,
Gərək hörmət olam adına mən də.

Bilmirəm Elşad Səfərlinin bu həzin və kövrək misralarını nə üçün oxudum?

Və bura qədər söylədikərim də istedadlı şairin poemaları haqqında sadəcə "bir neçə söz"dür. Bu poemaların ayrılıqda hər birinin tədqiq – təhlilə, daha geniş sözə layiq olması isə şübhəsizdir.

***10.02.2011***

## Dördüncü məqalə

## RUH GÜCÜNDƏN YARANAN İSTEDAD

Elşad Səfərli şairdir - böyük hərflə - poeziyaya onu ilhamı gətirmişdir–mütaliəsi yox. Və hələ məktəbli ikən şeirlər yazardı, lakin bir kimsəyə oxumurdu. Lirik şeirlərdi bunlar; həyatında ata-anası, qardaşı, doğmaları... vardı və yaşayırdılar. Onların nəfəsi, qayğısı həmişə üstündə idi. Ona, eləcə də bütün övladlara elə gəlir ki, analar, atalar ölmürlər, heç qocalmırlar. Poetik ürəkli cavanlar özlərini onların ağuşunda duyurlar, hiss eləyirlər. Gənclik də düşünürlər ki, daimi qonaqdır, heç nə dəyişməyəcək. Bir zaman mən də beləcə düşünürdüm. Bir vaxt "Azərbaycan müəllimi" qəzeti redaksiyasında Elşad Səfərli ilə məni tanış eləmişdilər, tələbə idi. Nazik, şüvərək, qara qıvrım saçlı bu oğlan yaddaşımda qaldı.

Və günlərin birində Elşadla görüşdüm, təxminən beş-altı il keçmişdi. Saçları, səsi, yerişi dəyişməmişdi. O, sezmişdi ki, mən onu süzürəm: hər bir əda yerindədirmi, yoxsa belə sürətlə? Mən Elşadı qabaqladım: - Maşallah, gördüyüm kimisən, - dedim, - Şeirlərin də cavandır, qocalmamısan.

O, gülümsündü, alnında tumurcuqlanan tərini sildi.

– Şeir qoymur, - ərkyana cavab verdi.

Şeir həm də qocaldır.

– Şeir şairlər üçündür, cavan, sağlam ürəklə yazılmalıdı ki ...

Susdu, balaca bir kitabı mənə uzatdı - ilk şeir kitabımdır. Sizin də az-çox payınız var. Axı, ilk seirlərimi sizə oxuyurdum. Açıq fikir mübadiləsi aparırdıq. Şair Əbülfəz Naxçıvanlını da yəqin unutmamısınız. Onunla az-az görüşsək də, tez-tez zəngləşirik.

Elşad Səfərli "Dünya ömür yoludur" şeirlər kitabını mənə verdi:

– Oxuyarsınız, -dedi, - Ürəyimdən keçənləri köçürürəm.

...Vərəqlədim, üzbəüz görüşümdə öz fikrimi bildirdim. Xoşuma gələn şeirlərdi. Öncə, hissləri təzəydi, kövrəkdi, nikbindi. Bu da təbiidi, axı Elşad hələ cavandır, bizi beş il ayırırdı...

Elşad Səfərli doğma Lənkərana qayıtdı, Lənkəran Dövlət Universitetinə, ədəbiyyatı tədris etməyə başladı...

Lənkəran ədəbi mühiti haqqında deyərdim ki, tarixi qədimdir bu mühitdə yaradılan ədəbiyyatın. Yerli (şərti mənada) şairləri Gərmətük kənd orta məktəbində oxuyarkən tanıyırdım, əsərlərini vərəqləmişdim. Şəkər Aslan, Xeyrulla Mehdi, Məmmədhüseyn Əliyev, Qüdrət Cəfərov, Mirhaşım Talışlı, Həzi Əliyev, Malik Şərif, Yaşar Rzayev, Mirhafiz Bahadır, Vaqif Hüseynov, Əlisa Nicat, Həbib Səfərov və unutduqlarım da yox deyil. Bu ədəbi nəsil yerini yeni qüvvələrə verdi və onlar etimadı itirmədilər... Elşad Səfərli isə öz poetik üslubunu qorudu, çünki taleyi ona istedad vermişdi, təmiz ürək bağışlamışdı, baxmayaraq yaşı azdı.

Mən imkan tapıb E.Səfərlinin "Dünya ömür yoludur", "Sözü ürəyində qalan adam", "Səhərə tələsən qatar", "Şair təkliyə məhkumdu", "Yalnız sevgi", "Poemalar" "Bu, Elşad Səfərlidir" şeir və poemalar kitablarını bir də vərəqləyirəm. "Bir də" kəlməsini təsadüfi demirəm. O şeirlərin yaşı iyirmini keçənləri də vardır, lakin poetik gücünü saxlamışlar. Ən bariz nümunə son kitabı "Bu, Elşad Səfərlidir"

(2012) adlanır. Mövzu rəngarəngliyi, poetik tərənnümün orijinallığı, ritmin intonasiyası... Poeziya üçün daha nə qaldı? Yazılma tarixini unutmuşam, bir bəndlik "Gecə" şeirini xatırlayıram:

Yas tutub, günəşə həsrət qalmaqdan
Qara don geyinən bir qızdır gecə.
Gündüzlər günəşə daim baxmaqdan,
Gözləri kor olmuş gündüzdür gecə.

Elşad Səfərlinin şeirlərində ritm, ahəng və ləngər "üçlüyü" bir-birini tamamlayır, amma bunu "yoğurub-yapmaq" hər şairin qismətinə düşmür. Xüsusilə, onda təbiət fantomlaşır: rəngiylə, səsiylə, hərəkətiylə - bu "üçlük" birləşir və bir şeirin predmetinə çevrilir:

Gecə yorğun düşüb, ay da gizlənib,
Ulduzlu köynəyin soyunub gecə.
Gündüzün həniri çəkilib deyə-
Qaranlığa düşüb, soyuyub gecə.

Yaxud:

Buludlar dağılıb göyün üzünə,
Buludlar düşübdü kimin izinə?
Bax, o qara bulud görən kimindi?
Başımın üstündə sıxlaşır indi.

Sosial-mənəvi proqnozlaşdırma: təbiətlə insan taleyi və fatalist yanaşma. Lakin nikbin sonluq - inam hissini iri "qara buludlardan" təmizləyir:

Bu bulud tələsir, yağış suyu var-
Hardasa quraq yer və kor quyu var.
Çapır göy üzünün qara atları-
Çapır yağış yüklü qanadlıları.

Elşad Səfərlinin poeziyası ona görə təmizdir - onun üçün şair və sənət məhfumları bir-birini tamamlayır, çünki o, istedadına inanır və cəsarətlənir. Şairdə bu sonuncu yoxsa, istəyinə nail ola bilməz! “Bu millət şumlanan torpaq yeridir” şeiri fikrimin təsdiqidir. İlk misralardan müəllif “pərdənin” arxasında “görünməyənləri” görməyə cağırır:

Şumlanır, şumlanır torpağın üstü,
Cüt qoşur, cütünə güc verir kimsə.
Kimsə bu torpağı alt-üst eləyir,
Altını üstünə çevirir kimsə.

Bu “çevirənin” şakəridir: gülə də, ota da fərq qoymur – bir-birinə qatıb şumlayır. Tikanı odlayır. Fərqinə varmır ki, tikanın oduna gül yanır. Belə vərdişdən, haqsızlıqdan şikayətlənənlər də “şumlanır” - faciə deyilmi?

Şumlayır ölkəni cütçünün biri,
Asi kəsilənlər damlanıb gedir.
Yaxşıyla pisinə heç fərq qoyulmur,
Say-seçmə oğullar şumlanıb gedir.

Şair daha “səbrə” tab gətirmir, axı, haçanacan “səbrə” sığınmaq olar?

Çıxır vaxtaşırı düşmən ovuna,
Bu xalqın içində çoxu düşmənmiş.

Kimsə bu milləti şumlayıb keçir
Bu xalqın səbri də, Allah, nə genmiş.

Elşad Səfərli “Bu dünya”, “Buz heykəllər”, “Ağ gün, qara gün”, “Bizə əl çalmağı öyrətmişdilər”, “Bu dünya oxşayır mənim ömrümə”, “Məmləkətə ulduz yağışı yağır”, “Qurd quzuyla otlayır” və s. şeirlərində həyatın sosial-əxlaqi xarakteristikasını poetikləşdirir; həyat yaşamağın ekvivalentidirsə, nə üçün insanları, öz sakinlərini yaşamağa qoymurlar. Bəlkə haçansa insan təkrarən dünyaya gələcək – boş bir yalanı aşılamaq nə lazım?

Bu dünya oxşayır mənim ömrümə,
Narahatdır, rahat vaxtı çatışmır.
Bəşər dönüb zəngin ilə yoxsula-
Yoxsulların toy-büsatı çatışmır.

Və nəhayət, “Qurd quzuyla otlayır” şeirində  şair sarkazmı - poetik ovqatda:

...Quzu xasiyyətində sakitdir, mum kimidir,
Qurd görən, rəftarında nə qədər səmimidir?
Qurd quzuyla otlayır, nə kövrək mənzərədir,
Bəs çobanın əlində tutduğu çomaq nədir?!

Elşad Səfərlinin lirikasında məhəbbət sızıltı ilə yoldaşlıq etmir, amma hicran-ayrılıq-tənhalıq leytmotivinə çevrilir. “Unut məni”, “Gizli sevgi”, “Qış soyuqluğu”, “Harasa getmisən”, “Səni sevdiyimi yaxşı bilirsən” seirləri sakit, ümidli bir şairin poetik yarpaqlarıdir: yaşılı da var, sarısı da, amma bu yarpaqlar hansısa fəsildə ömürlərini yaşamış-

lar. Bəli, sevgidən, məhəbbətdən “indiki zaman”da danışmazlar! Amma...

Elşadın sevgi lirikasında mütləq mənada olmasa da “sevmək zoru” var:

Mən səni
Dəlicəsinə sevmək zorundayam.
İndi özümdən çox
Ruhumun hayındayam.

Və Nazim Hikməti yada salır:

Onunçün, qadın,
Mən səni
Nazim Hiukmət demişkən:
Dəlicəsinə sevirəm,
Və sevmək zorundayam.

Elşad Səfərli – bunu heç bir mübaliğəyə, yanlışlığa yol vermədən - qətiyyətlə deyirəm – şeirimizdə yaponların “xokku” janrında layiqli yazan ilk şairdir. Bu cür düşünən tək mən deyiləm. Əminliklə söylədiklərimdə heç də yanılmadığımı tarixçi alim, professor, ədəbiyyat adamı, şair Şahin Fazil “Yaponiya Səfərnaməsi” kitabındakı bir qeydi ilə təsdiqləmiş olur: “Əgər Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza kimi ordenli şairlər hayku (yəni xokku – müəllif) yazsaydılar, tənqidçilər onların hayku yaradıcılıqlarını gen-bol tərifləyər, barələrində məqalə və monoqrafiyalar yazardılar. Bu gün hansı tənqidçi Böyükxan Pərvizdən, Elşad Səfərlidən hayku yazan şairlər kimi söz deyib?”. “Onlar nə yazacaqlar ki?” – deyə düşünən tənqidçi, şeirlərini heç oxumadan bu şairlərə və şəxsən mənə əhə-

miyyət vermir.” [Bax: Şahin Fazil. “Yaponiya Səfərnaməsi”. Bakı: Elm və təhsil, 2011, s.100]. Haqlı gileydir. Belə dırnaqarası tənqidçilərdən etikasızlıq görənlərdən biri də Elşad Səfərlidir. Bir də ki, tənqidi mövqeyini dost-təmənna prinsipi üzərində quran tənqidçi E.Səfərli haqqında nə yazacaq ki?..

Elə buna görədir ki, E.Səfərli əsl oxucu kontingentinin böyük marağına səbəb olan “Bu, Elşad Səfərlidir” kitabında bu cür dırnaqarası tənqidçilərə qarşı mənfi münasibətini çəkinmədən poetik müstəviyə cəlb etmişdir. Kitabda bu tip şeirlər bir silsilə təşkil edir. Tənqid sənətini urvatdan salan belələrinə qarşı şairin tənqidi çox kəskindir. Və ifşa hədəfi bu şeirlərdə heç də qeyri-müəyyən yox, əslində həssas oxucu üçün aşkardır:

Yan, tökül, uğurumu
götürməyən “tənqidçi”,
Tənqidçi yox, yanıldım,
əslində bir tərifçi.
Bir tənqid çamurunu
daşlamada təkidçi,
Bu, Elşad Səfərlidir.

Olsun dodaq büzəsən
şeirimə tez də sən,
Unutma, qəlp sözündən
öncə mənəm tez bezən.
Sənin kimilərinin
özünə dodaq büzən,
Bu, Elşad Səfərlidir.

Təqdirəlayiq haldır ki, E.Səfərli beləlderinə qarşı poetik mübarizədə qələbəyə uğur inamını itirmir. Bu misralar da heç də özünəvurğunluq, özündən razılıq yox, özünə inam kimi səslənir.  Çünki şeirlərinin səviyyə gücünə, qüdrətinə əmindir. Məqamı gələndə öz lirik "Mən"inin cılız, kiçik "mən"lərdən yüksəklikdə durduğunu ifrat təvazökarlıqdan "sıyrılıb" deməyi haqlı olaraq bacarır:

Yetər təvazökarlıq,
        kimdən pis yazdım görən.
Niyə öz söz "Mən"imdən
        qürurla deməyim mən.
Neçə "mən", "mən" deyəndən,
        yüksəklikdə duran "Mən",
Bu, Elşad Səfərlidir.

Və düz də edir.

E.Səfərli sənətdaşlarının da haqqını yüksək qiymətləndirməyi, poetik dəyərləndirməyi bacarır. Özgə uğuruna öz uğuru kimi baxır və iftixar hissi keçirir. Onun çağdaş şeirimizin böyük istedad sahibi Salam Sarvana həsr etdiyi nümunələrdən biri olan "Hamı "Salam, Salam" deyir" şeiri bu qəbildəndir. Şeirdən iki-üç bəndə diqqət edək:

...Çoxu bəlli...göz görəsi
Özünü öyür hərəsi.
Varmı Salamtək birisi,
Hər misrası kəlam olsun?
Vurğun görsəydi indini,
Təzələrdi bir bəndini:
"Söz əhlinin komandanı,
Mayakovski yox, Salam olsun".

Sözü zülmətdə şam kimi,
Əzbərlənir kəlam kimi.
Çətin bir də Salam kimi,
Şair hələm-hələm olsun...

Azərbaycan poeziyasında yazılan ilk xokku nümunələrindən ibarət olan 50-dən artıq şeiri məhz Elşad Səfərlinin "Şair təkliyə məhkumdu" kitabında oxumuşam. Üç misralıqda poetik ovqat yaratmaq çətindir, o isə bunu edir:

Böyük sevgi
Yalnız bircə dəfə
Başa gələn sevgidir.

Göyün sinəsinə
Kimsə əl atıb,
Dırnaq yeri qalıb.

Ağacların halına
Bir səs hıcqırırdı-
Balta səsi.

Bir məqamı da qeyd etməyə dəyər. Belə ki, E.Səfərli poeziyası milli olmayan, Avropa və digər mənşəli şeir şəkilləri sahəsində təkcə yapon xokkusu ilə məhdudlaşmır. Xüsusən, onun sonet janrında (yuxarıda toxunmuşdum) yazdığı şeirlərinə Azərbaycan sonetistikası üçün yeni bir mərhələnin başlanğıc nümunələridir desək, yanılmarıq. O, bu janrda ilk dəfə olaraq Avropa sonet kanonikasına uyğun şeirlər yazmışdır. Sonetin yeni növlərinə poeziyamızda müraciətdə ilkinlik də onun qələminə məxsusdur. "Sonet haqqında sonet", "monostix", yaxud "broxokolon", "ak-

rostix", "kodalı akrostix" və s. bəzi yeni sonet növlərinin şeirimizdə ilk yaradıcısı məhz Elşad Səfərlidir. Ədəbiyyatşünas alimlərdən: S.Əsədullayev, Ə.Xəlilov, H.Həşimlinin məqalə və monoqrafiyalarında bu barədə ətraflı məlumat vermələri də fikrimizi təsdiqləyir.

Qəribədir ki, müəyyən qədər poeziyamızda öz fərdi möhürünü təsdiqləyənlərdən biri olmasına baxmayaraq, bu istedadlı şair heç də özünü bəziləri kimi təbliğ etdirməyin tərəfdarı deyil. Buna şahidəm ki, onu dəfələrlə efirdən, müəyyən tədbirlərdə yaradıcılığı ilə bağlı çıxış etməyə dəvət etsələr də o, təkidlə bu dəvətlərdən boyun qaçırmışdır. Maraqlıdır ki, 10-a yaxın sanballı şeir və poemalar kitabının müəllifi bircə dəfə də hansısa redaksiyanın qapısını çap üçün açmamışdır. Vaxtilə C.Novruz, N.Həsənzadə kimi görkəmli şairlər baş redaktoru olduqları "Ədəbiyyat qəzeti"ndə Elşadın şeirlərinə məhz öz təşəbbüsləri ilə məmnuniyyətlə yer vermişlər. Sonralar isə Davud Nəsib, Ağacəfər Həsənli kimi istedadlı şairlər də onun şeirlərini müxtəlif qəzet və jurnallara təqdim etmişlər. Bu sətirlərin müəllifi də onun neçə şeirini alaraq çap etdirmişdir. Kitablarının nəşrində isə Azərbaycanın ilk poliqrafçı alimi Şəddad Cəfərovun təmənnasız xidməti danılmazdır.

Təvazökarlıq yaxşı şeydir, lakin öz həddində. Düşünürəm ki, Elşadın xarakterindəki bu xüsusiyyət ədəbi mühit və müasir zaman kontekstində heç də onun xeyrinə deyildir. Bunun nəticəsidir ki, Elşad Səfərli imzası bu gün ədəbi sferada heç də tez-tez gözə dəymir. Belə bir hal isə, mən deyərdim ki, onun imzasını poeziyasına yaxından bələd olanlara olmasa da təsadüfi oxucuya bəzən unutdurmuş olur. Mən bu qədər də yazdıqlarının çapına biganə olmağı istedadlı qələm dostuma məsləhət görməzdim. Bir halda ki, "ağlamayana süd vermirlər", bu gün Yazıçılar Birliyinin

üzvlərinin əksəriyyəti məhz Birliyin qapılarında yaxşı “ağladıqları” üçün – buna haqqı çatır, ya çatmır, fərqi yox-dur, - “Prezident təqaüdü” alır. Elşad Səfərli kimi buna haqqı çatan istedadlı şairlər isə heç yada düşmür. Nə isə... mövzumuzdan yayınmayaq...

Elşad Səfərli yaradıcılığında poema xüsusi yer tutur və onun “Poemalar” kitabı işıq üzü gördü: 2011. Təbii ki, əl-yazmasını mənə göstərdi, nigarandı ki, oxuyub qane olaca-ğammı? Altı poema idi: “Qiymət”, “Əlvida kirli Rusiya”, “Yarımçıq ömür”, “Böyük qardaş”, “Vadim” və “Qisas himnləri“. Məmnun qaldım: həyatın epik-lirik təsviri, şairin yaxından tanıdığı insanlar və alınan-yaşanan şair hisslərinin təzahürü. Bu “üçlük” məni elə tutmuşdu ki, geniş “ön söz” yazdım. Poemalarda nikbin notlarla yanaşı kövrək-bədii məqamlar da yox deyil; mən bu prosesə təbii baxıram. Doğmaların itkisi şair üçün bir közərən ocaqdır, ürəkdə qalanır və sönmür.

Poemaların ideya-məzmunu, poetik xüsusiyyətlərin-dən danışıb özümü təkrarlamaq istəmirəm. Və özümdən bir iqtibas gətirəcəyəm: “Elşad Səfərlinin poemaları poetik istedadın yaradıcılıq közərtisindən alova çevrilən oddur-atəşdir; bu sonuncu sözü xoşgəlişi demirəm: poemaların leytmotivində işıqla kölgənin harmoniyası duyulur, çünki bir yandan insan dünyadan köçür. O yandan dünyaya sə-siylə gəlir, hər ikisi ölümdür. Fərq ondadır – hər iki mad-diyyatda ruh yaşayır...”

Elşad Səfərli yaradıcılığının digər görünən tərəfi elmi və pedaqoji fəaliyyətidir. O, BDU-nun filologiya fakül-təsini bitirmişdir, görkəmli alimlərdən dərs almışdır, filologiya elmləri namizədidir, Lənkəran Dövlət Universite-tində “Humanitar və pedaqoji elmlər” fakültəsində ədəbiy-yat, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqidin tarixi, türk xalq-

ları ədəbiyyatı və s. fənlərdən mühazirələr oxuyur. Elşad Səfərli, həmçinin məhsuldar tədqiqatçıdır. Belə ki, xalq şairi Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubundan dissertasiya yazmış və eyni adda monoqrafiyası çapdan çıxmışdır. Respublikanın elmi jurnallarında məqalələri vaxtaşırı nəşr olunmaqdadır. "Sonet janrı və Azərbaycan soneti" mövzusunda doktorluq dissertasiyasını bitirmiş, müdafiəyə təqdim etmək ərəfəsindədir. Və Elşadın elmi-bədii yaradıcılığı haqqında ədəbiyyatşünas-alimlər orijinal fikirlər söyləmişlər. Bu onu göstərir ki, şair və alim Elşad Səfərli maraqlı şəxsiyyətdir: müsahibdir, dostdur, ailə başçısıdır, övlad atasıdır.

Əlbəttə, tələbəmlə, vaxtilə "Maarif" Dövlət nəşriyyatında birgə çalışdığım (mən baş redaktor və direktor idim, Elşad irihəcmli şöbənin müdiri idi) şəxs kimi qürurlanmaya bilməzdim. Gəncliyindən Elşadda incəsənət (geniş mənada) elmlə, intellektlə harmoniya yaratmışdır. Biz o illərdə tez-tez bu barədə söhbətlər aparırdıq, mübahisələrə laqeyd qalmırdıq. Mən hiss etmişdim elmlə incəsənət-rasionallıqla poetik təfəkkür əriş - arğacdır. Necə ki, elm ümumidən xüsusiyə, yəni təkə gedir, bunun üçün də anlayışlar, formulalar, ideyalar elmin dilidir. İncəsənət isə xüsusidən, konkretdən ümumiyə gedir, buna görə də obrazlar incəsənətin dilidir. Belə ürəyə və ağıla malik yaradıcılar, şübhəsiz, kollektivə, oxucuya, tələbəyə fayda gətirir.

E.Səfərlinin yenicə çapa verdiyi "Bu, Elşad Səfərlidir" kitabı (bu barədə sonra) daha geniş bir mövzunun materialı olduğu üçün, haqqında bu kiçik yazımızda toxunmağı lazım bilmədik. Çünki bu qeydlərimiz yalnız onun ömrünün 55 illiyi ilə əlaqədar yaradıcılığının müəyyən məqamlarına ötəri bir baxış xarakteri daşıyır. Onun yeni kitabı daha geniş rakursdan ədəbi-tənqidi baxış tələb edir. Haqqında ilk

təəssüratım isə belədir ki, bu kitabın ədəbi prosesin və əsl oxucu marağından kənarda qalmayacağı şübhəsizdir.

Şair-alim Elşad Səfərlinin yaradıcılığı, fəaliyyəti haqqında daha geniş danışardım və bunun üçün söz və fakt imkanlarım yetərlidir. Amma fikrimdən daşındım: axı Elşad cavandır, yazır, yaradır, qarşısında üfüqlər açılır.

Mən nə deyərdim? Elşad Səfərli cəsarətli yaradıcı adamdır, inanmıram bu keyfiyyət onu tərk eləsin, çünki bu, onun varlığındadır. Necə ki, filosof S.Endlirin sözləri ilə yazıma nöqtə qoyuram: "Cəsarət qol gücündən deyil, ruh gücündən yaranır".

***"Lənkəran" qəz., 09 iyun 2011-ci il.***
***"Bu, Elşad Səfərlidir" (2012)***
***kitabına "ön söz".***

**Beşinci məqalə**

## QƏFİL ZƏNG, YAXUD ELŞAD SƏFƏRLİNİN YENİ KİTABINA KİÇİK BİR MÜQƏDDİMƏ

Onun zəngiydi, şair Elşad Səfərlinin. Bu qəfil səs məni istər-istəməz 80-ci illərə aparır. Mən qəzetdə işləyirdim, o isə universitetdə oxuyurdu. Tanışlığımıza səbəb şair Əbülfəz Naxçıvanlı idi. Arıq, uzunboylu, qıvrım saçlı bu cavanın ləhcəsi mənə tanış gəldi. Birbaşa soruşdum:

– Lənkərandan deyilsən ki? Sual bir az yerinə düşmürdü. Amma dəbdəydi: “Haralısan?” sözü lüğət fondumuza keçmişdi. – Bəli, -dedi. –Sizin oxuduğunuz Gərmətük kənd məktəbini qurtarmışam. Gözlərində işıq gördüm. Bu, onun bərkdən-boşdan keçməməsi ilə bağlı idi... Mən, həqiqətən, həmin məktəbdə təhsil almışdım. Və bir gün Əbülfəz Naxçıvanlı dedi ki, Mirzə, sabah, şənbə günü dənizkənarı parkda görüşək, çaya qonaq edəcəyəm, Elşada da deyərəm gələr. Təzə şeirlərim var.

Və görüşdük. Dənizkənarı parkda. Və birazdan günəş üzə çıxacaqdı. Dənizin başında tac olacaqdı. Elşad neçə ildən sonra yazacaqdı:

Günəş bir nöqtədə
Elə bil donub qalmışdı.

Göy yaxasına günəşi
Qızıl medaltək taxmışdı.

–Mirzə, - Əbülfəz dilləndi, - Oxuyum bu şeirləri, fikrini deyərsən. Obyektivliyinə şübhəm yoxdu. - Stəkanı kənara itələdi. Və iki-üç lirik şeir oxudu. Mən tərəddüd eləsəm də yaddaşımın aldatmamasına əmindim.

– Öz şeirlərini oxu. – Astadan dilləndi. – Səninki deyil bunlar.

O, əlini uzatdı adəti ilə:

– Əhsən, Mirzə, necə fərqləndirdin? - İri çaynik əlindəydi, qapağını kəklik quşunun başı kimi tutmuşdu. Elə bil üzəcəkdi.

–Sənin üslubun ayrıdı.

Beləcə Elşad Səfərlinin ilk şeirlərini dostu Əbülfəzin dilindən eşitdim. İşıq vardı misralarda. Təzə nəsə deməyə daxili istək vardı.

Əbülfəzə mənim etüd-tərifim xoş gəlmişdi, ovqatı köklənmişdi. Çünki Elşadın ilk uğurlarına bir dost kimi o da çox sevinirdi.

–Mirzə,- astadan pıçıldadı.

Duraq, Venetsiyanı bir az gəzək. Və sözsüz tabe oldum...

Elşad Səfərli illəri boşa vermədi, yazdı-pozdu. Qorxmadı poeziyanın qanunlarından. Tale elə gətirdi, mən "Maarif"ə baş redaktor gedəndə Əbülfəzi də, Elşadı da özümlə ora apardım. Amma işdən sonra "poeziya dəqiqələri"miz səngimədi. Onlar ardıcıl mənə "hesabat" verirdilər.

Elşadda ən yaxşı keyfiyyətlərdən biri inadkarlığı idi, istedadına güvənciydi, kökdən düşməməsiydi. Bu da onun nikbinliyiydi, inamıydı. Və bir şeirində demişdi:

Oxucum, borcluyam yaxşı yazım ki,
Oxunsun, sevilsin hər şerim mənim.
Sənin yaddaşında  min sətrim varsa,
Görən qalacaqmı bir sətrim mənim.

Və illər ötüb sovuşdu, bir-birini dana-dana gəlib çıxdı günümüzə. Elşadın yığcam, amma bitkin kitabları işıq üzü gördü. Bu məqaləni yazanda ötəri o məcmuələri nəzərimdən keçirdim, oxumadım yenidən. Çünki vaxtilə oxuyub geniş məqalə də qələmə almışdım. Əlbəttə, eyni şairdən təkrar söz demək çətindi, tənqidin də təzəsi olmalıdı. Amma ümidim onda yarandı, mənə telefon açdı (Sağ olsun, tez-tez bunu eləyir, bəzi dönüklərdən fərqli), hal-əhvalımı sordu, görüşmək istədiyini bildirdi:

–Allahverdi müəllim, mümkünsə . - Susdu. – Bu gün Lənkərana gedəcəyəm.

Elşadın qoltuğunda qovluğu vardı, ürəyimə damdı ki... Acizanə rica elədi oxuyum təzə şeirləri, sadəcə fikrimi deyim. Vəssalam. O, yaxşı bilirdi ki, Bakıda perik düşənlərdən biri də elə mənəm, Salyan Müəllimlər İnstitutunun filialında işləyirəm. Vaxtım Salyan-Bakı yollarında təkərlər üstündə parçalanır, ovxarlanır. Nə eybi, tale qismətidi.

Və bu şeirlər mənimlə yol yoldaşı oldu. Bir müddət qovluğa əl vurmadım, ovqatım yoxuydu. Ürəyimdən sanki daş asılmışdı. Poeziyaya yer çatmırdı, orada elmi informasiyalar labirintləşirdi, konservləşirdi. Yaradıcılıq psixologiyası elədi, hər "kvadrat"da hər bir janrın öz yeri-payı olur və arı pətəyinə bənzəyir, bal uğrunda mübarizə gedir. Yox, daşlaşmış ürəyimi "cəzalandırdım" axır ki.

Elşadın poetik yaradıcılığına 3-5 ildən sonra qayıtdım və son şeirlərini həvəslə oxudum. Əvvəla, bölümləri: "Şəkil"lərdən ibarətdir, hər ayırmada şairin fikir fərdiliyiylə

seçilir. “İki yolayrıcında” bölməsində sənət, istedad barəsində qısa, lakonik şeirləri ilk diqqətimi cəlb elədi. Ümumiyyətlə, Elşad istedadsızlığı ilə poeziya meydanına atılanları əvvəlki kitablarında da atəşləmişdi. Ardıcıl bu qənaət təbiidi, mətbuat və nəşr azadlığı belələri üçün yaşıl işıqdı. “İstedad”, “Kitabları çox çıxan şairə”, “Sürtülmüş aşıq” və “Boz axın” haqqında ikinci şeir” bu qəbildən olan yazılardır. Şeirlərin konkret qəhrəmanı bəllidir, şeir kürsülərini fəth eləyənlərdir. Şeirdə kəskin iradlar az deyil, əruzu bilməyən “qəzəl” yazır, çoban da bu peşəylə məşğuldu, çəkməçi də, bazarkom da...

“Torpağı işğal millət, şairliklə məşğuldu” - desə də ümidini üzmür: “Yaxşı ki, yaşayır əsl şairlər, yaxşı ki, yazılır əsl şeirlər”. Amma Elşadı düşündürən “şair xalqın” torpaq dərdi, qaçqınların Vətən həsrətidir. Haqlı olaraq “Bu millət şumlanan torpaq yeridi” deyir. Adətən, torpağı şumlayıb, ondan bol məhsul alarlar, torpaq bərəkət verər. Bizimsə payımıza bu torpağı alt-üstə çevirənlər, ermənilərlə sövdələşənlər düşmüşdür. Şair nəfəs ala-ala bu kədəri udur, ciyərlərinə aparır:

Əldən verdiyini qaytarmaqdansa,
Üstəlik, yağıya yer verir kimsə.
Bu millət şumlanan torpaq yeridi,
Altını üstünə çevirir kimsə.

Şeirin davamı kimi “Nə vaxt”da şair əldən uçmuş Qarabağ nisgilini poetikləşdirmişdir: haqlı olaraq “çeçen qədər qeyrət yox bizdə, düşmən at oynadır türk elimizdə” yazır. Müqayisə ibrətlidir. Erməni əclaflarına qarşı hücumun qarşısını almaq üçün Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasova yaylığını yerə atır. Bu, müsəlman üçün ciddi

adətdir, qan tökümünün qarşısını almaqda. Xuraman xanım da bu yolu tutdu. Güman ki, bu, ideologiyanın təşəbbüsüydü. Fəqət, xristian əclaflarına belə kövrək, insani hisslər təsir göstərə bilməzdi və yanılmadıq! Elşadın "Yerə atılan yaylıq" balladası da bu məsələyə həsr olunmuşdur. Qəzəbkin pafosu güclüdür, düyünlənən yumruğun səsi duyulur, səbri duyulur:

Qalx xalqım, düşmən önündə
Heç zaman dizin əsməsin.
Kinin coşanda qarşını
Qadın yaylığı kəsməsin!

Bir adsız şeirində isə şair tutarlı detalla məğlubiyyət bizim, general bizim,- deyə antaqonist paralelini aparır. Məğlub məmləkət general olmaq həvəsinə düşməz. Ulduz yağışı yağır, hara? Qaçqın, köçkün balaları, boynubükük fağır uşaqları tamaşa eləyir çiyinlərə yağan ulduzlara:

Göydən iri-iri
Ulduzlar yağır.
Paqonlarına
Növbəti ulduzları düzməknən məşğuldu
Məğlub ordunun generalları.
Döyüş uğurları var bəlkə?..
Bundan qürur duyurmu
Çadırlı-
Qızları qara çadralı ölkə?!

Nə deyəsən? Susasanmı?  Biz susduq, yaxşı ki, şair Elşad Səfərli sözünü dedi!..

Elşadın yaradıcılığında şair-sənət paraleli müvazi getmişdir poetik həllində. Yuxarıda dediyim kimi, istedadın

həqiqiliyinə müsbət yanaşır və özünü "zora" salanlara qarşı barışmaz olur. Həmin poetik ovqat "Şairlər ürəkdən ölürlər ancaq", "Şair təkliyə məhkumdu", "Sənət dostlarıma" şeirlərində ifadəsini tapmışdır. Təbii ki, şair varlığı qeyri - adi hisslərin xəmirindən yarandığından onun şeir yazması da müəmmadır, sirdir. Axı, şairin ürək antennası var ki, adi haqsızlığı da "tutur" və reaksiyanı "dalğalarıyla" çatdırır: "Hər şeyi ilk öncə duyur ürəyi, Sözü düyün düşsə, döyür ürəyi; Dərd ki, yavaş-yavaş yeyir ürəyi; Bir gün də başını yeyir şairin". Yaxud:

Şair təklik şairisə,
Ömrü tənhalıqla birsə,
Şeri tənhalıq şerisə
Şair təkliyə məhkumdu.

Elşadın bir şeiri var: "Ağlama, şerim, ağlama". Mən bu nümunəni bir dəfə oxudum və üzərindən keçdim. Bir də vərəqləri çevirəndə oxumağım gəldi: Necə yəni, şeir ölmür, axı, o, daima nəfəslidi, diridi. Bəs necə olur göz yaşını tökür? Elşad uğursuz anları, günləri, ayları... üçün əslində niyə göz yaşına güvənir? Axı, şeir onun övladıdır, bəs niyə özünə yer tapa bilmir? Bəlkə "bir vəfasız qızdan ötrü"dür, sinəsini dağlayır?

Olan olub, ölən sevda
Gəlməz ağlıma, şerim, -ağlıma.

Şairin kövrək yalvarışıdır bəlkə?

Bir içim su səpərsiniz,
Yanan bağrıma, şerim, bağrıma.

Mən ölsəm böyük sevgimi,
Yetir oğluma, şerim, oğluma.

Bu da naməlum təsəllidi, şairi içərisində göynədən onun tənhalığıdı, təkliyidi! Tale isə, şair, qabağındadı!

Poetik fikir diapazonlu labirintlər silsiləsidi, bir-iki şeirlə ömrünü başa vurmur. Poetik informasiya atomlarsayağı parçalanır, səpələnir. "Ağlama, şerim, ağlama" radiasiyalarını ötürür. "Xoşbəxt ölü", "Bir məzar tənhalığı var", "Allah, söylə günahım nə" şeirlərində poetik informasiyalar itməmişdir. Birinci şeirdə poetik fantastika anlaşılır: Ölüm insan vücuduna ölüm qorxusunu salır və bu mübhəm hiss yuxuda ölən üçün sanki yatıb yuxusunu alır. Bəli, ölümə heç kəs sevinmir və gözünün içərisinə də cəsarətlə baxmır, absurddur bu. Elşad da ölümün məntiqini qəbul edir, amma fantastik inamıyla:

Nə xoşbəxt ömürdü tale,
Son gününü bilməyəsən.
Yatıb, yuxuda öləsən
Öldüyünü bilməyəsən.

"Bir məzar tənhalığı var" şeirində - Elşad pessimist əhvalını şeirə çevirir, bu zahirən elədir:

Bir məzar tənhalığı var
Olduğum bu otaqda.
Bir məzar soyuqluğu var
Girdiyim bu yataqda.

Bunlar yaşanmış hisslərdir və güman ki, şairin poetik tənhalığı deyil; taleyin ona bəxş elədiyi tənhalıqdır. Amma ruhdan düşmür, haradasa bir işıq axtarır:

Burda isə
hərdən tərpənirəm,
hərdən sinədolusu "ah" çəkirəm-
kefim istəyəndə.

"İki yolayrıcında" bölümündə Elşad Səfərlinin təbiət lövhələri istidir, əlvandır, hərəkətdədir. "Payız", "Gecə" və digər adsız şeirləri həvəslə oxudum. Elşadda təbiətə anadangəlmə mehr, duyum onu yaxşı şeirlər yazmağa motivləndirir. Bu barədə ətraflı danışmışam. Məsələ ondadır ki, Elşadda təbiəti sözə tutmaq, dialoqa girmək instinkti güclüdü. Təbiətin predmetləri əşyalaşır, canlı atributa çevrilir. Lakin müşahidələr göstərir ki, təbiəti duymaq, mənimsəmək şairdə ilham mənbəyi kimi gərəkli obraza çevrilir. Bir obraza baxaq:

Gündoğanda
Kimin qanı çilənib üfüqlərə?
Qırmızı ləkələr
Qan laxtalarıtək
Gözə dəyir.
Günəş
Üstündə insan başı kəsilən
Qıpqırmızı
Edam kötüyünə bənzəyir.

Tam kövrək etüd-lövhədir. Yaxud, gecə mənzərəsini poetik çərçivəyə salır və statik spontandan çıxarır: Gecənin yorğunluğu, ayın gizlənməsi, ulduzların köynəyini soyunması... Bunu seyr eləmək gecəni obrazda qavramaq deməkdi:

...Şahın qızı girib yuxusunamı?
Yaman şirin-şirin uyuyur gecə.

A.S.Puşkinin "Boldino payızı"nın təsiriylə yazdığı şeir də kövrək hisslər doğurur:

Qaytardım özümə yazmaq təbimi
Puşkinin "Boldino payızı" kimi.

Və Elşadın bu şeirini pıçıldayanda Puşkinin payız, xəzan ömrünü tamamlayan misralarını xatırladım özümdən asılı olmadan:

Ey solğun qəm! Ey xislətin cazibəli
şux afəti,
Vidalaşıb sönən solğun hüsnünü
çox sevirəm mən.
Xoşlayıram dəbdəbəylə solub
gedən təbiəti,
Həzz alıram qızıl rəngli paltar
geymiş meşələrdən!

E.Səfərlidə dünyanın dərki fəlsəfəsi güclüdür. Hamımızın tanıdığı və özünü onda tapdığı Dünya niyə bu qədər nizamından çıxıbdır? Milyonlarla olayların şahidi və milyonlarla şəhidin iştirakçısı dünyanın ən böyük günahı insan psixologiyasını qarət etməsidir. Şair də özüylə dünya arasında vakuum axtarır, oraya kəsif hava sizməsın. "Bu dünya" şeirində bu çarpaz bucaqlar poetik dillə verilir. Məsələ ondadır, yaxşı nə varsa oğurlanıbdır; Yoxsulların toy-büsatı, vaxtın narahatlığı, döyüş ruhu, cəng ovqatı və s. Amma dünya yerindədir və nizamı pozanlara yapılan heykəllərə də biganə qalmır. Zaman atının belində saxta tunc, bürünc heykəllərin davasına girir:

Zaman dəyişən kimi,
Tarixin alt layları
İstiləşən kimi,
Gün düşən kimi
Yaddaşımızın quzey qatına,
Bu heykəllər də öz-özünə əriyib
Töküləcək ayaqlar altına.

Elşad Səfərlini nikbin görmüşəm; elə bir çətin həyat da keçirməmişdi... O, sevgisinə də Bakıda yox, doğulduğu elatda qovuşdu. Bu həyat rakursları onu nikbin lirik şeirlər yazmağa çağırmışdı. Mənə təqdim elədiyi məcmuədə də məhəbbət ruhlu misralar az deyil. Ürəkdən yazıbdır, sevən ürəyin əks-sədasıdır. Lakin... "Unut məni", "Səni sevdiyimi yaxşı bilirsən", "Qış soyuqluğu", "Sevgisiz keçən günə" şeirləri adından motivlərini açıqlamış olur. Amma bu şeirlərdə öləziyən sevginin kədərli notları boylanır. Bilmirəm bu, şairin hansısa hissinin törəməsidir, yoxsa yaradıcılıq psixologiyasının yeni istiqamətidir. Bunları şairə yasaq etmək qeyri-mümkündür. "Unut məni"də sevgiyə sərt mesaj, "Gizli sevgi"də eşqi vədəsiz açmağı məsləhət görmür. "Qış soyuqluğu"nda gördüyü laqeydlikdən, nankorluqdan , baş soyuqluğundan şikayətlənir. Bütün bunlar artıq yazılmış şeirlərin predmetidir. Buna baxmayaraq, bir işıq üzü də var axı!

Səni qəlb evimə çıraq bilirəm,
Dərdlərimə şərik, ortaq bilirəm,
Bu eşqi acmağı artıq bilirəm...

Yaxud:

Mən səni
Dəlicəsinə sevmək zorundayam,
İndi özümdən çox
Ruhumun hayındayam.

Şairin hisslərinin "ikinci qatı" oxucusuna başqa bir ovqatı pıçıldayır, əlbəttə, poetik ovqatla. "Ruhum qapınıza gəlir hər gecə" şeirində hiss eləyirsən ki, Elşad ürəyilə hardasa bacarmır, ötən sevgili çağlarını salıb itirmək istəmir. Axı, sevgi bir kərə tapılır və ömürlük qəlb evinin qıfılına çevrilir, ona heç bir qızıl açar düşmür. Görünür, tale öz hökmünü diqtə eləyir. Elşad bir ata itiribdir, dediyim kimi, qeyrətli, zəhmətkeş. Atasızlıq övlad üçün yaşa məhəl qoymur. Belə anlarda ata heç övladlarının atasızlığını istəməz. Bəlkə bu, həqiqətdir? Bəlkə analogiyadır? Bəlkə də!

Boğdun sevgimizi,
ayrıldın axır,
Baxmadın bir eşqin fəryadlarına.
Tanrı qıymadığı atasızlığı-
Özün qismət etdin övladlarına.

"Bəlkə də!" – Təsadüfidirmi tərəddüd, yoxsa hər şeyə nöqtə qoyulur. Şeirin sonundakı işıq nikbinlik oyadır haradasa:

...Amma neyləyim ki,
ölmüşəm deyə,
Ruhum qapınıza gəlir hər cümə.

Elşad Səfərli dünyəvi şeir janrlarına da müraciət etmişdir. Bu mənada "xokku"lar, "Sonet"lər onun yaradıcılığında alınır. Düzü, mən ilk dəfə "Xokku"nu Elşadda oxudum. Bir növ özü izah etmiş oldu:

Xokku
On yeddi hecalı deyilsə,
Xokku yox, hoqqadır-

qənaəti sərtdir, ona görə ki, bu mini janrın poetik imkanları o qədər də polifonik deyil. Şair də bir növ etiraf edir:

Gündəliyimdə
Poetikləşən
Qeydlərdi xokkular.

Xokkular əslində dan üzünə çilənmiş şehin qövsi-qüzehidir; belə fondu ki, daha çox təsvirin obrazlılığında alınır. Açığı, Elşadda poetik fikir, obraz güclü olduğu üçündür xokkular istər-istəməz düşündürür. Təbiətə üz tutan şair ekoloji ahəngin pozuntusunu əyanilaşdirir:

Ağacların halına
Bir səs hıçqırırdı:
Balta səsi.

Kötüyü özünə
Baş daşıdır-
Kəsilən ağacların.

Budaq
Darağacıydı sanki-
Yarpaq ondan asılmışdı.

Xokkunun poetikliyində mənanın çarpazlaşması stixiyası dayanır: Fikir və predmetin "toqquşmasından" çıxan exo - əks-səda. Bu güclü poetik təkan sevgi şeirlərində də eyni çəkiylə fikir tərəzisinə girir.

♦♦♦

Məcnun-
İki dəfə sevməyə
Qadir olmayan insan.

♦♦♦

Sevgi
hər şeyi əvəz edir-
Sevgiyəsə əvəz yoxdur.

♦♦♦

Nədənsə-
Gecələr daha çox düşünürük –
Qadınları.

Sonet dünya poeziyasına daha doğmadır; onun Şekspir təki müəllifi olmuşdur. Rus şairi Yeseninin sonetləri də yaxşı nümunələrdir. Bizdə də yazanlar vardı, şair xatırlayır onları:

Adil Babayev, Şəkər Aslan, Vaqif Hüseynov,
Şerinizdə siz tez-tez yer verdiniz sonetə.
Gördünüz könlünüzü qarsan o ad, o alov
Yeni rəng, yeni çalar verir şerə, sənətə.

Elşadın sonetlərində gözəlliyin yaşarı və ötəriliyi lirik ovqatda təsvirini verir. Arxadan boylanan xatirələr uçub getmiş, yuvaları boş qalmış hay-küylü gənclik ömrünü bizə gətirib çıxarır. Elə sonetin poetik gücü də bundadır.

Saçına dən düşüb, alnın qırışıb,
Üzündə cizgilər tamam qarışıb.
Gənclik deyilən şey qapından köçüb,
İllər də quş kimi üstündən uçub.

Yaxud, zamanın gərdişindən doğan qəm-qüssənin təsiriylə şuxluğunu itirən gözəllik. Solmaqda olan hüsnün kədərli əks-sədası:

Zaman tez ötüb keçir, cəhd edir ki, təbiət,
Bugünkü xoş havanı sabah yağışa versin.
Sənin gənclik qapına payız gətirən xilqət-
Ömrünün baharını çalışır qışa versin.

Elşadın sosial çalarlı sonetləri də maraq doğurur. Adam Mitskeviçin "Bu qala yenilməzlik nişanıydı ölkənin" misrasından motivlənən şair itirdiyimiz Şuşanın ağrısını yaşayır.

Bəs hansı xəyanətdən düşmənə çökdü Şuşa?
Nə qədər ki, bu xalqın ruhu sındırılmayıb - ,
Şuşa yurd ola bilməz bir ovuc qudurmuşa.

Digər bir sonetdə Elşad dünənki Koroğluluqla öyünməyə dəyərsə, bəs bugün niyə torpaqlarımız düşmən əlindədir?- fikrini söyləyir.

Babək nəsliyik,-deyə özünü öyənlərin,
İçində Babək ruhlu bir igid ər yoxdumu?
Hər sözünün başında "Vətən", "Xalq" deyənlərin,
Qanında qeyrətləri çeçen qədər yoxdumu?

Haqlı sualdır!

Bəs cavabı kimə məxsusdur?

Elşad suala və cavaba "Sonetlər çələngi"ndə geniş yer ayırmışdır. Bu sonet-yarpaqlarda kövrək hissin mübariz ovqata çevrilməsi anları da yox deyil. Erməni daşnaklarından Aqambekyana, Silva Kaputikyana, Zori Balayana, Robert Köçəryana tuşlanmış şair qəzəbi qığılcım yanğısı və gücüylə sancılır. V.Şekspirə, B.Pasternaka həsr edilmiş sonetlər də orijinaldır.

Elşad Səfərlinin bir poeması var: "Böyük qardaş",- qürbət yerdə həyatdan vaxtsız köçən qardaş itkisinə həsr olunmuşdur. Vaxtsız böyük qardaşı Səfəri itirən Elşad əslində elegiya qələmə almışdır. Elşadın doğulduğu torpağa mən uşaqlıqdan bələdəm, ailəsini də az- çox tanıyırdım. Səfər barədə tez-tez söz salardı. Doğrudan da, insan cavankən ən əziz, doğmasına çox vaxt etina eləmir, ona elə gəlir nə ata-anasını itirəcək, nə də bacı-qardaşını. Amma həyatın öz qanunları var. Qardaş itkisindən doğan misraları səssiz oxumağı bacarmadım. Axı, mən də böyük qardaşım Emini itirdim, bir yuxu kimi çəkilib qara torpağa – ata-anamın yanına köçdü.

Elşad bu itkini ağır hisslə keçirir:

Bu ağrının içində
Qıvrıldım,
Qovruldum,
Çırpıldım,
Yarpaq-yarpaq saraldım,
Yarpaq-yarpaq qırıldım!

Poemada bayquşla şairin söhbəti əfsanəvi-mifik motivlə səslənir. Hər halda real gücünü saxlayır və bu sehirli bayquşun ulamasında qara dəmir tabutda qardaşı Vətəninə qayıdır. Sarsılan şairin kədərinə necə göz yaşı tökməyəsən?

Atalı bir ocaqda
Atam da qardaş idi.
Başım da qardaşla getdi,
Həyatım da qardaşla getdi.
Çiynimin birində ana dərdi,
Birində qardaş dərdi

Gəzdirən insanam.
Tanrım, mənə dözüm ver,
Qoyma məni
Çiyinlərimdən sınam.

Yox, şairlər sınmır, mənim şair qardaşım! Sənin hər bir şeirin qardaş qəbrinə səpələnən yamyaşıl yarpaqlardı, qoymayacaq qardaş ruhu saralsın. Yox, qoymayacaq sənin misraların...

...İstirahət günü zəng çalmışdı Elşad, biz bulvarda-Dənizkənarı parkda keçiddə görüşəcəkdik. O gün Salyana getməliydim. Amma bir ayağım getmirdi, ona görə yox ki, əhvalım yox idi, sadəcə bir qovluq şeiri hələ imkan tapıb oxumamışdım. Vaxt olmasaydı da, cəm eləmək mümkündü. Əslində əlimdə elmi iş özünü "həlak" eləyirdi, beynimi didib-parçalayırdı. Bir yana atmalıydım ki, yüngülləşim. Bir də, şeir oxuyanda özümə qayıdıram, özümü anlayıram və özümə qiymət verirəm. Şeir oxuyanda gücüm artır, amma sıxılıram, özümə yazığım gəlir.

Salyanda özümlə apardığım o qovluqdakı bir kitab şeiri rahatca oxudum, özüm-özümə pıçıldadım. Qeydlərimi apardım və tamamlaya bilmədim. Axşam qovluğu əlimə aldım, yenidən oxudum, fikirləşdim, pıçıldadım və axır ki, tamamladım, son nöqtəni qoydum. Yüngülləşdim, özüm-özümə duruldum. Nə qalırdı bəs?

İndi Elşadın zəngini gözləyirəm. Harada görüşəcəyik,-çətinlik çəkirəm. Güman ki, dəniz qırağında olacaq. Qovluğu ona verəcəyəm, amma şeirdən, poeziyadan bir kəlmə də danışmayacağıq. Söz var ki, söz qalıb ki,.. Olanımı dedim, yüngülləşdim. Haçansa yeni şeirlər qələmə alar, zəng çalar, görüşərik.

***2003***

## Altıncı məqalə

# BİR KİTABIN TƏƏSSÜRATI, YAXUD DƏYƏRLİ ARAŞDIRMA

Elşad Səfərli sonuncu monoqrafiyasında özünü bir ədəbiyyatşünas alim kimi bir daha təsdiqlədi.

Ədalətli desək, ”kölgədən” çıxdı. Etiraf edək ki, ”kölgə” sözü çox vaxt həm ədəbiyyatda, həm elmdə, həm də incəsənətdə arxadan boylanmışdır, yolunu tutanlardan: hər yerdə daş olanlardan çəkinmişdir. Bəzi “başdakılar” istedadları olmasa da, bəzən həyasızlığına görə, bəzən zorla, bəzən də ikiüzlülər tərəfindən irəli çəkilmişlər. Qəribədir, mükafatları da, alqışları da, ödülləri də onlara bağışlamışlar. Bu gün bu məsələ daha qabarıqdır. Tarixən olduğu kimi, istedadlar kənardan boylanmışlar. Haqqında danışdığımız şair Elşad Səfərli də, ədəbiyyatşünas Elşad Səfərli də “kölgədə” görünənlərdəndir.

Bu mənəvi mülahizəmi söyləməyə mənim tam haqqım çatır. Nə az, nə çox, 35 ildən artıq bir zaman kəsiyində Elşadla təmasdayıq, hansı istedadın sahibidir, çox yaxşı bilirəm. Müəllim-tələbə münasibətdəyik və aramızda yalnız sənət söhbətləri, ötən günlərin şirin xatirələri, görüşmək reallığı... Daha nə qalır: mənim tərəfimdən onun yaradıcılığını izləmək, uğuruna sevinmək. Ustad-müəllim paralelliyinin işıqlı tərəfi belədir.

Kitabı oxuyanlara aydındır ki, Elşad Səfərlinin poeziyasını izləmək mənim qismətimə düşmüşdür: Lap Belinskinin Puşkini, Lermontovu izlədiyi sayağı. Bəlkə Elşad ”Mənim Belinskim” adlı çox gözəl bir şeirində elə məni Belinski qismində nəzərdə tutmuşdur. Axı Elşad zəhmət itirən deyildir. Kim bilir, bəlkə də... Ötən əsrin 80-ci illəri, gənc tələbənin mətbu şeirləri, mərhum şair Əbülfəz Naxçıvanlı ilə üçlükdə oxunan poetik nümunələrə son sözüm. Sonralar nəşriyyat aurasında daha digər – Hafiz Rüstəm, Kamal Alışoğlu, Əlislam Bilal, Ədalət Əsgəroğlu, Rüzgar Əfəndiyeva, Qiyas Əcaib, Ağamalı Sadiq Əfəndi kimi istedadları bir araya gətirmək missiyası –fəxarət deyilmi mənim üçün?! Amma məqsədim başqadır: Elşad Səfərlinin ədəbiyyatşünaslığımızda gördüyü nəhəng elmi işləri unudulmuş, araşdırılmamış və zəruri mövzulara cəsarətli müdaxiləsi ”səssiz” qarşılanmışdır.

Ədəbiyyatşünaslıq elmdir, burada sözün lətafətilə sözün kəsəri bir-birini tamamlamalıdır. Allahdan olan kimi: Elşadda hər ikisi qovuşmuşdur. Bir il öncə Elşad Səfərlinin maraqlı bir tədqiqatı oxuculara təqdim edilmişdir: “Azərbaycan sonetinin poetik xüsusiyyətləri” (2014): sanballı, ünvanlı və orijinal. Konkretliyə gəldikdə sonet janrının hüdudları, milli poeziyamızda və eyni zamanda dünya şeirində yeri. Bu, öncə monoqrafiyada müəllifin ədəbi-tənqidi təfəkkürünün imkanlarını bir daha göstərir. Budur, istedadlı qələm sahibi “Sonet janrı və Azərbaycan soneti” (2014) irihəcmli (380 səh.) kitabını avtoqrafla mənə göndərdi bir qış günündə. Adətən, belə fəsillərdə (yaylı, yazlı, baharlı) çap edilmiş bədii-elmi əsərlər bir rəmzi məna daşıyır, oxuyursan, içində bir həzinlik duyğuları yaranır. Və belə bir ovqata fəhmlə düşdüm, ürək işidir – köklədi məni elmi tədqiqatın rasional-analitik-qnesoloji mahiyyətinə. Əlbəttə,

monoqrafiya haqqında məhz bu əhval-ruhiyyədə yazmağı qərarlaşdırdım. E.Səfərlinin milli təəssübkeşliyini öncə hiss etdim. Qərbli kimi tanınan sonetin kökünə aydınlıq gətirdi, Şərq-Qərb kontekstində götürdü və mürəkkəb işin ilk mürəkkəbliyindən başladı: "Sonet janrı: tarixi, tipologoya və poetika problemləri" adlı ön sözdə (müəllifi professor, əməkdar elm xadimi Hüseyn Həşimlidir) artıq əsərin ünvanını görürük, alimin alimə səmimi, obyektiv, diqqətli yanaşmasını da sezirik.

"Sonet janrı" fəslində emosional təfəkkürlü Şərqdə, idraki yönümlü Qərbdə janrın yeri, Avropa təcrübəsi və ədəbiyyatşünaslığımızda tədqiqi məsələləri ilə tanış oluruq.

E.Səfərli Şərq poeziyasının statusunu obyektiv qaldırmışdır–mübaliğəsiz. Sözdə yox, araşdırma kontekstində. V.Bryusov, A.Fet, V.İvanov, E.Baqritski, habelə İ.Höte, A.Fon Platten, Q.Fon Qofmanstal yaradıcılığında axtarmışdır. O, yazır: "Qərb qəzəldən iki şəkildə istifadə edir. Birinci halda ona müstəqil bir şeir şəkli kimi müraciət edir. Digər bir halda isə qəzəldən bəzi janrların daxili strukturunda, xüsusilə, sonetin özünə yaxın janrlarla kontaminasiyasında istifadə etməsi faktları artıq müşahidə edilmişdir (səh 18).

Yeri gəlmişkən, Elşad Səfərli kontaminasiya terminini bir ədəbiyyatşünas olaraq təhlil etmişdir, daha doğrusu, mənbələrinə varmışdır.

Sonet janrının mahiyyəti haqqında müəyyən paralellər aparan Elşad mühüm şəkildə – ədəbi informasiya verdikdən sonra ədəbiyyatşünaslığımızda problemin tədqiqinə münasibətini bildirir. Bunu "Azərbaycan soneti" kontekstində başa çatdırır və dövrləşdirir: 1907-1930,1920-1950, sonra Əliağa Kürçaylılı, Adil Babayevli zaman kəsiyi. Əlbəttə, müəllif bəzi sonetlərin tərcüməsində şairlərimizin xidmətlərini unutmamışdır. Necə ki, A.Babayev, Ə.Kürçaylı,

T.Əyyubov, S.Rüstəmxanlı, S.Mustafa və başqalarının adını çəkmək lazımdır. Ə.Kürçaylı və A.Babayev müasirlərimizdir, gözəl də şairdilər. Xüsusilə, Əliağa Kürçaylı tərcümədə "ağır" işdən başlamağı sevirdi. Dante, Şekspir, Yeseninin əsərlərinin tərcüməsi sahəsində böyük uğurlar qazanmışdır. Elşad bir şair zəhmətini bu yönümdən qiymətləndirmişdir. Məsələnin başqa bir tərəfinə varmaqla ədəbiyyatşünaslardan Təhsin Mütəllimov, Seyfulla Əsədullayevin tədqiqatlarına konkret aspektdə toxunur; dediyim odur ki, Elşad unutqanlıq etmir, əməyi qiymətləndirir.

Monoqrafiyanın ən maraqlı məziyyətlərindən danışarkən, yuxarıda göstərmişdik: Azərbaycan sonetinin dövrləşməsi janrın təşəkkülündən qaynaqlanır: bu da ötən əsrin ilk üç onilliyinə təsadüf edir. Avropanın ən irəlidə gedən poeziya ənənələrinə malik İtaliya, Fransa, Almaniya, İngiltərə, İspaniya, Danimarka, Rusiya sonetinin tarixi bu şeirin qədimliyinə gedib çıxır. Azərbaycan poeziyasına gəldikdə ilk onillərdə sonetə münasibət ürəkaçan olmamışdır, bu janra müəyyən "damğalar"da vurulmuşdur. Tədqiqatçı bunun səbəblərini araşdırmış və təsnifini vermişdir. Birincisi, XX əsrin əvvəllərində Azərbaycanda tərcümə məsələsi yetərincə deyildi. İkincisi, sonet sahəsində poetik ənənənin yoxluğu, eyni zamanda janrın poetikasında mürəkkəblik. Üçüncüsü, sonetin ilk nümunələrini yazanların janrı kütləviləşdirə bilməməsi. Sonetə peşəkarlıqla yanaşması. Dördüncüsü, sonet qələmə alanların əsl Avropa sonetinin kanonik, forma əlamətlərinə laqeyd yanaşmaları, nəticədə onların yazdıqları sonetdən çox, 14 misralıq şeirə çevrilmişdir ki, oxucu zövqünü təmin etməmişdir. Beşincisi, sonet janrının nəzəri mizanlarından xəbərsizlikdir.

Sonetin tarixini Şərqə, o cümlədən "bizə" – poeziyamıza sarı çəkən tədqiqatçı düzgün konsepsiya irəli sürmüş-

dür. Xüsusilə, M.Müşfiq və Ə.Kürçaylı şeirində sonetlə bağlı E.Səfərli ədəbi tezislərini əsaslandırmışdır. Şair Elşadın şair Müşfiqə ruhi yaxınlığı bəlkə də həqiqi yanaşmaya stimul vermişdir. "Şair şairi daha yaxşı başa düşür" aforizmi təsadüfi deyilməmişdir. Onun poeziyasını yüksək qiymətləndirmişdir: "Müşfiqin lirikası inkişaf tapdıqca ilk gündən, yeni poetik formalara, obrazlı düşüncə və ifadə tərzinə malik, fərdi üslub keyfiyyətlərini təzahür etdirən bir sənət örnəyidir. Fərdi üslub sənətkarın yaradıcılığının ən yüksək zirvəsi, onun orijinallığının, novatorluğunun göstəricisidir... Müşfiq şeirlərinə özünəməxsus yeni poetik formalar gətirməyi, janrın daxili strukturunda yeniliklər etməyi, axtarışlarına davam etməyi ustalıqla bacarırdı". Bu yanaşma təbiidir və istedadın nəticəsidir ki, şair "sonet" formasından yan keçməmişdir. Tədqiqatımızda məqsədlərimizdən biri "sonet janrı ilə bağlı şairin məhz bu istiqamətdə yaradıcılığını geniş olmasa da tədqiq etmək və bu janrın inkişafında onun xidmətlərini müəyyənləşdirməkdir" (səh.135).

E.Səfərli fərziyəsini əsaslandırmağı bacarmışdır, xüsusilə, mərhum müşfiqşünas alim Gülhüseyn Hüseynoğluna laqeyd qalmamışdır. Əlbəttə, müəllif bilərəkdən daha dərinə getməsə də şairin "Bir gün" şeirinin sonet olduğunu əsaslandırır. Soneti bütövlükdə verməklə Elşad "Bir gün"-ün struktur sistemini, sonetin klassik kanonik mətləblərini, qafiyə modelini təhlil edir, peşəkarlar üçün qaranlıq yer qoymur. Və ədəbi fərziyəsini analitik nəticə çıxarma ilə – faktorlarla əsaslandırır. Xüsusilə: Göstərir ki, **birinci arqument** Müşfiqin sonet janrına müraciətinə bir səbəb onun poeziyasının canına-ruhuna doğmalığıdır; çünki şairin şeir meridianı sosial proseslərə ahəng yaradır. E.Səfərli yazır: "... kiçik məkanlı şeir hüdudunda böyük ictimai-siyasi, humanist mətləbəri ifadə etmək imkanları sonetin bir janr

kimi mürəkkəb struktura, quruluşa malik olmasıdır. Dante, Petrarka, Bokkacco, Coser, Şekspir və s. söz dahilərinin öz məharətlərini bunda sınamaları, bədii hünər göstərmələrindən, şübhəsiz ki, stimul alıb M.Müşfiqin də şair kimi öz qüdrətini sınaqdan keçirtmək, xüsusi məharət tələb edən bu janrda nəyə qadir, hansi hünərin sahibi olduğunu göstərmək iddiasına düşməsi ilə də bağlı ola biləcəyi mümkündür” (səh.139). **İkinci arqument** türk şairi, yaradıcılığının vurğunu Tofiq Fikrətin poeziyasında sonetin ”parlaması”, habelə, bu formanın cazibəsi və s. faktorların Müşfiqi bu janra sövq etməsidir. **Üçüncü arqument** də məhz Tofiq Fikrətin şeirinin mövzu xüsusiyyətlərilə əlaqədardır. M.Müşfiq poeziyasına yüksək elmi və bədii idrakla qiymət verən Elşad Səfərli bəzi deyilməmiş, orijinal səslənməyən yanaşmalardan fərqli söz söyləyir. Təbii ki, bu, Elşadın özünün istedadlı şair olmasından irəli gəlir və “Çağlayan” şeirinə söykənir. M.Müşfiqin son kitabı (1937) “Çağlayan” adlanır (Bu adda ikinci kitab mərhum şairimiz Rəfiq Zəkaya məxsusdur. O, Müşfiqə pərəstiş etdiyi üçün onun “Çağlayan”ını öz kitabına ad seçmişdir).

Ədəbiyyatşünas Elşad Səfərli adıçəkilən bu məşhur şeiri sonet janrının kontekstində təhlilə cəlb etmişdir. Əslində ilk olaraq şeirin poetikasını araşdırmışdır. Müşfiqin ”Torpaq”, “Qadın”, “Gözəllik”, “Sevgilim”,“ Ulduzlar” və s. sonetləri də monoqrafiyada təhlilini tapmışdır. Və müəllif daxili hərarətlə vurğulamışdır: “Gülüşlər” sonetinə Avropa mənşəli sonetin Azərbaycan tipinin başında məhz Azərbaycan papağı (Rəsul Həmzətova işarə ilə – A.E.) kimi baxırıq. Və bunu poetik hünər kimi qiymətləndirir, həmçinin bu poetik hünərin M.Müşfiqin sonet yaradıcılığı timsalında, yenilik əxz etmək, yeni poetik sənətkarlıq keyfiyyətlərinə yiyələnmək baxımından Azərbaycan sonetinin gələcək in-

kişafına müəyyən qədər təkan vermiş olduğunun fərqindəyik" deyə qeyd edir (səh.162).

Monoqrafiyada görkəmli şair Əliağa Kürçaylının sonet yaradıcılığı da eyni ruhda, təkamül yolu ilə inkişafda tədqiq edilmişdir. Mən onu xatırlamaq istərdim ki, mərhum şair poeziyamızda öz xüsusi çəkisi olan üç-beş şairlərimizdən biridir. Onun yaradıcılığı, təəssüf ki, ədəbiyyatşünaslıqda öz yerini almamışdır (Sevda Əliyevanın kitabı istisnadır). Ə.Kürçaylı gur, həm də lirik və fəlsəfi nəfəsli şairdir, qürurlandım ki, şair, ədəbiyyatşünas Elşad Səfərli barı, şairin sonet yaradıcılığını konkret, lakin mündəricəli araşdırmış və yazmışdır: "O, lirik şeirin bir sıra növlərində öz şair qüdrətini göstərə bildiyi kimi, sonet janrında – bu aydın ideyaya, sadə, özünəməxsus üsluba malik, zəngin bədii təsvir və ifadə vasitələrilə süslənmiş poetik dilə sahib kiçik həcmli şeir nümunələrində də yüksək poetik məharətini göstərə bilmişdir"... (səh.163).

Müəllif M.Müşfiqdə olduğu kimi, Ə.Kürçaylının sonet janrına meyil etməsinin bədii-fəlsəfi köklərini araşdırmış, onun dünya ədəbiyyatına bələdliyini, bir tərcüməçi olaraq istedadını xarakterizə etmişdir. Və belə bir düzgün mühakimə yürüdülmüşdür ki, Ə.Kürçaylı azsaylı sonetlərilə bu intibah şeir şəklinə müraciət edənlərin cərgəsində ən ucada duranlardan biri idi. Belə deyərdim ki, Dante, Petrarka və Şekspir öz milli poeziyalarında sonetin yerini necə görmüşlərsə – Əliağa Kürçaylı da həmin işi ustalıqla başa çatdırmışdır. Elşad Səfərlinin digər bir yanaşması Ə.Kürçaylının sonet yaradıcılığı haqqında yazan ədəbiyyatşünaslara fərdi münasibətidir; hissiyyata qapılmamasıdır. Məsələn, Seyfulla Əsədullayevi, Bəkir Nəbiyevi, H.Həşimlini xatırlamasıdır.

Ə.Kürçaylının sonetdə uğurunu şərtləndirən amilləri tədqiqatçı ustalıqla təhlil edir, göstərir ki, onun sonetlərinin özünəxas mövzu genişliyi, təsvir əlvanlığı, müşahidə hissiyyatı orijinaldır: həmin amillərin – quraq, yağışa həsrət torpaqların, gecənin zülmətində üşüyən çiçəklərin, quşların nəğməsi qaranlıqda kəsildiyinə görə, budaqları qəmgin ağacların təsvirinə, bir az keçəndən sonra günəşin görünməsilə səhərin açılması, çılpaq yamacların çiçəklənməsi, lalələrin açılması, durğun dənizin təlatümə gəlməsi və həyatın canlanması, təbiətin ahəng, harmoniya qanunları ilə bağlanması... bu poetik panoram Elşadındır. Fikrimi ona yönəltmək istəyirəm ki, ədəbiyyatşünas, yaxud məntiqli alim ədəbi şəxsiyyət haqqında geniş həcmli əsər yazarkən məhz öz obrazlarını, təsvir detallarını, assosiasiyalarını verməlidir. Əgər səriştəsi çatırsa. Mən belə bir ədəbi-nəzəri üslubun tərəfdarıyam. Fizik lirik düşünə bilirsə, ədəbiyyatçı bunu nə üçün bacarmamalıdır? Dahi Albert Eynşteyn əbəs deməmişdir ki, elmdə də poeziyanın elementləri iştirak edir. Təəssüf ki, çağdaş vaxtlarımızın məhsulu olan bəzi monoqrafik əsərlərdə, irimiqyaslı məqalələrdə bu hiss duyulmur, qovulmuşdur. Mən buna yaxşı baxmıram. Əvvəla, elmi tədqiqat da bir əsərdir – oxucuları var, ikincisi, oxucunu quru modullar, fraqmentlərlə yormağa ehtiyac yoxdur.

Monoqrafiyada tədqiqatçı Ə.Kürçaylının bir sıra sonetlərinin ideya-məzmun-bədii xüsusiyyətlərini təhlil edir, aydın ədəbi təsəvvür yaradır. “Torpaq quruyurdu”... “Yaman oxşayırsan deyirlər mənə”, “Bir qız keçir küçədən”, “Məhəbbət yolunda yorulmur ürək” və s. sonetləri üzərində xüsusi dayanır və dəyərləndirir. Nümunələr gətirir:

Yaman oxşayırsan deyirlər mənə,
Qaşların,gözlərin guya mənimdir.

Üzümün rəngi də çökmüş üzünə,
Qoy ata gözüylə sənə baxım bir.

Görkəmin mənə də çox tanış gəlir,
Elə bil mənimdir səndəki gülüş.
Güləndə yanağın batır,çökəlir...
Sanki bir almayıq iki bölünmüş.

Qəlbim dağa dönür bu bənzəyişdən,
Qanınla,gözünlə mənə oxşa sən-
Gözümün nuru da gözünün olsun.

Əksini qoy səndə seyr etsin atan,
Ancaq əziz balam,çalış hər zaman
Bir ürək,bir beyin özünün olsun.

Və sonetin ilk dəfə nəzəri-struktur təhlili: "Oktavada teza-antiteza prinsipi janrın tələbləri səviyyəsində gözlənilmişdir. Birinci katrendə lirik"mən"in özünəməxsus fərdi cizgilərinin övladında təcəssümü haqqında deyilənlərdən xəbərdar olmasıyla bağlı irəli sürülən poetik müddəa – tezaya qarşı ikinci katrendə övladına nəzər yetirməklə əmin olması və bu əminliyin "güləndə yanağın batıb, çökəlir, sanki bir almayıq iki bölünmüş" misralarında təsdiqinin şahidi oluruq. Fikrimcə, tədqiqatçı sonetin poetikasında təhlil olunmamış boş yer qoymur.

Ə.Kürçaylıdan danışan Elşad Səfərli şairin sələfi,gözəl şairimiz Əhməd Cəmili də araşdırmaya çəkir və məşhur "Kaman" (1942) sonetini təhlil edir. Sonetdə, şübhəsiz, müharibə dövrünün ab-havası sezilməyə bilməz. Divardan asılmış "Kaman" bir obrazdır,"döyüş" yolu keçmiş alətdir, "silahdır".

“Sonet janrı və Azərbaycan soneti” monoqrafiyasında Elşad Səfərli tədqiqat mövzusunu iki aparıcı problemdə tamamlayır; hansı ki, ədəbiyyatşünaslıqda tədqiqini tapmamışdır: Azərbaycan sonetinin yüksəliş dövrü və poeziyamızda sonet janrının poetikası. Bunlar iki fəsildə (səh. 188-347) təhlil olunmuşdur. Müəllif üslubuna sadiq qalaraq sonetin tipik nümayəndələrinin yaradıcılığına müraciət edir – tədqiq-təhlil müstəvisinə cəlb edilir. Adil Babayev və Şəkər Aslanın sonet aləmi. Və az-çox yazan şairlərimizin sonetləri də. Lirik şairimiz Adil Babayevin poeziyası ilə mən ötən əsrin 70-ci illərindən tanışam. O, teatrşünas, dramaturq olmaqla yanaşı, sonetlər də yazırdı və onda alınırdı.

Elşad Səfərli kitabinda B.Adilin sonetlərini geniş təhlil etməkdə eyni zamanda xeyirxah iş görmüşdür. Adil Babayev yeganə sonetçidir ki, bu janra tam məsuliyyətlə yanaşmış, ona ötəri yox, yaradıcılığının ən davamlı, fəal bir şeir şəkli kimi müraciət etmiş, poeziyasının sənətkarlıq baxımından çiçəklənmə dövrünü, demək olar ki,bu poetik formaya həsr etmişdir.

Adil Babayev haqqında vaxtilə Q.Qasımzadə, S.Əsədullayev, Ə.Kürçaylı, A.Eminov və başqaları fikir demişlər. Lakin E.Səfərli daha dərinə varmış, hər bir sonetin təhlilini vermişdir. Deyək ki, şairin ilk soneti “Sonet”(1946) haqqında yazır ki, sonetdə məhəbbət, sevgi yer almışdır. Əsərin mükəmməl ideya-bədii, estetik dəyərləri şeirin oxunaqlı və maraqlı oxunmasını təmin etmişdir (səh.192).

Soneti lirik ovqatla oxumasan, şairin xatirə-təəssüratını yaşamaq çətin olur. Sonet mənə dahi A.Puşkinin “Çiçək” şeirini xatırladır.

Elşad Səfərli yeri gələndə sonetə poetik assosiasiya kökündə yanaşır və ovqatla qiymətləndirir. Adil Babayevin “Kiçık bir istək”,“İnsan gəlir dünyaya”, “Biz səninlə gö-

rüşdük", "Deyirlər şəhərlər kitab kimidir?" və s. sonetlərinə ədəbi münasibət yetərlidir. Sonuncu şeir haqqında yazır: şeirdə "coşqun", "hər", "şəhərlər", "bir insan" sözlərinin müxtəlif sayda təkrarlanması şairin əsaslandırmaq istədiyi fikri qüvvətləndirir, onun emosional-ekspressiv xüsusiyyətlərini daha da artırır. Təkririn anafora qismindən daha çox istifadə edən şair əksər sonetlərdə bu cür üsuldan istifadəyə üstünlük verir" (səh.199).

Tədqiqatçı B.Adilin sonetlərində şeirə məxsus daxili ahəngə, obrazlılığa, qafiyələr sisteminə, təsvir vasitələrinə daha çox diqqət yetirir: şeirin də ruhu bu poetik metaforik çalarlardır.

Monoqrafiyada ötən əsrin 60-70-ci illərində poeziyaya addım atan Abbasağa, Abbas Abdulla, Sabir Mustafa, Vaqif Hüseynov, Şəkər Aslam kimi istedadlı şairlərin sonet yaradıcılığı diqqətdən kənarda qalmamışdır.

Yuxarıda adlarını çəkdiyim şairləri xatırlamağım təsadüfi deyil. Oxuyanlar əmin ola bilərlər ki, Elşad Səfərli həmin şairlərin sonet yaradıcılığına nisbətən ətraflı aydınlıq gətirmişdir, konkret təhlil aparmışdır. Bu yanaşma, tədqiqatçının mövzusuna diqqətliliyinə haqq qazandırır, hətta qəzet səhifələrinə laqeyd qalmır. Mənim tərəfimdən isə düşünürəm ki, monoqrafiyanın oxucuları üçün hər bir şairin yaradıcılığını izləmək, ötən illərdə qalmış poeziya nümunələrini əldə etmək çox çətindir; onlar bir sonetdən də müəllifi haqqında müəyyən təsəvvür alacaqlar. Böyük şairimiz Rəsul Rza demişdir: çinar bir yarpaqdan da tanınır!

Monoqrafiyada Elşad Səfərlinin "son akkordu"- obrazlı desək, sonet janrının poetikasının – sənətkarlıq xüsusiyyətlərinin araşdırılması geniş yer tutur. Dərin və əhatəli, elmi-nəzəri və bədii-estetik düşüncəsilə problemi əhatə etmişdir, xeyli sayda müqayisələr, paralellər aparmışdır. Mən

deyərdim ki, məşhur şairlərə heç də az əsaslanmamışdır: İ.Annenski, O.Mandelştam, Ş.Mençetiç, İ.Severyanin, A.Mitskeviç, A.Tufanov, V.Bryusov, bu simaların poeziyada öz tutumu mövcuddur. Deməli, ədəbiyyatşünas Elşad Səfərli şair Elşada uduzmamışdır!...

İndi bəzi məqamları və əldə etdiyimiz qənaətlərimizi ümumiləşdirək:

– E.Səfərli sözügedən monoqrafiyasında sistemli, konseptual araşdırma aparmış, ədəbi simaların konkret yaradıcılıq nümunələrini tədqiq-təhlil kontekstində incələmiş, Şərq-Qərb ənənələrini də unutmadan bu janrın poeziyamızda təşəkkül, inkişaf yolu, poetikası, tipologiyası haqqında əhəmiyyətli bir elmi əsər ortaya çıxartmışdır;

–Şair-tədqiqatçının poetik, elmi mətnləri dəyərləndirmədə bilavasitə özünəxas yanaşmaları, fərqli ciddi məntiqi mühakimələr yürütməsi, yüksək səviyyədə ümumiləşdirmələr aparması, bənzərsiz təhliletmə məharəti xüsusi qeyd edilməyə layiqdir;

–Digər tədqiqatçıların mövzu ilə bağlı unutduqları, yaxud laqeyd qaldıqları, təhlilə cəlb etmədikləri vacib məqamların elmi-nəzəri şərhinə, həmçinin bəzi nümunələr haqqında məlumatlara məhz ilk dəfə bu kitabda təsadüf edilir. B.Adilin müharibə dövründə yazılmış iki soneti və Abbasağanın sonetlər çələngi ilə bağlı məlumatlar bu qəbildəndir;

–Müəllifin sonet janrının bəzi problemləri ilə bağlı və sonetşünaslıqda bir sıra nüfuzlu alimlərin irəli sürdükləri mülahizələrlə razılaşmaması, cəsarətli, müstəqil mövqe nümayiş etdirməsi, özünün dəmir məntiqi, inandırıcı arqumentləri ilə söylədiyi mülahizələrində dəqiqliyə kökünə qədər varması böyük maraq kəsb edir; xüsusən, bəzi tədqiqatçıların, bunların sırasında tanınmış rus sonetoloq alimi

O.Fedotovun da tersinanı tersetin bir şəkli hesab etməsi mülahizəsilə razılaşmayaraq, məhz tersetin tersinanın bir şəkli olması müddəasını inandırıcı şəkildə arqumentlərlə əsaslandırması faktı, əlbəttə, böyük cəsarətin və özünə inamın göstəricisidir. Belə faktların sayını artırmaq da olardı...

–Mövzunun tədqiqi ilə bağlı müəllifin çoxsaylı beynəlxalq elmi konfranslarda dəyərli məruzələr etməsi, xeyli məqalə, tezis, metodik vəsait, dərs vəsaiti, monoqrafiya çap etdirməsi, poetik mətnləri həssaslıqla incələməsi zamanı çoxlu elmi-ədəbi mənbələrə, kitablara əsaslanması, ekskurslar aparması onun geniş mütaliə dairəsindən və yüksək elmi-nəzəri hazırlığından xəbər verir...

Elşad Səfərlinin sonetlə bağlı ardıcıl araşdırma aparıb mükəmməl nəticələr əldə etməsinə stimulverici faktor onun, bəlkə də özünün sonet yazması ilə çox bağlıdır. O, həm də sonetçi şairdir. Və qürurverici haldır ki, Azərbaycan poeziyasında Avropa mənşəli şeir şəklinin hələlik heç kim tərəfindən işlənməyən bəzi digər növlərinin ilk yaradıcısı da məhz E.Səfərlidir. Bunlar aşağıdakılardır:

1. Sonet haqqında sonet;
2. Akrostix;
3. Kodalı akrostix sonet;
4. Broxokolon,yaxud monostix;
5. Qoşa qafiyəli, məsnəvi sonet (yaxud kontaminasiyalı sonet) və s.

Bunlar E.Səfərlinin Azərbaycan sonetistikası qarşısında novatorluğu, böyük xidməti deyilmi? Özü də bu tipli sonetlər klassik sonetin kanonları çərçivəsində, tamamilə “petrarkizm ənənələri” əsasında, Petrarka üslubunda yazılmış nümunələrdir. Və diqqətçəkən haldır ki, Elşadın əksər

sonetlərində bir sözün, yaxud ifadənin – refrenlər istisna olmaqla-təkrarına təsadüf etmirik. Əslində, əksər sonetoloq alimlər tərəfindən kontekstdə heç bir söz və ifadənin təkrarına yol verilməyən, klassik kanon prinsipləri əsasında yazılmış nümunələr yalnız əsl sonet kimi qəbul edilir. Hansı ki, E.Səfərli sonetlərində dominantlıq təşkil edən bu amilə S.Səlmasi, H.Cavid, Ə.Səbur, A.İldırım, M.Müşfiq, A.Babayevdən tutmuş çağdaş sonetçilərimizə qədər heç birinin yaradıcılığında rast gəlməmişik. Buna görə də sonetistikamızda həmin sonetçilərin hansı mövqeyə sahib olmalarına baxmayaraq onların sonetlərinin heç biri Avropa sonetinin tələblərinə cavab vermir. Bunu da ədalət naminə qeyd etməyə dəyər.

Bəzilərinə xırdalıqlara varmaq kimi görünməsin, hətta Azərbaycan ədəbiyyatşünaslığında sonetlə bağlı bəzi termin, məfhum və anlayışlar da məhz Elşad qələmində ilk dəfə ədəbi-elmi dövriyyəyə cəlb edilmişdir: Sonetistika, sonetologiya, sonetoloq, sonetist, refren, sonetşünaslıq və s.

Kiminsə bu fikirlərimizə qarşı əks arqumentləri varsa buyurub ortaya çıxartsın... Yoxdursa, Elşadın uğurlarına qarşı gözügötürməzlik nümayiş etdirib, hansısa “bezdarnı” şairin guya bu sahədə ən yaxşı sonetlər yazdığını əyalət səviyyəli qəzet-jurnal səhifələrində cızma-qaralarında yalandan vurğulamaqla oxucuların fikrini çaşdırmaq cəhdlərində bulunub, özlərini gülünc vəziyyətə salmasınlar. Çünki real ədəbi-elmi faktlar qarşısında bu cür saxta cəhdlər faydasızdır. Nə isə...

“Sonet janrı və Azərbaycan soneti” fundamental monoqrafiyasının novruz bayramının ilk günündə davamını oxuyub tamama yetirdim. Neçə həftə əvvəl oxumağa başladığım monoqrafiya haqqında tədris qayğıları aman verməmişdi ki, təəssüratımı elmi yozuma çevirim, sözümü ta-

mamlayım. Bunun bəzi səbəbləri də vardır: Mövzunun ədəbiyyatşünaslıqda ilkin tədqiqi, müəllifin analitik təhlil qabiliyyəti, nəzəriyyə ilə poetik düşüncənin sintezi... Nəhayət, Elşad Səfərlinin hər bir abzasda, cümlədə "obrazını" görməyim! Nə olsun ki, yazılan əsərin növ mənsubiyyəti elmlə bağlıdır, onun da öz lirik, həzin əhvallı müəllifi olur: mən bu nəzəri panoramı gördüm, proqnozlaşdırdım ki, ədəbiyyatşünaslıq elmində Elşad Səfərli öz dəst-xəttini yazdı və imzasını atmış oldu.

Başqasını deməkdə çətinlik çəkirəm, mən isə sanballı monoqrafiyanı oxudum, dərk etdim və aldığım təəssüratları yazdım; özü də ilk bahar günündə. Şairlərin qismətinə həmişə bahar düşür, axı Elşad Səfərli öncə, öncül şairdir!...

**21.03.2015**

## SON SÖZ ƏVƏZİ

Elşad Səfərli haqqında uzun illərdən bəri mətbuat səhifələrində dediklərimi "yekun söz" adlandırmaq istəməzdim. Söz elə mənəvi-maddi dəyərdir deyəndə, dəyərləndirən də məsuliyyətini hiss eləyir. Amma deyənin yükü daha ağırdır – rəylər, mülahizələr, proqnozlar bundan sonra yaranır. Mən, əlbəttə, istisna deyiləm: şair barədə o şəxs (lər) yazmağa haqlıdır, borcludur ki, –ürəyində poeziyaya yer ayırıb, qəlbində şair şəxsiyyətinə hörməti var və o şairin yaradıcılığını izləyir. Məndə bu "üçlük" olmasaydı, əlimə qələm almağa bəlkə də cəsarət göstərməzdim...

Elşad Səfərliyə qədər mənim poeziya meydanımda çox şairlər görünüblər, hərəkətdə bulunublar və dan şəfəqinə qarışıb günəşə qoşulub gediblər. Günəş hərarətinə tab gətirmək isə... Ya yaşamalısan, ya da yaddaşdan silinib getməlisən – alternativi yoxdur.

Nə gizlədim, hələ orta məktəbdə oxuyarkən, xüsusilə, Lənkəranın Gərmətük kənd orta məktəbində təhsilimi davam etdirərkən, şairləri görmək istəyimi reallaşdırdım və iş elə gətirdi ilkin ingilis dili müəllimim Mirhaşım Talışlının şeir yazdığını eşitdim. Bəli, şairlər təkcə şeir yazmaq üçün doğulmamışlar, onların peşələri varmış. Mirhaşım Talışlı məktəbdə dərs deyir, amma başqa pedaqoqlardan fərqli şəkildə poetik danışır, Füzulidən qəzəllər söyləyir, Vaqifin məhəbbət şeirlərindən nümunə gətirir, Səməd Vurğundan isə ağızdolusu... Bu "üçlük"də on dörd-on beş yaşlarında

fəlsəfə duya bilməzdim, sadəcə, şeiriyyətin ləzzətini dadardım. Amma arabir rayonda çıxan yerli "Leninçi" qəzetində onun – müəllimimin şeirlərini biz şagirdlər növbəylə oxuyardıq. Onun özü isə bir kəlmə də deməzdi ki...

Lənkəran mühiti daima poeziyalı olmuşdur, Mirzə İsmayıl Qasirdən üzü bəri – Elşad Səfərliyə qədər.

Ədəbi dərnək də 50-ci illərdən fəaliyyətdəydi. Bir gün, doqquzda oxuyanda şəhərə gəldim və "Leninçi"nin redaksiyasında o dərnəkdə bir küncdə oturdum. Burayacan məndən bir sinif aşağıda Lənkəran şəhər məktəbinin səkkizinci sinfində oxuyan gənc şair Mirhafiz Bahadırı tanıyırdım – üzdən və şeirlərindən. O gəlib yanımda əyləşdi. Dərnəyi aparan isə vaxtilə tanınmış jurnalist, qəzetin redaktor müavini Əliş Nəbili imiş (o vaxt Nəbiyev idi, təəssüf ki, indi həyatda yoxdur – müəllif). İndi xatırlayıram: Şəkər Aslan (ov), Mirhafiz Bahadır, Xeyrulla Mehdi, Vaqif Hüseynov...

Bəzən iki nəfər qonağı olardı dərnəyin: Əlisa Hüseynov (Əlisa Nicat) və Məmməd Kazımov (Məmməd Kazım) – bu simalar sonralar və indi də məşhur şairlərimizdir. Maraqlı o idi, dərnəkdə jurnalistikaya da yer verilirdi, oçerklər oxunurdu. İlk dərnəkdə yazdığım hekayəmi gətirmişdim. Oxumağa vaxt çatmadı...

Mən o dövrə qayıtmaqda demək istəyirəm ki, Lənkəran ədəbi mühiti həmişə qaynar olmuşdur, musiqili keçmişdir, tamaşalar göstərilmişdir. Bu atributlar gənc yaradıcı nəslin inkişafında müsbət rol oynamışdır, ənənələr unudulmamışdır. Digər tərəfdən, yaxşı mənada rəqabət olmuşdur, poeziyaya gəlmək səlahiyyəti mənəvi müstəviyə keçmişdir: Poe-

ziya meydanına ilhamın varsa – buyur; yoxsa – sürüş! Heyif ki, ikinciyə laqeyd qalanlar az olmadı...

Həmin mühitdə bu gün Elşad Səfərli poetik ənənələrə xəyanət etmədi – başqa cür də qeyri-mümkündü: ilham, istedad və zəhmət bir vücudda birləşibsə, qorxusu yoxdur!

Elşad Səfərli Bakı mühitindən çəkinmədi, bu iradə çox əhəmiyyətlidir bədii və elmi yaradıcılıqda. Həm də cəsarətlilikdir. Unutmayaq ki, ötən əsrin 70-80-ci illərində poeziyamıza maraqlı gənclər gəldi, bəzisinin fərdi dəst-xətti yarandı. Elşad Səfərlinin ilk şeirlərində o qığılcımları sezdim, hörmətlə yanaşdım. Amma qərarlaşdırdım ki, bu gənc şairin yaradıcılığını mütəmadi izləyim, araşdırım, təhlil edim. Yanılmadım, öncəsi o idi ki, Elşad poeziyaya xas poetik mövzu, poetik təsvir və poetik çevrilmələr – bu "üçlüyə" sadiq qaldı. Yubiley poeziyasına meyilli olmadı. Sözə qüvvət – zor verdi, ancaq şeirin zərif qanadlarını sındırmadı, ağ, pərqu lələklər havada uçmadı birgünlük ömür yaşayan kəpənəklər kimi. Bir səbəbi isə bəzi həmyaşıdlarısayağı "planla" şeir qələmə almadı. Söhbətimizdə o, vurğulayır ki, bəzən şeir yazmaq yadıma düşmür, ona görə ki, içərimdə ona hazır deyiləm – məndən asılı olmur. Elə rahat nəfəs alıram, ustadım. Və gülür, armudu stəkanı ovcunda fırladır.

Əlbəttə, şairi anlayıram, "rahat" nəfəs almaq deyil bu, poetik informasiyaların düzülüşüdür, nizam qaydasıdır, hazırlığıdır. Poetik yaradıcılığın ən fenomen atributudur, şairin psixologiyasıdır. Bəlkə də on illərlədir yaradıcılıq nəzəriyyəsilə - evriologiya ilə məşğul olduğum üçündür – hansı şairi şəxsən tanıyıram – şeirini oxuyan kimi proqnozlaşdırıram. Maraqlıdır ki, Elşad Səfərli bəzi şeirlərində bu poetik həqiqəti etiraf edir. Məqalələrimdə nümunələr verdiyimdən, məsələdən keçirəm...

## *Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr*

Elşad Səfərlinin poeziyası ləngərlidir, polifonikdir, lakonik deyimlidir ki, oxucunu dərhal tutur, özünə sarı çəkir. Nədir bunun sirri? Bu "sirri" açmaq, fikrimcə, mümkünsüzdür, ona görə ki, şeir bir tapmacalı-oyundur, oyunsa özündə poetik yaradıcılığın sirlərini birləşdirir – açılarsa artıq poeziyasını itirir və adiləşir. Qənaətimdə israrlıyam. Bəzən hətta müəllifin özü dəqiq yoza bilmir, daha doğrusu, deyir ki, filan şeirimdə filan fikri demək istəmişəm... Baxın, həqiqəti gizlətmədi: "demək istəmişəm". Ona görə belə etirafına gəlir ki, bir oxucu bu "yalanı" puça çıxarar və yozumunu əsaslandırar.

Şair Elşad Səfərlinin yaradıcılığını araşdıranda, xüsusilə, poeziyasını nəzərdə tuturam – bütöv bir vaxt kəsiyinin sosiologiyasını, əxlaqını və fəlsəfəsini gördüm. Bu "triada" cəmiyyətdəki mənəvi – ictimai münasibətləri poeziya prizmasında dövrləşdirir. İnsan fenomeninin yaşantıları; əzabları və sevincləri durur poeziyanın "əlifba"sında. Zaman misralarda fırlanır, amma əzilmir – üzü sərtdir, amansızdır – bəzən şairləri aldadır, di gəl, şairlər yalnız qeyri-ixtiyari sözə aldanırlar. Məntiqi bir də bundadır, bəzi ədəbiyyatçılar ədəbi düsturların elementar qaydalarını bilib, şair yaradıcılığını təhlil etməyə girişirlər. Mənə qərib gəlir ki, bir ildə bəlkə də, 40-50 şairdən, 20-30 şeir kitabından məqalələr, resenziyalar çap etdirirlər. Şair bir neçə ildə bu qədər şeir belə yazmaq iqtidarında olmur. Məntiqli – məntiqsiz ədəbiyyat nə qədər təzə fikir, yeni yanaşma, ədəbi məsləhət verə bilər ki, şair faydalansın. Heyif ki, bəzi istedadlı şairlərimiz tərifdən ötrü sinov gedirlər, təki, bəzi səssiz–fonoq-

ramma ilə oxuyanlar kimi gündəmdə qalsınlar. Mən Elşad Səfərlini belə təntənədən uzaq olmağa çağırıram!..

Bura qədər pis-yaxşı yazdım və vaxtilə yazdıqlarımı xəyalımdan keçirdim: necə yazmışam, nə demişəm, nəyi unutmuşam – olub-keçib. Onu bilirəm ki, bir istedadlı şairin ayrı-ayrı yaradıcılıq dövrlərini, şeir ovqatını, mövzu axtarışını təmkinlə izləmişəm, araşdırmışam və yazıya almışam. Bu, həm şairin, həm də mənim poetik zövq nəticələrimdir – zaman və məkan kəsiklərində. Mən itirməmişəm – tapmışam. Və istəmişəm yaxın illərimizin yaddaşında kölgələnməsin. Nədənsə kölgədən çəkinirəm, işıq axtarıram və işığa doğru gedirəm. Elşad Səfərli mənim üçün bitkin, böyük istedad sahibi, bütöv və işıqlı şairdir: dünən nə demişəmsə, bu gün də onu söylədim...

***15.12.2013***

# Elşad Səfərlinin ədəbi irsindən bəzi şeirlər

## YA İLAHİ, YA MƏHƏMMƏD, YA ƏLİ

Bir işə başlayan kimi, dilimdə
Səslənib: Allah, Məhəmməd, ya Əli.
İlahinin, Məhəmmədin, Əlinin,
Bir gün yetər bizlərə kömək əli.

Verən bizə hər nemətdən verib ki,
Verdiyin də O, hörmətdən verib ki,..
Allah bizə elə Vətən verib ki,
Mamır bitən daşı da lap sevməli.

Bu torpağa hopdusa qan ləkəsi ,
Alp ərənlər bitirib hər tikəsi.
Şəhid vercək fəryad çəkib növhəsi:[1]
“Nadə Əliyyən, Əliyən, ya Əli”.[2]

İnsan, olmasın rəftarın kəskincə,
Götür balı pətəyindən kəs incə...
Bir kəndlinin arx suyunu kəsincə,
Süfrəsində tikəsini kəsməli.

Araz bölümü bağrına dəymişkən,
Sən əyməliydin, yad səni əymişkən.
Vətən, sənin Söhrab Tahir demişkən,
Heç çöpün də olmayaydı bölməli.

[1] Yas mərasimləri, Kərbəla şəhidləri ilə bağlı yazılan ağı növü.
[2] Misra XIX əsrin tanınmış şairi Abdulla bəy Asiyə məxsusdur.

Nə düşmüsən yad əlində girincə?
Gücün, qüdrətin qolunda bəsincə...
Düşmən önündə dizlərin əsincə,
Bir gözəlin qabağında əsməli.

Quraq səhrasında da gül bitənsə,
O gülün başında bülbül ötənsə,
Bu torpağın hər qarışı Vətənsə,
Hər qarışı uğrunda da ölməli.

Az  qalıbdır düşmən ilə son cəngə,
Xoşluq ilə bitməzsə bu işgəncə,
Üç ad çəkib, əl ataram tüfəngə:
Ya İlahi,
Ya Məhəmməd,
Ya Əli!

***05.06.2013***

## BAYRAQ MƏNİM BAYRAĞIMDIR

("Astiaq" poemasından)

Midiya – qədim zamana
Bağlı dövlət varlığımdır.
Uzaq üfüqləri aşan
Qonaq mənim qonağımdır.

Bir yolçuyam – gendən gələn,
İlk oğuz elindən gələn.
İşığı dünəndən gələn
Çıraq mənim çırağımdır.

Tarix – ağzı qapalı qab,
Neçə suala yox cavab.
Açılmayan neçə kitab, -
Varaq mənim varağımdır.

Mərdi mərd atadan gələn,
Duası Qorquddan gələn.
Doğudan, Batıdan gələn
Soraq mənim sorağımdır.

Birdir Albaniya, Aran,
Atropatena, Girdiman.
O köklərdən budaqlanan
Budaq mənim budağımdır.

Torpaqdan pay verən andan,
Düşmən şirnikdi ardından.
İndi öz başımda sınan
Çanaq mənim çanağımdır.

Bununçün da qınağım var,
Toxtamaz sinə dağım var.
Öndə qisas sınağım var,
Sınaq mənim sınağımdır.

Cənubda çox səddi keçən,
Marağa, Mərəndi keçən,
Şimalda Dərbəndi keçən
Torpaq mənim torpağımdır.

Bağrımıza basılası,
Yolunda şəhid olası,
Təbriz üstə asılası
Bayraq mənim bayrağımdır!

## BAKIDA CƏMLƏŞƏN VƏTƏN

Yenə xəritənə baxdım,
Kənd-kənd seyrəkləşən Vətən.
Neçə yurda həsrət ilə,
Baxıb Nazimləşən[1] Vətən.

Hanı bir zaman Mannayla,
Midiyayla, Girdimanla,
Atropatena, Aranla
Kökü qədimləşən Vətən?

Hanı bəs Kərki, Kələki,
Şuşa yenildi niyə ki?
Hanı səndən gələn təpki,
Bunca həlimləşən Vətən.

Təbriz dərdi Arazlaşan,
Xalqı "güraz", "yeraz"laşan,
Sazı qəmlə avazlaşan,
"Zil"i də "bəm"ləşən Vətən.

Təkcə Bakı Vətən deyil,
"Geydiyimiz kətan" deyil...
Yurd niskili bitən deyil,
Gözləri nəmləşən Vətən.

[1] Qürbətdə yaşamağa məcbur olan böyük Nazim Hikmətin Vətən həsrətinə işarədir.

"Dost" da səndən üz çevirən,
Dərdini həzzə çevirən...
Yox başına duz  çevirən,
Sevinci qəmləşən Vətən.

Bəzən qurda, - yadda saxla,
Yurdu tapşırdın nə haqla?
Köpəkləri yalquzaqla,
Dalda himcimləşən Vətən.

Yurd-yurd xəritən kiçilib,
Ümidin kimə dikilib.
Sərhədlərindən çəkilib,
Bakıda cəmləşən Vətən.

***25.04.2013***

# TƏKCƏ BAKI VƏTƏN DEYİL

Mənim Vətən düşüncəmdə
Təkcə Bakı Vətən deyil.
Dəmir qapı Dərbəndsiz,
Marağasız, Təbrizsiz,
Vətəndə Vətəndən qıraqda qalan,
Neçə yurdsuz, neçə kəndsiz,
Bütöv Vətən həsrətimi
Təkcə Bakı torpaqlayıb
örtən deyil.

Mənim Vətən anlayışım
Xətai dövrünün geniş,
Böyük Vətən xəritəsi.
Bir zaman o xəritədə
Alınmaz qalaydı, qala,
Yurdun hər ucqar nöqtəsi.

Mənimçün Vətən – Midiya ,
Təbriz, Zəngəzur, Dərbənddi.
Borçalı elindən, Qarayazıdan
Üzü bu yana
Yurdlar cəmləşən Vətəndi.
Paytaxtı Təbriz olan dövlətə,
Xətainin qılıncla cızdığı xəritə -
Vətəndi.
Hanı o möhtəşəm Vətən, —
Parçalanmış, kiçilmiş ada.

Kənd-kənd boşalan ölkəyə,
Kənd-kənd düşmən doluşmada...

...Hamı şəhərə tələsir,
Çoxu evini atmada .
Yurd-yurd boşalan Vətənin
Yurd-Yurd düşməni artmada.

Kəndini atıb şəhərə
Tələsənlər villa tikir,
Ətrafına da sədd çəkir.
Boşalan kəndlərlə düşmən
Aramızda sərhəd çəkir.

Addımlarını gen atır,
Şəhər çalışır,
                    əlləşir.
Bakı yenə bütləşmədə,
Bakı yaman heykəlləşir.

Bu bəhsə girməkdi, nədi?
Kəndlər də heykəl sevmədə.
Oğullar var Nizaminin,
Nəsiminin, Füzulinin
Ziyarətinə getmədə.
Oğullar var heykəllərin
Önündə hey baş əymədə...

Şəhər əlçatmaz yerə də
İşıq salır,
              körpü çəkir.
Ucqar kəndin işıqsızlıq

Dərdinisə ilk növbədə
Qaçqın,
köçkün körpə çəkir.

Bu ucdan tək adamlar yox,
Kəndlər də üzü Bakıya.
Gedənləri geri dönmür,
Dikilib gözü Bakıya.

Hamı bura axışmada,
Kassalarda sıx növbədir.
Bakı bir "Badikubə"dir
Kimlər deyir ki, Kəbədir?...

...Gözdən uzaq ellərimiz,
Qeydinizə kim qalsın bəs?
Ay parçası qızlarımız,
Könlünüzü kim alsın bəs?

Çox Vətən deyən var, məgər
Bir dağ kəndi Vətən deyil?!
O kənd bu gün işğaldasa,
O kənd indi Vətən deyil?!

O kənd bu gün işğaldasa,
Sizin Vətən sevginiz də
Eybinizi örtən deyil.
Ayılın əfəndilər,
ayılın,
Təkcə Bakı Vətən deyil...

***15.05.2013***

## HAMI

Nə Biz var,
Nə Siz,
Nə də Onlar.
Mən var,
Sən var,
Bir də
Çay dənizə,
Dəniz ümmana qovuşantək,
qarışantək,
"Mən"in,
"Sən"in qovuşduğu,
qarışdığı
Hamı var.
Çay dənizdə,
Dəniz ümmanda itsə də
bitsə də,
"Hamı"da itməyən,
bitməyən
"Mən"in,
"Sən"in
Ömür davamı var,
Uğur davamı var.

Harda
Mən var,
Sən var,
Bir olan Hamı var,
Orda yenilməz Vətən var.

***22.10.2014***

## HAMI "SALAM, SALAM" DEYİR

***Salam Sarvana***

Hamı "Salam, Salam" deyir,
Deyilənə salam olsun.
Bazarda dəllal da dinir:
"Yaxşı yazır, balam olsun".

Hansı ruhdan qopan oddu?
Bəlkə də Artur Rembodu.
Sözə təzə nəfəs odu,
Hər kimdisə, halal olsun.

Birinci yer "bron"du ona,
Kimsə bunu çətin dana, -
Yüz il əvvəl, yüz il sonra,
Lap min əhli-qələm olsun.

Paxıl olasan gərək sən,
"Nəfəsi dardır" deyəsən.
Belədə yeri var desən: -
Yalançının...filan olsun.

Çoxu bəlli...göz görəsi
Özünü öyür hərəsi.
Varmı Salamtək birisi,
Hər misrası kəlam olsun?

Vurğun görsəydi indini,
Təzələrdi bir  bəndini:
“Söz əhlinin komandanı,
Mayakovski yox, Salam olsun”.

Sözü zülmətdə şam kimi,
Əzbərlənir kəlam kimi.
Çətin bir də Salam kimi
Şair hələm-hələm olsun...

***20.06.2013***

# SİNƏM SÖZ ÜÇÜN DARIXIR

*Kəndiri rezinmiş dar ağacımın –*
*Bəxtəvər başıma, hələ dartılır!..*

***Salam Sarvan***

Sinəm söz üçün darıxır,
Sinəm masaya dartılır.
Söz özü qəlibə çəkir, -
Sözlər misraya dartılır.

Yarpağın tökən ağaclar,
Quştək istini soraqlar.
Qışda üşüyən budaqlar,
Bahara, yaya dartılır.

Yollar Arazacan yüyrək,
Sonra...pasport...sərhəd...dirək.
Yurdu parçalanmış ürək,
O tay-bu taya dartılır.

Bir vaxt yazdım ölümdən çox,
Buyur, ölüm, hayfını çıx!
İndi daha qələmdən çox
Əlim əsaya dartılır.

Allaha yetmək eşqimi
Əhd edib, qıldım səcdəmi.

Xəyallarım Musa kimi
Turi-Sinaya dartılır.

Dönmüşəm titrək yarpağa, -
Yaş əsdirir sola-sağa.
Gedirəm, canım torpağa,
Ruhum səmaya dartılır!..

***15.06.2013***

## BİR ELŞAD SƏFƏRLİ VARDI DÜNYADA

Vaxtı bilinməzdir Göy verən hökmün,
Sabah... nə biləsən, bəlkə də bu gün.
Deyərsən: – həyatı qırılsa onun –
"Bir Elşad Səfərli  vardı dünyada".

Ana itkisindən qəlbi qırılan,
Qardaş xiffətindən bağrı yarılan.
Kədərdən,
               həsrətdən yanıb qovrulan,
Bir Elşad Səfərli vardı dünyada.

İlk eşqi daşlara dəyib toz olan,
Hər dərdi bölünüb bəlkə yüz olan,
Amalı,
          vicdanı,
                         qəlbi düz olan,
Bir Elşad Səfərli vardı dünyada.

Namərdlə qovğada heç çəkinməyən,
Çörəyin əlindən alsan – dinməyən.
Sənətə sevgisi bir an sönməyən,
Bir Elşad Səfərli vardı dünyada.

Yəqin yeri də var əbədiyyətdə,
Çünki söz payı var az-çox sənətdə.
Mübariz sifətdə,
                         mərd xasiyyətdə,
Bir Elşad Səfərli vardı dünyada.

Şərin düşməniydi, düzün aşiqi,
Hüsnün vurğunuydu, üzün aşiqi.
Şeirdə ilahi sözün aşiqi,
Bir Elşad Səfərli vardı dünyada.

Ömrün qatarına mindi söz ilən,
Haqqa doğru gedən yolu nazilən...
Ömrü o nazilən yerdən üzülən,
Bir Elşad Səfərli vardı dünyada.

Şeiri insanın ruhuna yatan,
Səsini kimsənin səsinə qatan,
İmzası paxılın gözünə batan,
Bir Elşad Səfərli vardı dünyada.

Axır hücrəsində sözlə nur geyər,
Tanrı hüzuruna şairtək gedər.
Gün gələr o namərd dostlar da deyər:
"Qaldı şair kimi adı dünyada,
Bir Elşad Səfərli vardı dünyada."

...Vaxtı bilinməzdir Göy verən hökmün,
Sabah... nə biləsən, bəlkə də bu gün.
Haçansa nağılı başlar bir ömrün:
"Biri vardı, biri yox,
Bir Elşad Səfərli vardı dünyada."

**06.03.2015**

## GİZLİ AXAN BULAQ

Цель творчества – самоотдача,
А не шумиха, не успех.
Позорно, ничего не знача,
Быть притчей на устах у всех.

**Борис Пастернак**

Моим стихам, как драгоценным винам
Настанет свой черед.

**Марина Светайева**

Məşhurlaşmaq istər söz bazarçısı,
Gəzib şöhrət tapmaq sorağındadı.
Dillərə sözünün düşməsindən çox,
Adının düşməsi marağındadı.

Pasternak demişkən: yaxşı hal deyil,
Layiq olmadığın adlar alasan;
Sənətlik bir işin olmasın, amma
Hamının ağzında əzbər olasan.

Adı dilə düşmək istedad deyil,
Sənətdə qalmaq da deyildir hələ.
Dildə lətifəyə dönməyin özü,
Şöhrətli olmaq da deyildir hələ.

Yalandan padşahlar olub tarixdə,
Yalandan şair də çoxuymuş, qada.
Məzhəbin qarışıb, haqqın itdiyi
Mühitdə ədalət yoxmuş dünyada.

Özünü öyənlər, göynən gedənlər,
Güya ki, sənətin zirvəsindədir.
Müşfiqin sözündən "maya  tutanın"
Özünün mayası toz qismindədir.

Su gərək quyunun özündən çıxa,
Su yoxsa, quyu koy quyu kimidir.
Eləsi də var ki, suyu özgənin
"Suyunun suyunun suyu" kimidir.

Kiminsə tostundan, lax tərifindən,
Şellənib burnunu dik tutana bax.
Elşad Səfərlinin "şeş"i önündə,
Zərləri cütləyib "yek" atana bax.

Hay-küydən kənarda qalsam da, ancaq
Uğursuz saymıram şair bəxtimi.
Sənətçün haçansa gizli qalanlar,
Sonra üzə çıxıb xəzinə kimi.

Sabah xəzinətək üzə çıxası,
Şairlər qalxanda papaq altından,
Hansı yollarnansa "tanınmışların",
Çoxu qopub düşər tərif atından.

Yalnız öz sözümün sahibiyəm mən,
Özgə çeşməsinə göz dikməmişəm.

Rüzgar qorxusu yox söz mülkümün də,
Mən ki, qum üstündə ev tikməmişəm.

Mənimçün yüzüncü dərəcəlidi,
Kim məni tanıyır, kim tanımayır.
Çünki yaddaşlarda qalıb-qalmamaq,
Təkcə tanınmaqla həll olunmayır.

Nə şöhrət axtardım, nə də can atdım
Özümü şairtək mən tanıtmağa.
Bilirdim layiqli sözü olanı,
Sənətin haqqı yox,
                    yox unutmağa!

Xülasə... fikrimi söyləyim kəsə,
Sözü sözçülüklə verməyim bada.
Mən, sözümü büküb atdım dəryaya,
Kimə ki aiddir, götürsün, qada.

...Mən bir gizli axan qaynar bulağam,
Özümü, fikrim yox gözə soxmağa.
Təki suyum olsun şəffaf, içməli,
Gec-tez yol tapılar üzə çıxmağa.

***24.07.2008***

## SÖZ BAZARÇISI

*Dil bazarçısı yalandır, varmazam bazarinə*

***İ.Nəsimi***

Bazarın mübarək, söz bazarçısı,
Yaman aludəsən öz bazarına.
İndi ki, şeirə ucuzluq düşüb,
Matahını çıxart tez bazarına.

Nəyin var töküb, yığ söz piştaxtana,
Bu da bir imkandır, düşüb baxtına.
Yarat,
boşa verib, qıyma vaxtına,
Hələ ki, qoyan yox "mız" bazarına.

Yoxsa söz uğrunda bir rəqabət var,
"Meydan sulamada" təzə imzalar,
Kitab bağlayırsan sən də tezbazar,
Varam cəldliyinə, tezbazarına.

Kimsə lovğalanıb, burnu dik gedir,
Biri var, lap öndə guya tək gedir.
Maşallah, sənin də sözün bərk gedir,
Baxan yox boz sözün boz bazarına.

İmza var, şeirdə heç öz sözü yox,
İmza var, məddahlıq pozub ─üzü yox,
Kiminsə sözünün qəti duzu yox,
Tutub göndərəsən duz bazarına.

Tənqidçi də susur, heç yaxın durmur,
Kiminsə könlünə bəlkə toxunmur?
Sonra da deyirlər kitab oxunmur,
Necə üz tutasan bez bazarına.

Bazarın mübarək, söz bazarçısı,
Başını qatmısan öz bazarına.
Söz ceyran belinə çıxsa da bir gün,
Varmazam mən ucuz söz bazarına.

***09.01.2012***

## MƏSLƏHƏT

*İddiası yerə-göyə sığmayanın birinə...*

Bir-iki hekayən var, alababatdır, qada,
Böyük iddialara bu amma uyğun gəlmir.
Dünyada bir nömrəli romançı olmaq haqda
Fikrini eşitmişəm, bəlkə də çoxu bilmir.

İddia yaxşı şeydir, gərək imkan da olsun,
Təkəbbür istəyinə bu yolda imdad deyil.
Prezident təqaüdün nə yollasa almısan,
Xoşun olsun, təqaüd amma istedad deyil.

Bəlkə sən bir nömrəli hekayəçi olasan?
Bunasa qadirliyin bilinəcək yazından:
Ya gərək Çexov olub, birinci sayılasan,
Əziz Nesin olasan ya da gərək azından.

**23.05.2013**

♦♦♦

Saatın "qulağını" burub,
İşləməyə vadar etdim.
"Qulaqburması" verib,
Vaxtı diriltdim...

**09.07.2013**

## VAXTIN TƏNBƏL VAXTI

Gecədir... divarda vaxtın eşitdim
Ağırlaşan, yorğun sədalarını.
Yarıyuxuludur əqrəblər sanki,
Tənbəl-tənbəl atır addımlarını.

***09.07.2008***

## MƏNİM BELİNSKİM

Əvvəl bəzən olub, düşünmüşəm ki,
Şairinki təkcə şeir yazmaqdır;
Yazdığına uyğun uğuru varsa,
Şöhrət ünvanını tez tapacaqdır.

Demə yanılmışam öz düşüncəmdə,
Demə uşaqmışam, ağlım kəsməyib.
Demə inanmışam nağıllara çox,
Əsil gerçəyisə nağlım "kəsməyib".

İndi çox mənzilin öz xidmətçisi,
İndi çox yolçunun bələdçisi var.
"Tanınmış" şairin, yazıçının da,
Demə hər birinin tənqidçisi var.

"Əl əli yuyarmış, əl də ki üzü", -
Bugünkü sənətdə gerçəkliyə bax.

Kiminsə tərifdən yanağı pörtüb,
Üzündə laləli çiçəkliyə bax.

Mənim muzda xidmət tənqidçim yoxdu,
Bir yandan da düşdüm mən əyalətə.
Sufi şair kimi şeirlərimi
Götürüb çəkildim sanki xəlvətə.

Nəyimə gərəkdir muzdlu tənqidçi, -
Muzd verib özümə tərif yazdırım.
Şərəfli sözümə, – tərif xətrinə,
Nə lazım belə bir "şərəf" yazdırım.

Nəyimə gərəkdir muzdlu tənqidçi,
Onun söz kifinə ehtiyacım yox.
Bu gün "dəmdə" olan bir "tənqidçinin",
Cılız tərifinə ehtiyacım yox.

Puşkini tanıdan Belinski oldu,
Bu, bir həqiqətdir – bilməyən kimdir?
Mənim Belinskiyə ehtiyacım yox,
Mənim Belinskim - öz şeirimdir.

***04.03.2012***

## ÜMİD

Mən bir ağacam–
Ömür ağacı.
Arzularımı dibinə tökmüşəm
Gübrə kimi.
İstəklərimə ümidli olacağam
Qəbrə kimi.

***19.05.2014***

## “TAYLI TAYINI TAPAR”

Atalardan qalma
Sözlərin çoxu düzmüş.
“Taylı tayını tapar”–
Bu da düz sözmüş.
Qəribədir,
Elə tapışıblar ki,
Generalları yox,
Ədəbiyyatın serjantları
Daha çox cəlb edir
Tənqidçi diletantları.

***09.10.2014***

## KƏNDƏ QAYITMIŞDIM

Kəndə qayıtmışdım...kəndə girməmiş,
Bir az aralıda maşından düşdüm.
Elə bil bədəndən ayrılan ruhdum,
Təzədən özümə gəlib qovuşdum.

Əsər qalmamışdı getdiyim kənddən,
Gördüyüm mənzərə tamam başqaydı.
Kəndi yuxusundan sübhün quşları,
Şehli nəğməsiylə oyatmaqdaydı.

Məni quşlar oldu ilk qarşılayan,
Sevinc çağlayırdı səs-sədasında.
Çinarlar da məni salamladılar,
Əzəli farağat komandasında.

Tələsik şəklimi çəkdi dağ çayı,
Şəklim kəndə tezdən çatmışdı artıq.
Bəlkə ona görə doğmalarımtək,
Çoxuna sifətim tanışdı artıq.

Duyuq salmışdı da eli-obanı,
Mənim çay surətim, mənim çay əksim.
Duyuq düşmüşdü lap ilk məhəbbətim,
Qoynunda hələ də xatirə şəklim.

Durur ağrılarım o eşqlə bağlı,
İlk eşqin ünvanı o qız da durur.

O qız ölən eşqə başdaşı kimi,
O eşqin başında yalqız da durur.

Arayım-axtarım günahı kimdə,
Əfvə yerim olsa üzüm gülərmi?
O qızın önündə son nəfəsimdə,
"Bağışla" deməyə üzüm gələrmi?

...Girdim qapısından "o dünya"nın da,
Gördüm ölüm-itim dərdim səngimir.
Sarıldım anamın baş daşına ki,
Nədəndir yuxuma girmir ki, girmir.

Kimə ki, ehtiram borcum var idi,
Əyilib daşına ehtiram etdim.
Sonra da qayıdıb öz kənd dünyama,
Neçə xatirəmin dalınca getdim.

Ürəyim şirincə sızıldayırdı,
Özüm öz yaramı mən qanatmışdım.
Arı yuvasıydı xatirələrim,
Arı yuvasına çöp uzatmışdım.

**7-8.02.2012**

♦♦♦

Məmləkətə
Ulduz yağışı yağır.
Çadırlardan
Ulduz yağışına baxır,
Fağır-fağır
Qaçqın-köçkün balaları.
Çiyinlərə yağış yerinə
Göydən iri-iri
Ulduzlar yağır.
Paqonlarına
Növbəti ulduzları düzməknən məşğuldu,
Məğlub ordunun generalları.
Döyüş uğurları var bəlkə?..
Bundan qürur duyurmu,
Çadırlı,
Qızları qara çadralı ölkə?!

***02.04.2002.***

♦♦♦

Qurd quzuyla otlayır, gözümə inanmıram,
Bu yalan təsvir deyil, gördüyümü danmıram.
Nə qədər sentimental görüntüdür, ilahi,
Bəşərin xilas yolu bəlkə budur, ilahi!

Qıraqdan baxanlarda həsəd hissi duyulur,
Kiminsə bu səhnədən gözləri bic-bic gülür.
Bütlərin dövranı da mütilərlə bağlıdır,-
Qurd-quzu birliyinin ömründən asılıdır.

Quzu xasiyyətində sakitdir, mum kimidir,
Qurd görən, rəftarında nə qədər səmimidir?
Qurd quzuyla otlayır, nə kövrək mənzərədir,
Bəs çobanın əlində tutduğu çomaq nədir?!

***11.09.2002***

## BUZ HEYKƏLLƏR

Antarktidada
Yaşayış olsaydı,
Yəqin orda heykəllər də
Buzdan qoyulardı.
Ehtiyac olmazdı
Mərmərə,
                daşa.
Tunca,
Bürüncə.
Bəlkə də,
Qış olduğu üçün,
Ya da,
Üstlərini qar örtdüyüyçün,
Adama elə gəlir ki,
Bizdəki heykəllərin bəzisi
Buzdan qoyulub.
Yəqin
Zaman dəyişən kimi,
Tarixin alt layları
İstiləşən kimi,
Gün düşən kimi
Yaddaşımızın quzey qatına,
Bu heykəllər də
Öz-özünə əriyib,
Töküləcək ayaqlar altına.

***05.01.2004***

## ÜMİD VƏ UZAQ YAŞIL ADA

*V.Səmədoğluna*

O uzaq,
Yaşıl adaya
Üz tutan gəmi,
Küləyin kəsməyindən
Narahat olma.
Külək dayananda,
Yelkəninə ümidin dolacaq.
Qatıb qabağına
Səni o adaya aparası
Külək yox,
Ümidin olacaq.

***20.07.2014***

♦♦♦

Uşaqkən oxumuşam Cani Rodarinin mən,
Yalanlar ölkəsindən[1] bəhs edən əsərini.
O yurdun, oxudum ki, adamları adətən,
Yalançı adlar ilə tanıyır bir-birini.

Mən düşən mühitdə də yalan meydan sulayır,
Həqiqəti deyəni qoymurlar it yerinə.
Heykəllik olanı var, onu müqəvva sayır,
Müqəvva olanısa qoyurlar büt yerinə.

Burda stol başına çəkirlər hər qoyunu,
Tərifi də ilk öncə ona dair deyirlər.
İstedadsız adama istedad etalonu,
Şair olmayana da burda şair deyirlər.

O yerdə ki, adamlar adıyla çağırılmır,
O yerdə ədalətdən danışmağa yer qalmır.

***01.09.2000***

.

[1] C. Rodarinin " Celsomino yalançılar ölkəsində" əsəri nəzərdə tutulur

♦♦♦

Mən Petrarka deyiləm, heç ola da bilmərəm,
Ancaq ki, görmürəm də ondan əskikliyimi.
Kimsə ona oxşadır sonetdə kimliyimi,
Gərək onda başıma dəfnədən çələng hörəm.

Fəqət parlamaq üçün böyük sələfim kimi,
Vacibdir qəlbimin tam odunu sözə verəm.
Bu an içimdə doğan məşhur ustadı görəm,
O "Mən"imlə yaradım layiqli hər sətrimi.

Təkcə Lauram çatmır, di gəl ki, öz Sevdam var,
Bu sevdadan bitişər sinəmdə lap min yaram.
Barı kamala yetən sevgimdən qoy alım kam.

Sənətdə yer uğrunda mənim də iddiam var,
Bundan ilhamlanaram, min yol qürur duyaram,
Azərbaycan şerinin Petrarkası sayılsam.

***02.04.2005***

## “PƏNCƏRƏDƏN DAŞ GƏLİR”

*Bəzi nakam qızlara*

“Pəncərədən daş gəlir”-
Üz söykəyib millərə,
Yenə qəmli ötürsən
Baxa-baxa güllərə.

Qəmlisən,
neyləyəsən,
Pəncərədən daş gəlmir.
Könül sevən bir oğlan
Pəncərənə tuş gəlmir.

Gün keçir , aylar ötür,
Yaş üstünə yaş gəlir.
İndi bildin gözündən,
Gülüm, niyə yaş gəlir.

Qarğıyırsan bəxtini,
Ayüzlü qızlar kimi,
Düşməmisən dillərə.
Vaysınırsan dən düşüb,
Tez ağaran tellərə.

Tanrıdan çox paklığın
Əgər sənə yardırsa,

Üzünə baxan olar.
Üz tutduğun yolların
Əgər uğurludursa,
Yoluna çıxan olar.

Bir də gördün bir oğlan
Pəncərənə tuş gəlir.
Bir də görərsən, gülüm,
Pəncərədən daş gəlir.

Qulağına səs gələr:
"Ay bəri bax, bəri bax".

Tez açarsan milləri,
Pəncərəni daş dələr.
Ürəyin də atlanar,
Sevincindən dözməyib,
Gözlərindən yaş gələr.

## XOKKU

Mərmər sinələr,
Sizi görənlər yanır,
Çətin bir də sönələr.

***15.09.2014***

# CÜT QARALTI

Ay kəndin başında ucalan çinar,
Necə də bəxtəvər günlərin vardı.
Dönmüşdün gizlicə görüş yerinə,
Altında elə ki, qaş qaralardı,
Bir cüt də qaraltı peyda olardı.

Sənə məhrəm idi o cüt qaraltı,
Sözü-söhbətləri gizli qalardı.
Onda eşitdiyin quş səsi deyil,
Yalnız sevgi dolu pıçıltılardı.

...Deyən tez ötüşdü illər,
fəsillər,
Daha boş görünür çinarın altı.
Ay kəndin başında tək qalan çinar,
Hanı bəs altında o cüt qaraltı?

Niyə ayağını kəsdilər səndən,
Sevgiylə ötüşən günlərin hanı?
Başının üstündən illər ötəndən
Altında görən yox cüt qaraltını.

Yəqin əhdə yetib, yuva qurublar,
Nə bir səs-səmir var, nə bir pıçıltı.
Daha bir kimsəni gözləmə, çinar,
Daha ələ düşməz o cüt qaraltı.

***09.12.1993***

♦♦♦

Meşədə,
Neçə ağac ömrü baltalanmışdı,
Amma kötüklərdən
Təzə pöhrələr boy atmışdı,
Böyümüşdü.
Kəsilən ağacların halına
Onda bir quş ağlamışdı.
Gözündən bir damla yaş
Oturduğu ağacın dibinə düşmüşdü.
O ağac, sonra
Kötüyünəcən qurumuşdu...
İndi sən də,
O salxım söyüdün yanında durub,
Axıtma dibinə göz yaşını.
Demə: bəxtin üzünə gülmür.
Baltanın kəsdiyinə dirçəlmək olur,
Göz yaşına dirçəlmək olmur.

***13.04.2002***

## UĞURSUZ EŞQ NOVELLASI

Kibrit çəkdin elə bil,
Məni alışdırdın bu sevgiylə.
Yanğısı çox olsa da,
Məni alışdırdın bu sevgiyə.

Oldum eşq aludəsi,
Bu eşqə divanə oldum.
Sən–ürəyi başı üstə
Şöləlænən zərif bir şam-
Mən yanan pərvanə oldum.

Sən Leylimisal bir gözəl,-
Mən o misalın felinə düşdüm.
Özümü Qeysmisal apardım ki,
Necə Məcnun dilinə düşdüm.

İlahi eşqi qoyub bir yana,
Qoy iki sevəndən deyim.
Özümdən dediyim bəsdi,
Pərvanə-şam eşqindən deyim.

...Şamın ürəyi yanıb-yanıb,
Şamın əriyən qatına düşdü.
Pərvanənin Şama qarışan başı,
O eşqin ayaq altına düşdü...

***22.09.2014***

**Əlavə**

## Elşad Səfərlinin yaradıcılığı – kitabları haqqında yazılan məqalə, resenziya, ədəbi yazılar, qeydlər, rəylər, söylənilən fikir və mülahizələrin çap olunduğu ədəbiyyat


1. Aslan Ş. Uğurlu yol. Məhəbbət və inam (Elşad Səfərlinin ilk şeirləri haqqında). “Leninçi” qəz., Lənkəran, 1981, 21 noyabr, №138(5692), s.4
2. Abbas M. Şeirin bulaq yolu. “Yalnız sevgi” kitabı haqqında. “Aşkarlıq” qəz., Bakı, 2002, 5 fevral, №1-2(43),s.8
3. Ağazadə Y. “Səhərə tələsən qatar”. Məqalə//Şəfəq, Bakı, 1997, №3-4, s.32-34
4. Babayev M. Sözün işığında sabahlara gedən şair. “Ədalət” qəz., Bakı, 2012, 19 dekabr. №230 (4021), s.6
5. Babayev M. “Bu, Elşad Səfərlidir”. “Vətəndaş Həmrəyliyi” qəz., Bakı, 2013, 7 fevral, №02 (862), s.14
6. Cavadov X. Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Elşad Səfərliyə açıq məktub. “Yalnız sevgi” kitabı haqqında bəzi qeydlər. “Lənkəran” qəz., Bakı, 2000, 17 may, №9 (7714). s.4
7. Cavadov X. Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Elşad Səfərliyə açıq məktub (ardı). “Lənkəran” qəz., Bakı, 2000, 31 may, №10(7715), s.3.

8. Cavadov X. Elşad Səfərli-50. "Respublika həyatı" qəz., Bakı, 2007, 29 iyul, №4(08)
9. Cavadov X. "Bu, Elşad Səfərlidir". "Lənkəran" qəz., Bakı, 2013, 25 aprel, №15-16(8195), s.7.
10. "Cənub xəbərləri" qəz.. Yeni nəşrlər. E.Səfərlinin "Sabir Rüstəmxanlının fərdi yaradıcılıq üslubu" monoqrafiyası və tədqiqatçı-ədəbiyyatşünas Zərbi Ələsgərovun E.Səfərli yaradıcılığından bəhs edən "Hələ yol gələn arzuyam" ədəbi etüdlər kitabı haqqında məlumatlar və şairin bir şeiri oxuculara təqdim edilir. Bakı, 2003, 29 oktyabr-4 noyabr, № 23(46), s.4
11. Eminov A. Poeziyaya borclu şair. Bakı/ Məşəl, 2011, №1-2, s.47-50.
12. Eminov A. Poeziyaya borclu şair (Təkrar nəşr). "Aşkarlıq" qəz. Bakı, 2011,18-30 aprel, №3-4 (37), s.7.
13. Eminov A. Şair istəyi (Elşad Səfərlinin 50 illiyinə). "Ədəbiyyat qəzeti" qəz., Bakı, 2007,27 iyul, №29 (3572), s.5.
14. Eminov A. Qəfil zəng, yaxud Elşad Səfərlinin yeni kitabına kiçik bir müqəddimə. "Şair təkliyə məhkumdu" kitabına "ön söz". Bakı, Nurlan, 2004, s.3-18.
15. Eminov A. Elşad Səfərlinin poemaları haqqında bir neçə söz. "Poemalar" kitabına "ön söz". Bakı, Gənclik, 2011, s.3-28.
16. Eminov A. Ruh gücündən yaranan istedad. E.Səfərlinin 55 illiyinə. "Lənkəran" qəz., Bakı, 2011, 9 iyun, №20-21 (8155), s.7.
17. Eminov A. Ruh gücündən yaranan istedad. "Bu, Elşad Səfərlidir" kitabına ön söz. Bakı, Gənclik, 2012, s.3-12.
18. Eminov A.Elşad Səfərlinin poeziyası: düşüncələr, mülahizələr. Bakı, "Elm və təhsil", 2015, 214 s.

19. Əfəndiyeva R. Pöhrə bir gün çinarlaşar. "Yeni fikir" qəz., Bakı, 1991, 28 noyabr, №48(78),s.7
20. Əlibəyov C. Şeirin dərd-qəm qatarı. "Səhərə tələsən qatar" kitabı haqqında. "Yeni Era" qəz.. Bakı, 1999, 12-13 oktyabr, №32 (032), s.7.
21. Əlibəyov C. Şeirin dərd-qəm qatarı. "Səhərə tələsən qatar" kitabı haqqında. Bakı//Söz, 1999, №5-6, s.34.
22. Əlibəyov C. Şeirin dərd-qəm qatarı. "Səhərə tələsən qatar" kitabına "ön söz". Bakı, Gənclik, 2009, s.3-10.
23. Əliyev Ə. Musa Babayev. Zamanla müxalifətdə olan şair. "Şair təkliyə məhkumdu" kitabı haqqında. "Sənət qəzeti" qəz., Bakı, 2004, 23. 10-05 noyabr, №15(015), s. 17
24. Əliyev Ə. Musa Babayev. Sabir Rüstəmxanlı poetikasının tədqiqi. "Sənət qəzeti" qəz., Bakı, 2004, 23. 11-30 noyabr, №17(017), s.11
25. Əliyev Əlif. "Səhərə tələsən qatar" (məqalə şairin arxivindədir).
26. Ələsgərov Z. Narahat şairin poeziya dünyası. (Elşad Səfərlinin "Yalnız sevgi" kitabı haqqında) //Alov, Bakı, 2001, №1-2, s.44-45
27. Ələsgərov Z. Hələ yol gələn arzuyam. Şair Elşad Səfərlinin yaradıcılığı haqqında esselər. Bakı, Nurlan, 2002, 102s.
28. Əhədov E. E.Səfərli haqqında. "Aşkarlıq" qəz., Bakı, 2011, 12-30 iyul, №5-6 (39), s.6.
29. Əhədov E. Poeziya işığında. "Aşkarlıq" qəz., Bakı, 2007, may, №1-2 (83-84), s.7.
30. Əhədov E. Elşad Səfərlinin poeziyası. "Aşkarlıq" qəz., Bakı, 1996, noyabr, №3(7), s.4.

31. Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzilliklərdə) Ensiklopedik məlumat kitabı. "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi. Bakı, 2011, s.206
32. Əsədullayev S. Azərbaycan poeziyasında sonet janrı//Azərbaycan, 2003, №6, s.172-184
33. Əsədullayev S. Azərbaycan poeziyasında sonet janrı. Monoqrafiya. Bakı. Mütərcim, 2002, s.50-51
34. Əsgərova Z. Elşad Səfərlinin "Sözü ürəyində qalan adam" kitabına redaktor rəyi (Rəy şairin arxivindədir). 28 dekabr, 1992
35. Həşimli H. Azərbaycan poeziyasında sonet və terset (E.Səfərlinin sonetləri haqqında). Bakı, Elm, 2003, s. 152-158; s.181-184.
36. Həşimli H.Azərbaycan ədəbi mühiti və türk dünyası. Bakı, Mütərcim, 2009, s.173.
37. Həşimli H. Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı, Elm və təhsil, 2009, s.203-205; s.225-227.
38. Həşimli H.Azərbaycan ədəbiyyatında Avropa mənşəli lirik janrlar: fil.elm.dok.dis.avtoref: Naxçıvan, 2011, s.31-42-43
39. Həşimli H. Türk halklarının edebiyyat ilişkilerine dair Araştırmalar (Türk dilində). Ankara Kültür Ajans Yayınları, 2009, s.137
40. Həsənli A. Bölgədə yaşamaq şərt deyil. Elşad Səfərliyə məktub. Elşad Səfərlinin "Poemalar" kitabı haqqında. "Ədalət" qəz., Bakı, 2011,19 may №88 (3639).s.6.
41. Həsənli A. Bölgədə yaşayan ölkə şairi. Elşad Səfərliyə məktub. "Vətən daşı olmayandan..." kitabında. Bakı, Elm və təhsil, 2012,s.149-154.

42. Həsənov Ə. Vətənpərvər şairin yeni söz çələngi. "Azad Azərbaycan" qəz., Bakı, 2011, 26 oktyabr, №155 (2026), s.7.
43. Hüseynov R. (Faxralı) Ovqat tərcümanı. "Dədəm Qorqud" qəz., Bakı, 1991, 31 dekabr-7 yanvar, 1992, №24, s.6
44. Xəlilov Ə. Sonet janrı və Şərq-Qərb məsələsi. "Azərbaycan müəllimi" qəz., Bakı, 2008, 20 iyun
45. Xəlilov Ə.Dünya ədəbiyyatı. Dərslik. 7 cilddə, II cild, Bakı, "Bilik" nəşriyyatı, 2011-2014, 550 s.
46. Xanbabazadə M. "Səhərə tələsən qatar". "Lənkəran" qəz., Bakı, 1997, 24 oktyabr, №20 (7373), s.3
47. Xanbabazadə M. Elşad Səfərlinin iki poeması. "Kaspi" qəzeti, Bakı, 2013, 30 noyabr-2 dekabr, №219 (3073), s.18
48. Kazımov K.Elşad Səfərlinin sonetləri. "Qloballaşma və Azərbaycan " (məqalələr məcmuəsi). Bakı, Adiloğlu, 2002, 276s.
49. Kazımov K. Elşad Səfərli-50. Yarım əsrlik şair ömrü. "Lənkəran" qəz., Bakı, 2007, 06 aprel, №11-12 (7939), s.7
50. Kərimli Ə. Lənkərandan olan ziyalılar. "Hərbi nəşriyyat", Bakı, 2000, s.182
51. Qaraxanoğlu M.Şair Elşad Səfərlinin oğlu Turana açıq məktub. "Sənət qəzeti" qəz., Bakı, 2005, 15.01-31.01 №01 (020), s.22
52. Qiyas Əcaib (Vəkilov). İnam. "Azərbaycan müəllimi" qəz.. 1991, 30 yanvar, № 8(7047), s.4
53. Qardaşxan F. Əbülfət Mədətoğlu. "Bu, Elşad Səfərlidir". "Ədalət" qəz., Bakı, 2013, 10 yanvar, №3(4031), s.6

54. Qardaşxan F. Əbülfət Mədətoğlu. "Bu, Elşad Səfərlidir". "Yaşıl çay" jurnalı, Bakı, 2013, fevral, №02(04), s.108-110
55. Məmmədli Y. Sözə güzəşt. Elşad Səfərlinin "Dünya ömür yoludur" kitabı haqqında məqalə. "Araşdırma, esse, məqalələr" kitabında. Bakı, "MBM", 2009, s. 245-246
56. Məhəmmədəli M. Sabir Rüstəmxanlı poeziyasına yeni baxış. "Ədalət" qəz., Bakı, 2004, 17 iyun, №112(1977), s.6
57. Məhəmmədəli M. Sevgiyə məhkum şair. Elşad Səfərli-50. "Ədalət" qəz., Bakı, 2007, 31 yanvar, №16(2619), s.6
58. Məmmədov S. Nurullayev Ə.Əhədov E. Gərmətük salnaməsi. Bakı, "Ol" MMC, 2014, s. 281-283
59. Möhübbətqızı Y. "Poemalar" – insan ömrünə bir baxış. Elşad Səfərlinin "Poemalar" kitabı haqqında. "Dövlət və Qanun" qəz., Bakı, 2011, 10-25 iyun, №11-12(297-298), s.5
60. Naxçıvanlı Ə. Uzaq yolun başlanğıcı. "Dünya ömür yoludur" kitabına resenziya. "Lənkəran" qəzeti, Bakı, 1991, 27 dekabr, №139 (7115).
61. Naxçıvanlı Ə. Uzaq yolun başlanğıcı. "Dünya ömür yoludur" kitabına resenziya. "Azərbaycan gəncləri" qəz., Bakı.1992, 18 mart, №26 (11875),s.4.
62. Naxçıvanlı Ə. "De, gəlsin, hər nəyin vardır" , Elşad Səfərlinin "Sözü ürəyində qalan adam" kitabı haqqında resenziya. "İki sahil" qəz.,Bakı,1993, 18 dekabr, №63 (1358), s.3.
63. Naxçıvanlı Ə. Ağılla hissin vəhdəti. "Bu, Elşad Səfərlidir" kitabına resenziya. "Kredo" qəzeti, Bakı, 2014, 22 mart, №12 (767), s.15

64. Rüstəmli H. "Yalnız sevgi" şeirlər kitabının nəşri barədə. "Respublika" qəz., Bakı, 2000, 21 may, № 112 (850), s.8
65. Sonet janrı və Azərbaycan soneti. "Aşkarlıq" qəz., Bakı, 2015, 12 mart № 03-04 (167-168) s.7
66. Şahin F. Qürbət Əziz hara, Elşad Səfərli hara. "Həqiqət" qəz., Bakı, 2000, 1-7 iyun, №16(220), s.6-8
67. Şahin F. Təkliyə məhkum olan şairin altıncı kitabı. "Şair təkliyə məhkumdu" kitabına resenziya. "Planet Press" qəz., Bakı, 2004, 10-16 fevral, №69(70), s.6
68. Şahin F. Təkliyə məhkum olan şairin altıncı kitabı. "Şair təkliyə məhkumdu" kitabına "son söz əvəzi". Bakı, Nurlan, 2004, s.227-233
69. Şahin F. Azərbaycan haykuları. Bakı, "Təknur" MMC,2007,s.9
70. Şahin F. Yaponiya səfərnaməsi (Elşad Səfərlinin xokku yaradıcılığı barədə qeydlər). Bakı, Elm və təhsil, 2011, s.99-100
71. Şahin F. "Bu, Elşad Səfərlidir". Məqalə. "Palitra" qəz., Bakı, 2013, 25 aprel, №72(1926), s.12
72. Şahin F. IV divan. "Bu, Elşad Səfərlidir". Şeir. Bakı, Elm və təhsil, 2014, s.566-568
73. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Dərslik. Bakı, Proqres, 2012,s.205
74. Talışlı M., Əhədov E. Lənkəran: Ensiklopedik məlumat. Bakı, "Əbilov, Zeynalov qardaşları", 2014, s.125

# KİTABIN İÇİNDƏKİLƏR

***Ön söz əvəzi***
Elşad Səfərli və onun poeziyasına qısa bir baxış ................ 3
***Birinci məqalə***
Poeziyaya borclu şair ...................................................... 76
***İkinci məqalə***
Şair istəyi........................................................................ 86
***Üçüncü məqalə***
Elşad Səfərlinin poemaları haqqında bir neçə söz ............ 89
***Dördüncü məqalə***
Ruh gücündən yaranan istedad......................................... 112
***Beşinci məqalə***
Qəfil zəng, yaxud Elşad Səfərlinin yeni kitabına
kiçik bir müqəddimə ...................................................... 125
***Altıncı məqalə***
Bir kitabın təəssüratı, yaxud dəyərli araşdırma............... 141
**Son söz əvəzi**.................................................................. 156
**Elşad Səfərlinin ədəbi irsindən bəzi şeirlər**................. 161
Ya İlahi, ya Məhəmməd, ya Əli.............................................. 162
Bayraq mənim bayrağımdır ................................................... 164
Bakıda cəmləşən vətən ......................................................... 166
Təkcə Bakı Vətən deyil.......................................................... 168
Hamı.................................................................................... 171
Hamı “Salam, Salam” deyir.................................................... 172
Sinəm söz üçün darıxır.......................................................... 174
Bir Elşad Səfərli vardı dünyada ............................................. 176
Gizli axan bulaq ................................................................... 178
Söz bazarçısı ....................................................................... 181
Məsləhət.............................................................................. 183

Saatın "qulağını" burub ........ 183
Vaxtın tənbəl vaxtı ........ 184
Mənim Belinskim ........ 184
Ümid ........ 186
"Taylı tayını tapar" ........ 186
Kəndə qayıtmışdım ........ 187
Məmləkətə ulduz yağışı yağır ........ 189
Qurd quzuyla otlayır ........ 190
Buz heykəllər ........ 191
Ümid və uzaq yaşıl ada ........ 192
Uşaqkən oxumuşam Cani Rodarinin mən ........ 193
Mən Petrarka deyiləm ........ 194
"Pəncərədən daş gəlir" ........ 195
Xokku ........ 197
Cüt qaraltı ........ 198
Meşədə ........ 199
Uğursuz eşq novellası ........ 200
**Əlavə ........ 205**

# Allahverdi İsgəndər oğlu Eminov

## ELŞAD SƏFƏRLİNİN POEZİYASI: DÜŞÜNCƏLƏR, MÜLAHİZƏLƏR

***Azərbaycan dilində***

Bakı. Elm və təhsil. 2015

Nəşriyyatın direktoru: **Nadir Məmmədli,**
*filologiya üzrə elmlər doktoru, professor*

Mətbəənin direktoru: **Şəddad Cəfərov**
*iqtisadiyyat üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü*

Redaktor: **Adil Cəmil**
*şair, filologiya üzrə fəlsəfə doktoru*
Korrektor: Əməl Kərimova
Dizayner: Mülayim Vəliyeva

Yığılmağa verilmişdir: 05.01.2015.
Çapa imzalanmışdır: 25.05.2014.
Kağız formatı: 60/90 1/16. Fiziki ç. v.: 13,375.
Tirajı: 1000. Sifariş: 52.

Kitab "3 saylı Bakı Mətbəəsi" ASC-də hazır diapozitivlərdən ofset üsulu ilə çap edilmişdir.
Mətbəənin ünvanı: Bakı şəhəri, A.Məhərrəmov küçəsi, 4

Nəşriyyatın ünvanı: Bakı, İçəri şəhər, 3-cü Maqomayev döngəsi 8/4